www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 19 yanvar 2017-ci il Cümə axşamı № 12 (6626) Qiymәti 60 qәpik

**Xəbər**

## Dolların rəsmi məzənnəsi rekord qırdı

yazısı səh.2-də

**Gündəm**

### Təhsil Nazirliyi bağlanan Qafqaz Universitetinin taleyinə aydınlıq gətirdi




Ləğv olunduğu elan edilən universitetin 4200 tələbəsi həm özəl, həm də dövlət ali təhsil müəssisələrinə köçürüləcək

yazısı səh.2-də

### Qarabağda erməni əsgəri öldürüldü

yazısı səh.2-də

### 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə bağlı hansı tədbirlər keçiriləcək?

yazısı səh.4-də

### Zakir Həsənovun əsgərlərlə yemək yeməsini "populizm" adlandıranlara hərbi ekspertdən etiraz

yazısı səh.5-də

### Qazın qiymətinin yenidən artacağının anonsu verildi

yazısı səh.6-da

### FİFA prezidentinin torbasını tikən kəşfiyyatçı Trampı necə qarmağa saldı - təfsilat

yazısı səh.3-də

*Ali Ağaoğlu:*

### "Azərbaycanın iqtisadi böyüklüyünə görə yetərincə rezervləri var"

yazısı səh.7-də

### İŞİD-ə qoşulanların həyat yolu: onlar niyə və necə terrorçu olurlar?

yazısı səh.15-də

### Kreml Bakını "tələyə" sala bilmədiyi üçün qəzəblidir

yazısı səh.11-də

### Tramp manatı xilas edə bilərmi...

yazısı səh.12-də

### Taksi sürücülərinə xəbərdarlıq edildi

yazısı səh.14-də

### Ölkədə içməli su fəlakəti...

yazısı səh.14-də

## Lavrov iki ölkənin arasına nifaq saldı

# KREMLLƏ BAKININ ARASI AÇILIR - BÖYÜK SKANDAL

Moskva yenə valı dəyişib; Rusiyanın erməni kökənli baş diplomatının fitnəkar açıqlamalarındakı aparıcı məram; işğalçı Ermənistana hərbi və iqtisadi dəstəyini də artıran Kreml öz forpostunu Azərbaycandan daha güclü hifz eləmək kursu götürüb...




yazısı səh.5-də

## Ağ Evin "qara torba" siyasəti ABŞ və Türkiyəni düşmənə çevirib

Amerikanın Ankaraya yönəlik "fikri ilə zikri" ziddiyyətlidir; Barak Obamanın siyasəti ABŞ və Türkiyəni fərqli səngərlərə yerləşdirib; Trampın "İŞİD Obama hakimiyyəti tərəfindən yaradılıb" açıqlaması Birləşmiş Ştatları diligödək duruma sala bilər

yazısı səh.10-da



*Etibar Əliyev:*

### "Sosial darvinizm XX əsrin ortalarında faşizmin formalaşmasında çox böyük rol oynadı"

yazısı səh.13-də



*Mehriban Vəzir:*

### "Bayraq təhqir olunursa, etiraz olmalıdır"

yazısı səh.4-də



*Qənirə Paşayeva:*

### "Anamın arzularını öz arzularımdan önə çəkdim"

yazısı səh. 8 və 9-da

# Təhsil Nazirliyi bağlanan Qafqaz Universitetinin taleyinə aydınlıq gətirdi

## Ləğv olunduğu elan edilən universitetin 4200 tələbəsi həm özəl, həm də dövlət ali təhsil müəssisələrinə köçürüləcək

**Qafqaz Universiteti ləğv olunduğunu elan edib. Bu barədə "Vergilər" qəzetinin xüsusi buraxılışında elan yerləşdirilib.**

Elana əsasən, ali təhsil ocağı təsisçinin qərarı ilə könüllü şəkildə ləğv olunur.

Kreditorlar iki ay ərzində tələblərini Xırdalan şəhəri, akademik Həsən Əliyev 120 ünvanına bildirə bilərlər.

Qafqaz Universitetinin ləğv olunması ilə bağlı "Vergilər" qəzetində dərc olunan məlumata universitetin rektoru Havar Məmmədov aydınlıq gətirib.

Rektor azvision.az-a açıqlamasında bildirib ki, təsisçi Azərbaycan Beynəlxalq Təhsil Kompleksi tərəfindən universitetin fəaliyyəti 9 yanvar tarixindən dayandırılıb.

"Hazırda universitetdə əvəzetmə komissiyası işləyir. Universitetin adı dəyişdirilməyəcək. Hər halda, dövlət universiteti olacaq. Təhsil Nazirliyi tabeliyində olan universitetlərə necə nəzarət edirsə, bu da elə olacaq. Yaxın vaxtlarda dövlət tərəfindən universitetin fəaliyyət sferası ilə bağlı qərar qəbul ediləcək".



Qafqaz Universitetində çalışan müəllimlərin məsələsinə imkanlar çərçivəsində baxıla bilər.

Təhsil Nazirliyindən APA -ya verilən xəbərə görə, tədris prosesinin bütövlüyünün qorunması məqsədi ilə universitet rəhbərliyinin Təhsil Nazirliyinə etdiyi müraciətlər imkanlar çərçivəsində nəzərə alınacaq. Bunlar arasında müəllimlərlə bağlı məsələlər də ola bilər. Çünki tədris prosesinin bütövlüyünün qorunması dedikdə təhsil alanla təhsil verənin birliyi nəzərdə tutulur.

Qafqaz Universitetinin tələbələri isə ölkənin ən aparıcı ali məktəblərinə köçürüləcək. Onlar həm özəl, həm də dövlət ali təhsil müəssisələrinə köçürülə bilər.

Qafqaz Universitetindən isə APA-ya bildirilib ki, hazırda ali məktəbin 4200 tələbəsi və 403 nəfər işçi heyəti var. Universitetdə müvafiq işçi qrupu fəaliyyət göstərir və yəqin ki, yaxın gələcəkdə müəllimlərlə bağlı müvafiq qərar veriləcək.





# İlham Əliyev Davosda mühüm görüşlər keçirdi

## Prezident: "Azərbaycanın yerləşdiyi coğrafi məkan iri transmilli layihələrin uğurla reallaşmasına rəvac verir"

**Azərbaycan prezidenti İlham Əliyev yanvarın 18-də Davosda Avropa Komissiyasının enerji birliyi üzrə vitse-prezidenti Maroş Şefçoviç ilə görüşüb. APA-nın xəbərinə görə, bu barədə Azərbaycan prezidentinin mətbuat xidmətinin yaydığı məlumatda deyilir.**

İlham Əliyevin Davosda həmçinin Rusiyanın "LUKoyl" şirkətinin prezidenti Vahid Ələkbərov və "Statoil" şirkətinin baş icraçı direktoru Eldar Saetre ilə də görüşü olub.

Bundan başqa, Azərbaycan prezidenti Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvabla görüşüb.

Prezident İlham Əliyev onu növbəti dəfə Dünya İqtisadi Forumuna dəvət etdiyinə görə K. Şvaba təşəkkürünü bildirib.

Azərbaycanla Dünya İqtisadi Forumu arasında səmərəli əməkdaşlıq əlaqələrinin qurulduğunu deyən dövlət başçısı bu əməkdaşlığın Davos Forumunun dünya ölkələrində vəziyyətin yaxşılaşdırılması ilə bağlı məqsədlərinə tam uyğun gəldiyini qeyd edib.

Prezident Azərbaycanda təhlükəsizliyin təmini və sabitliyin bərqərar olması istiqamətində mühüm tədbirlərin görüldüyünü deyib. Ölkəmizin yerləşdiyi coğrafi məkanın əhəmiyyətini vurğulayan dövlət başçısı bu amilin iri transmilli layihələrin, o cümlədən Şimal-Cənub, Şərq-Qərb nəqliyyat və digər layihələrin uğurla reallaşmasına rəvac verdiyini bildirib. Prezident İlham Əliyev son illərdə ölkəmizdə gedən inkişaf proseslərindən danışıb, Azərbaycanın yeni inkişaf mərhələsinə daxil olduğunu bildirib və iqtisadiyyatın, həmçinin ixracatın şaxələndirilməsi istiqamətində təsirli tədbirlərin görüldüyünü vurğulayıb.

Davos Forumu çərçivəsində keçirdiyi görüşlərin bir sıra mühüm layihələrin reallaşmasına səbəb olduğunu deyən prezident İlham Əliyev son illərdə Azərbaycanda mötəbər beynəlxalq tədbirlərin keçirildiyini, Bakının birinci Avropa Oyunlarına uğurla ev sahibliyi etdiyini deyib, Roma Papası Fransiskin ölkəmizə səfərini Azərbaycandakı yüksək tolerantlıq mühitinə verilən qiymətin nümunəsi kimi dəyərləndirib.

Dünya İqtisadi Forumunun icraçı sədri Klaus Şvab Azərbaycanla Dünya İqtisadi Forumu arasındakı əməkdaşlığın səmərəli olduğunu, Azərbaycan prezidentinin bu forumda iştirakının ikitərəfli əməkdaşlığa töhfə verdiyini vurğulayıb. K. Şvab ölkəmizə səfəri zamanı güclü inkişafın şahidi olduğunu deyib, Bakının gözəlliyindən danışıb, Azərbaycandakı təhlükəsizliyin və sabitliyin ölkəmizin inkişafında mühüm amil olduğunu bildirib. Son illərdə ölkəmizdə böyük işlərin görüldüyünü, Bakının mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etdiyini deyən Dünya İqtisadi Forumunun icraçı sədri Azərbaycanda mövcud olan tolerantlıq mühitini yüksək qiymətləndirib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

"Qaya Mətbuat Yayımı" MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.



Mohammed Abutrikan

# Dünyanın ən populyar futbolçusu terrorçu elan olundu

**Misir millisinin sabiq futbolçusu Mohammed Abutrikanın adı ölkədə qadağan olunmuş "Müsəlman qardaşları" İslam Hərəkatı ilə şübhəli bilinən terrorçular siyahısına daxil edilib. Apasport.az saytının məlumatına görə, bunu futbolçunun vəkili Mohammed Osman açıqlayıb.**

Adı terrorçular sırasında göstərilənlərin hər birinə ölkədən çıxış qadağan olunub, hesabları dondurulub, pasportları etibarsız elan edilib. Vəkilin sözlərinə görə, Abutrika ona qarşı irəli sürülən ittihamlardan xəbərsiz olub və bu qərardan apelyasiya verəcək.

Misir hökuməti hələ 2015-ci ildə Abutrikanın şəriki olduğu turist şirkətinin bütün hesablarını dondurmuşdu. Buna səbəb "Müsəlman qardaşları" İslam Hərəkatına maliyyə dəstəyi vermesi göstərilmişdi. Futbolçu özü isə bu ittihamları təkzib etmişdi.

Qeyd edək ki, Abutrika 2006-cı və 2008-ci illərdə Misirin heyətində Afrika Millətlər Kubokunun qalibi olub. O, 2007-ci və 2008-ci illərdə Beynəlxalq Futbol Tarixi və Statistikaları Federasiyasının (İFFHS) keçirdiyi sorğuya əsasən dünyanın ən populyar futbolçusu seçilib.

# "MTN işi" məhkəməsində "hoteldə tutulan" sabiq polis işçisi nələr danışdı...

## "Maskalılar"ın saxladığı şəxs Akif Çovdarovdan şikayətçi oldu



Akif Çovdarov

**Sabunçu Rayon Məhkəməsində ləğv edilmiş MTN-in generalı Akif Çovdarov və digər 3 nəfərin cinayət işi üzrə növbəti məhkəmə iclası keçirilib. Musavat.com xəbər verir ki, prosesdə zərərçəkmiş şəxs qismində tanınmış Kərimov Neman Süleyman oğlu ifadə verib. O, Nərimanov Rayon Polis İdarəsinin cinayət axtarış bölməsində kiçik inspektor vəzifəsində işləyib.**

N.Kərimov istintaqda zərərçəkmiş kimi ifadə verərkən deyib ki, 2009-cu ildə dayısı oğlu Elvin Mövsümov və 2 qız tanışı ilə birlikdə "Elit" hotelinə istirahətə gediblər. O bildirib ki, tanımadığı şəxslər hotelə gələrək özlərini MTN əməkdaşı kimi təqdim edib və dayısı oğlu ilə birlikdə onları nəzarətə aparıblar. Onu MTN-ə aparan şəxsin Vüqar Muxtarov olduğunu deyən zərərçəkmiş nəzarətdə polkovnik Səlim Məmmədov və Elçin Çıraqovun da oraya gəldiklərini söyləyib.

**Zərərçəkmiş Elçin Çıraqovu Nərimanov Rayon Polis İdarəsində işləyərkən tanıdığını deyib:** "MTN-in Nərimanov rayon idarəsi və polis eyni binada yerləşirdi. Elçin Çıraqovla tez-tez qarşılaşırdım. Səlim Məmmədovu isə 2006-cı ildə Elçinin oğlunun ad günündə iştirak edərkən tanıdım. Səlim MTN-də mənə "Elşad Abdullayevlə yaman konfliktə girmisən, sənin ona dişin batmaz" dedi. Səlimdən bu sözün mənasını soruşdum, lakin o, gülərək "mənim sənə ürəyim yanır deyə səni xəbərdar etdim" dedi".

**MTN-ə çağırılma səbəbi haqda danışan Neman Kərimov bunları deyib:** "Səlim Məmmədov dedi ki, Sevinc Məmmədova şikayət ərizəsi yazıb, ona 30 min manat borcum olduğunu deyib. Sevinc Məmmədova ABU-da təhsil alıb. Onu sabiq Binəqədi rayon prokuroru Mirələkbər Seyidovun vasitəsilə tanımışam. Elşad Abdullayevlə də tanışlığım olub. Həqiqətən də Sevincdən borc olaraq 30 min manat almışdım. Nə səbəbə aldığımı isə hazırda xatırlamıram. Sabiq prokuror Mirələkbər Seyidov o vaxt məni otağına çağırdı. Mirələkbər Seyidov mənim yanımda Sevincə 10 min verdi ki, məndən şikayət etməsin. Sevincə cəmi 20 min manat borcum qaldı. MTN-də bu haqda soruşanda Səlim Məmmədov belindən "Makarov" tipli tapançanı çıxarıb mənə verdi ki, saxla. Lakin əlimi silaha vurmadım. Daha sonra Səlim Məmmədov sidiyimi test etdirdi. Səlim və Elçin ona 250 min verməsəm, silah və narkotiklə məni "yükləyib", həbs edəcəklərini dedilər. Sonra Sevinc gəldi. Ondan borc aldığımı təsdiqlədim. Qiyməti 80 minə saldılar. 30 mini Sevincə, 50 mini onlara verməyimi istədilər".

N.Kərimov ifadəsində qeyd edib ki, dayısı Zakir Mövsümovdan 80 min alaraq onlara verib və nəzarətdən çıxıb.

**N. Kərimov istintaq zamanı döyülmədiyini desə də, məhkəmədə döyüldüyünü bildirib:** "İstintaq zamanı ifadə verəndə maşında döyülmədiyimi demişəm. Nəzarətdə isə məni döyüblər".

N. Kərimov məhkəmədə deyib ki, dayısı gəlib A. Çovdarovla görüşüb və pul verib.

Onun ifadəsinə münasibət bildirən A. Çovdarov N. Kərimovun dayısı ilə tanış olduğunu deyib. Bildirib ki, bir probleminə görə onunla görüşüb söhbət edib, lakin aralarında pul söhbəti olmayıb.

**Proses yanvarın 23-də davam edəcək.**

❑ **İlkin MURADOV**




# Dolların rəsmi məzənnəsi rekord qırdı - 1.83 manat...

**Azərbaycan Mərkəzi Bankı (AMB) yanvarın 19-na olan USD/AZN rəsmi məzənnəsini açıqlayıb.**

AMB-dən "APA-Economics"ə verilən məlumata görə, USD/AZN rəsmi məzənnəsi 1,8311 səviyyəsində müəyyən olunub.

# Cəlilabadda 2-ci sinif şagirdi kanalda boğulub

**Cəlilabadda 2-ci sinif şagirdi kanalda boğulub. APA-nın cənub bürosunun verdiyi məlumata görə, Şəbiyev Vəli Ramin oğlu şəhərin yeni massiv deyilən ərazisində, evlərinin yaxınlığından keçən su kanalında batıb.**

İlkin ehtimala görə, uşaq oynayarkən ayağı sürüşərək kanala düşüb.

Onun meyiti Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin Cəlilabad rayon şöbəsinə təhvil verilib.

Hadisəni Cəlilabad Rayon Prokurorluğu araşdırır.

# Qarabağda erməni əsgər öldürüldü

**Azərbaycan Ordusunun cəbhədə atəşkəs rejimini pozulmasına cavab olaraq açdığı atəş nəticəsində erməni əsgər öldürülüb.**

APA-nın "news.am" saytına istinadən verdiyi məlumata görə, Dağlıq Qarabağda öldürülən əsgər 20 yaşlı Andranik Musikyandır.

A. Musikyan yanvarın 18-də saat 14 radələrində cavab atəşi ilə məhv edilib.

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017



# FİFA prezidentinin tərbasını tikən kəşfiyyatçı

## Trampı necə qarmağa saldı - təfsilat

### Britaniya ilə Rusiya arasında casus qalmaqallarının tarixi barədə sensasion bilgilər; Kristofer Stillin Ağ Evin yeni sahibinin yataqda nə oyunlardan çıxdığını necə dosyeləşdirib yaydığı barədə detallar üzə çıxır

**Ötən həftə Böyük Britaniyanın məşhur, qalmaqallı "BuzzFeed" saytında növbəti ABŞ-ın yeni prezidenti Donald Trampa qarşı 30 səhifəlik kompromat məlumatlar dərc edilib. Mövzu anındaca dünya mass-media qurumlarının diqqətini çəkdi. Oxunma sayına görə ağlasığmaz reytinq qazandı. Az sonra dosyenin müəllifi bəlli olub. Tanış olun, bu şəxs, Britanya M-6 kəşfiyyatının sabiq əməkdaşı Kristofer Stilldir.**

***

Arvadı Lora uzun zaman Moskvadakı "British Airways" nümayəndəliyində işləyib, özü Rusiyadakı İngiltərə səfirliyində. Özü də gör harda - səfirliyin ən müqəddəs yeri sayılan arxiv şöbəsində. Bioqrafiyaları ilə elə üzdən, ötəri tanışlıq bəsdi ki, bu ailəni casus cütlüyü sayasan. Beləları istefalarından sonra da dinc durmurlar adətən. Başlayırlar ayrı-ayrı qızmar mövzuları gündəmə çıxarıb şərh etməyə.

Arxivlərdə çalışmaq təcrübəsi Kristoferi avtomatik olaraq özü kimi kəşfiyyatçılardan bir boy yuxarı qaldırır. Beləleri kompromat yığmaq, məxfi sənədləri şifrələmək və s. işlərdə başqalarına ancaq nümunə ola bilərlər.

Trampa qarşı kompromat yığmaq vəzifəsinin məhz beləsinə - arxivləşmə işinə yaxşı bələd bir kəşfiyyatçıya tapşırılmağı da, görünür, təsadüfi deyildir.

***

Dünyada çoxsaylı qatı açılmamış müəmmalı qətl hadisələri mövcuddur. Kristofer Still kimi minlərlə araşdırmaçı, sabiq kəşfiyyatçı bu cür qətllərin düyünlərini açmaq, cinayətkarı üzə çıxarmaq, son nəticədə öz adını qəzet, sayt manşetlərində görmək istəyərək, dəridən-qabıqdan çıxırlar. Misal üçün, 2010-cu ilin avqustunda Londonda müəmmalı bir qətl hadisəsi baş verib. Şəffaf idman çantası içindən Britaniya kəşfiyyatçısı Haret Uilyamsın cəsədi aşkarlanıb. Mərhum postsovet oliqarxlarının maliyyə transferlərini güdürmüş. "Formula-1" yarışlarında adı hallanan Qazaxıstan milyarderi Alican İbrahimovun oğlu Furqatla yaxın münasibətdə imiş. Meyit üzərində zorakılıq izləri əsla mövcud deyildi. İşdə qəliz tapmaca var - zərərçəkən çantanın içinə lüm-lüt soyunaraq özü girib. Çantanın zəncirini məhz özü içəridən çəkib bağlayıb. Hadisə çoxlarını, hətta MOSSAD-ı da maraqlandırıb. Dünyanın ən məşhur kriminalistləri, patoloqanatomları Haret Uilyamsın qətlini açmaq naminə sıraya düzülüblər. Əfsus, bu tapmacada hələ də müsbət irəliləyiş yoxdu.

Kristofer Still sırf peşəkar əks-kəşfiyyatçı olsaydı, o, ilk növbədə çox ciddi cinayətlərin - tutaq ki, Boris Berezovskinin, Haret Uilyamsın qətli ilə məşğul olar, konspiroloqlar arasında azdan-çoxdan yaxşı hörmət qazanardı özünə. Yox... Kristofer Still, təklif etdiyimiz fəaliyyət marşrutunu, çəkməsinin ucuyla kənara itələyib. Gedib girişib pullu-paralı Donald Tramp mövzusuna. "Dosyeni özü yığıb? Yaxud qara əlcəkli naməlum əl verib ona bütün bu informasiyanı" suallarına cavab verməzdən öncə qeyd edim ki, Kristofer Still əslində kəşfiyyatçılara yaraşmayan dərəcədə qorxadı. Dosyeni mətbuata ötürdükdən sonra deyilənə görə, bərk diksinib. Məxfi araşdırmalarla məşğul şəxs "Orbis Business Intelligence" şirkətinin işıqlarını belə söndürmədən cəld Londonu tərk edib. Elə tələsib ki, sevimli pişiklərini yedirtməyi qonşularına tapşırıb. Qaçıb gedib Surrey qraflığındakı dədə-baba malikanəsinə. Səhlənkarlığı, qorxaqlığı, işıqları söndürmədən ofisini tərk etməyi jurnalistlərin diqqətindən qaçmayıb. Britaniya qəzetləri, saytları bu acı mənzərənin - ac pişiklərin, işığı yanan otaqların şəkillərini çap edib, sual veriblər bütün ingilis cəmiyyətinə: "Bu cür qorxaq şəxs, özbaşına, təkbaşına hərəkət edib, Donald Trampa



qarşı kompromat yığmağa girişərdimi heç?"

***

2009-cu ildə arvadı Lora qaraciyər iltihabından vəfat etdikdən sonar Still öz həmkarı Kristofer Berrouzla birlikdə "Orbis Business Intelligence" şəxsi kəşfiyyat şirkətini açır. Sifariş zəmbili çox da boş qalmır.

Şirkət Beynəlxalq Futbol Federasiyası FİFA-nın məxfi rüşvət xortumunu aşkarlamağıyla da məşhurdur. Məhz həmin kompromatlardan sonra Amerika Federal Tədqiqatlar Bürosunun Avrasiya şöbəsi əməkdaşları şirkətlə əlaqəyə girib Kristofer Stili bir fincan qəhvəyə qonaq edirlər. Deyilənə görə, görüş zamanı Still kompromat dolu dosyanı amerikalılara ötürüb. Nəticədə FİFA rəhbərliyinə qarşı məlum cinayət tədqiqatı başlayıb, Zepp Blatter istefaya göndərilib.

Stilin bank hesabı bundan sonra 1 milyon funt sterlinqə qədər şişib. Niyə şişib? Necə şişib? İnanın, indiyədək bunu bilən yoxdur.

Xatırladıram - məhz Zepp Blatterin sərt mövqeyi növbəti futbol çempionatının Rusiyada keçirilməsinə hər cür şərait yaradıb. Putin bundan sonrakı müsahibələrində Blatteri xeyli tərifləyib. Təklif edib, Blatterə Nöbel mükafatı verilsin. Qısası, Kristofer Stilin FBR-in sifarişi ilə Putinə, Rusiyaya qarşı fəaliyyəti bu günün deyil, hələ dünənin faktıdır.

Kristoferin ağzı bir dəfə bu sahədə bala batıb. Necə deyərlər, bir arxa su gəlibsə, ümid var bir də gələ... Ümid var bir də



bank hesabı yekəlib, şişə...

***

Beləliklə, yazımızın pik nöqtəsinə gəlib çatdıq - Kristofer Still Kreml tanrılarına qarşı kompromat yığmağa hələ Moskvada ikən başlayıb. İlk uğurlar sonradan Still üçün bir növ vərdişə çevrilib. Kəşfiyyatçı üçün çox vacib bir şərt - analitik təfəkkürün reflektor təfəkkürlə əvəzlənməsi prosesi, Stildə məhz bu zaman baş verib. Antirus qüvvələr Stillin bu cəhətini ciddi dəyərləndirib onu müxtəlif antirus, antimoskva projelərinə qatıblar. O cümlədən həm də növbəti anti-Tramp, anti-Putin layihələrinə.

***

Kristalina Qeorqeyevna - moskvayönümlü bolqar diplomatı, BMT sədri kürsüsünə qalxmaq istərkən yada yenə Kristofer düşüb. Sifariş, anında icraata götürülüb. Bəlli olub ki, Bolqarıstanın mütəşəkkil cinayətkar qruplaşmaları ilə Kristalina arasında təkzibolunmaz əlaqə telləri mövcuddur.

Still həm də sabiq FSB agenti Aleksandr Litvinenko ilə sıx əməkdaşlıq edib. Bu səbəbdən, Litvinenko zəhərləndiyi vaxt, Britaniya kəşfiyyatının rəhbəri Con Skarlet məhz Kristoferə müraciət edərək ondan öz suallarına dəqiq cavab gözləyib. O da yumub gözlərini, açıb ağzını. Litvenenko qətlində poloniy izi versiyasını ilk dəfə mətbuata ötürüb. Nəticədə, bütün dünya mətbuatını hələ o zaman Rusiyaya qarşı səfərbər etməyi bacarıb.

Görünür, ondan növbəti dəfə bu idman rekordunu təkrarlaması tələb olunur.

***

Anti-Tramp dosyesindən əldə etdiyimiz kiçik çıxarışlarla tanış olun indi.

**TAM MƏXFİ. GİZLİ MƏNBƏLƏRDƏN.**

**SƏNƏD 2016/080**

**MÖVZU - RESPUBLİKAÇI NAMİZƏD DONALD TRAMPIN RUSİYADAKI FƏALLIĞI. KREMLLƏ İFŞAEDİCİ MÜNASİBƏTLƏR.**

**QISACA**

Rusiya rejimi ən azı 5 ildir ki, Trampı öz nəzarət dairəsində saxlayaraq onu uzaqdan-uzağa idarə etməyə çalışır. Tramp üzərində nəzarət, əvvəlcə Rusiya Xarici İşlər Nazirliyi səlahiyyətləri çərçivəsində idi. Məsələ ciddiləşincə, dosye keçir FSB-nin ixtiyarına. Lap şişəndə, Rusiya Prezident Administrasiyası, şəxsən Dmitriy Peskovun iti caynaqlarına...

Peskov, Tramp avantürasının, anti-Klinton təbliğatının ana nüvəsidir. Türkiyədə artmış Rusiya fəallığı da məhz Peskovun adıyla bağlıdır. Türkiyədəki bütün əməliyyatlar onun nəzarəti altındadır...

Rusiya Prezident Administrasiyası rəhbəri Sergey İvanovun 2016-cı ilin avqustunda öz vəzifəsindən getməsi faktı onun anti-Peskov mövqeyi ilə əlaqəlidir... İvanov Trampla bağlı kəşfiyyat fayllarının Peskova ötürülməyini həzm etmək istəməyib. Baş nazir Dmitriy Medvedyev də Tramp avantürasını qəbul etməyənlər sırasındadır. Hesab edir ki, Amerika ilə belə oyunlara getmək olmaz...

Rusiyada 15-ə yaxın haker dəstəsi FSB-nin göstərişi ilə gizli şəkildə Trampa yardım göstərib. Dəstələr içində ən fəalları "Anunak", "Buktrap", "Metel" qruplaşmalarıdır...

İstefada olan FSB zabiti iddia edir - Trampa qarşı kompromat Kreml tərəfindən sənədləşdirilib. Tramp 2013-cü ildə Moskvada gözəllik yarışması keçirərkən bəzi xoşagəlməz seksual əyintilərə yol verib. Başına yığdığı rus seks agentlərini - əslinə qalarsa, FSB əməkdaşlarını, Moskvadakı "Ritz Carlton" hotelinə gətirib. Vaxtilə Barak Obamanın arvadı Mişellə qaldığı otağa girib orda min bir oyun çıxarıb. Obamanı təhqir etmək naminə ordakı çarpayını murdarlayıb. Fahişələrə əmr edib hamısı birlikdə eyni anda bu çarpayı üzərinə "çiş" eləsinlər...

"Ritz Carlton" hotelindəki biabırçılıqlar, digər müstəqil qaynaqlar - anonim FSB zabiti, çox saylı hotel xidmətçiləri tərəfindən təsdiqlənib...

***

**Dosyedəki ən maraqlı müəmmalar, məncə, 2016/134 saylı sənəddə öz əksini tapıb:**

**"İqor Seçinə - "Rosneft" şirkətinin sahibinə yaxın mənbə bildirir: Kreml, müəyyən şərtlər daxilində, "Rosneft" səhmlərinin böyük qismini Trampa vermək istəyir. Danışıqlar İqor Seçinlə Karter Peyj - Trampın nümayəndəsi arasında aparılıb. Nəticə bilinmir. Tarix: 2016-cı il 7-8 iyul...**

Kremldəki insayder, Trampın vəkili Maykl Koeni, Rusiya ilə məxfi əlaqələrdə ən vacib halqa bilir... Koenin həyat yoldaşı rus mənşəlidir. Atası, Moskvanın ən bərkgedən tikinti maqnatıdır...

İqor Seçin gələcək əməkdaşlıq müqabilində Trampa "Rosneft" şirkətinin 19 faiz səhmlərini vəd edib... Deyib, Rusiyaya qarşı sanksiyaların ləğvinə Tramp yardım edərsə, biz ona səhmləri verməyə hazırıq...

***

**FİFA prezidenti Zepp Blatteri nokauta salmaq Kristofer Stilə öz əhatəsi çərçivəsində böyük şöhrət gətirib, cüzdanına 1 milyon funt sterlinq pul. Lakin onun bu xətti indi də təqib etmə cəhdi o qədər də inandırıcı görünmür. 2018-ci ildə keçiriləcək futbol üzrə dünya çempionatının Rusiyada keçiriləcəyi faktı, bəli, təkzibolunmazdı. Amma deyəsən çoxları hələ də bununla razılaşmaq fikrində deyillər.**

**Dosyedəki "Donald Trampa, Rusiyada ötürüləcək əmlak payları, gələcək futbol çempionatının infrastrukturu ilə bağlıdır" iddiası, bu baxımdan gələcək gərgin hadisələrin anonsu da sayıla bilər.**

**O ki qaldı Trampın "Ritz Carlton" hotelində murdarladığı çarpayıya...**

**Məncə, o çarpayı tezliklə Ginnesin rekordlar kitabına düşəcək. Trampı təkrarlayan müştərilər, görərsiz, itinətök qədər çox olacaq bu hoteldə.**

❑ **Həmid HERİSÇİ**

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017



# 20 Yanvar faciəsinin 27-ci ildönümü ilə bağlı hansı tədbirlər keçiriləcək?







## Məktəblərdə həmin tarixlə bağlı dərslər keçiriləcək, iqtidar və müxalifət düşərgəsi də şəhidləri yad edəcək

**Sabah Azərbaycanın tarixinə qanlı hərflərlə yazılan 20 Yanvar faciəsinin 27-ci ili tamam olur. Hər il olduğu kimi, bu il də ölkəmizin bütün şəhər və rayonlarında, idarə və təşkilatlarında tədbirlər keçiriləcək. Bir neçə gün əvvəl Prezidenti Administrasiyası rəhbərinin sərəncamı ilə "20 Yanvar faciəsinin iyirmi yeddinci ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı" təsdiq edilib. Sərəncamda 20 Yanvar hadisələri ilə bağlı müxtəlif qurumlarda konfrans, toplantı və mühazirələrin təşkili, mədəniyyət ocaqlarında faciəyə həsr olunmuş tamaşaların göstərilməsi, bədii və sənədli filmlərin nümayiş etdirilməsi, bu tədbirlərin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, dünya ictimaiyyətinin diqqətini faciəyə yönəltmək məqsədilə Azərbaycanın xarici ölkələrdəki səfirlikləri, diplomatik nümayəndəlikləri və icmaları vasitəsilə müvafiq tədbirlərin keçirilməsi, dünyanın aparıcı kütləvi informasiya vasitələrində, eləcə də televiziya kanallarında və internet şəbəkələrində 20 Yanvar faciəsi barədə materialların verilməsi nəzərdə tutulub.**

Təhsil Nazirliyinin yaydığı məlumata görə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 20 Yanvarla bağlı dərslər keçiriləcək. Dərslərdə ilk olaraq xalqımızın azadlığı uğrunda həlak olan şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad ediləcək, şagird və müəllim kollektivlərinin Şəhidlər Xiyabanına ziyarəti də təşkil olunacaq. Müxtəlif partiya və qurumlar da faciə ilə bağlı tədbirlər keçirib, şəhidlərimizin xatirəsini yad edəcəklər.

Ümid Partiyasının sədri İqbal Ağazadə partiya üzvləri ilə birgə Şəhidlər Xiyabanını ziyarət edəcək.

**KXCP sədri Mirmahmud Mirəlioğlu isə qeyd edib ki, "20 Yanvar dərsləri və bu gün" mövzusunda dəyirmi masa keçirilib:**

"Tədbirdə kifayət qədər əhatəli müzakirələr apardıq. O cümlədən də hər il 20 yanvar saat 12-də biz start vəziyyətində bir dəqiqəlik sükutla şəhidlərimizi anırıq. Biz şəhidlərimizə borcluyuq. Bir neçə məsələlərə görə xüsusilə. İlk növbədə Azərbaycan türkcəsinə şəhidlik terminini gətirib ona vətəndaşlıq hüququ qazandırdığına görə. İkincisi, müstəqilliyimizin əldə olunmasında şəhidlərimizin müstəsna rolu var. Onlar son yüzillikdə şəhidliyin bünövrəsini qoydular. Beləliklə, partiyamızın bütün rayon şöbələrində faciə anılacaq, harada 20 Yanvar abidəsi varsa ziyarət olunacaq".

**"Yeni Müsavat" qəzetinin baş direktoru Ələsgər Süleymanovun sözlərinə görə, qəzetin 20 yanvar sayındakı yazıların əksəriyyəti faciəyə həsr olunan materiallar olacaq:** "Həmişəki kimi, bu il də 20 Yanvar faciəsini anacağıq. Yanvarın 19-dan 20-nə çıxan qəzet nömrəmiz həmişəki kimi rəngsiz çıxacaq. Bu, şəhidlərimizə olan hörmət əlamətidir. Qəzetimizin 20 yanvar sayındakı yazılarımızın əksəriyyəti faciəyə həsr olunan materiallar olacaq. Həmin gün redaksiyamız işləməyəcək".

**"Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu da əməkdaşımıza verdiyi açıqlamasında qeyd edib ki, 20 Yanvar faciəsi ilə bağlı müxtəlif səpkili yazılar dərc olunacaq:** "20 Yanvar Azərbaycanın ən müasir tarixinin həm qəhrəmanlıq, həm də faciəvi səhifələrindən biridir. Tarixdə çox böyük ibrət dərsləri var. Uzun illər keçdikdən sonra bu tarixə diqqət edəndə onun nə qədər əhəmiyyətli olduğunu görürük. "Yeni Azərbaycan" qəzeti olaraq ölkədəki ümumi əhval-ruhiyyəyə və sərəncama uyğun olaraq tədbirlədə iştirak edir, məlumatları qəzetimizdə işıqlandırırıq. Bu tarixin unudulmaması üçün ideoloji qəzet olaraq yanvar ayı ərzində hər gün səhfəmizdə müxtəlif səpkili yazılar dərc edirik".

**Ənənəvi olaraq Bakı Metropoliteni də faciə ilə bağlı tədbirlər keçirəcək. Bu barədə Bakı Metropolitenin mətbuat xidmətinin rəhbəri Nəsimi Paşayev bildirib:**

"Həmin gün metronun "20 Yanvar" stansiyasında qərənfillərdən ibarət kompozisiya olacaq. Həmçinin stansiyalarda qərənfillər olacaq, matəm musiqisi səsləndiriləcək. Saat 12:00-da isə bütün qatarlar stansiyalarda dayanacaq, qatarlar fit verəcək və şəhidlərin əziz xatirəsi 1 dəqiqəlik sükutla yad ediləcək".

❑ **Xalìdə GƏRAY**

# Millət, bayraq və Rəcəb İvedik komediyası...

## **Mehriban Vəzir:** "Bayraq təhqir olunursa, etiraz olmalıdır"

## **Dilavər Əzimli:** "90-cı illərdə kağızın üzərinə bayraq çəkib öpüb gözlərinin üstünə qoyurdular, bəs niyə cəmiyyət indi bu vəziyyətə gəldi?"




**Son zamanlar ölkə ictimaiyyətində belə bir qəribə hal formalaşıb ki, bayrağımızın, millətimizin təəssübünü çəkən şəxslər müəyyən qrup insanlar tərəfindən qınanılır. Onlara populist deyilir, bu addımları müəyyən bir formada pislənilir.**

Elə son olaraq Türkiyənin məşhur komediya filmi "Rəcəb İvedik"in fraqmanında baş verənlərə sosial şəbəkələrdəki münasibəti göstərə bilərik.

**"Yeni Müsavat"a danışan yazıçı-publisist Mehriban Vəzir** bildirib ki, ölkədə milli vətənpərvərlik 1990-cı illərdə olduğu səviyyədə deyil: "Çünki ötən illər ərzində vətənpərvərlik anlayışı tamamilə başqa istiqamətlərə yönləndirildi. Nəticədə isə vətənpərvərlik tamam başqa anlam daşımağa başladı. Ancaq bütün hallarda insanlar bilməlidirlər ki, bəzi toxunulmaz və müqəddəs olan dəyərlər var. Vətəndaş üçün o dəyərlərdən biri də bayraqdır. Bayraq onun dəyərini bilənlər üçün toxunulmazdır. Buna görə də cəmiyyət nə qədər inkişaf etsə də, bayrağa hörmət olmalıdır. Demokratik baxımdan inkişaf etmiş xeyli sayda dövlətlər var. Hansı ki, biz həmin dövlətlərdəki liberallığı və digər bu kimi məsələləri özümüzə örnək kimi götürürük. Əgər belədirsə, eyni zamanda onu da görməliyik ki, onlar üçün bayraq nə qədər ciddi, toxunulmaz atributdur. Məlum filmdə bayrağımızı təhqir olunmuş hesab edənlərin etirazlarını normal qarşılayıram. Həqiqətən də bayraq təhqir olunursa, etiraz olmalıdır. Eyni zamanda bu etirazlara etiraz edənlərə də anlayışla yanaşıram. Onlar sanki kimliklərini itirmiş bir durumdadırlar və hardadırlar, kimdirlər, vətən nədir bunu bilmirlər. Bunun da səbəbi ölkənin daxilində olan repressiya, yalançı vətənpərvərlikdir. Bu baxımdan, düşünürəm ki, yaranmış mənzərə ictimai stressin, depressiyanın yetişdirdiyi simptomlardır. Ancaq bütün hallarda düşünürəm ki, cəmiyyətdə bu cür ictimai qarşıdurmalar, müzakirələr olmalıdır. Lakin bunlar etik, siyasi-ictimai nəzakət çərçivəsində aparılmalıdır. Dəyərləri yüksək tutanlar da, ayaqlar altına salanlar da bu cəmiyyətin övladlarıdır. Onların hər birinin öz yeri və qiyməti var. Heç kimi gözdən salmaq lazım deyil".

**Tarixçi Dilavər Əzimli isə bildirib ki, sosial şəbəkələrdə bu kimi yazışmaları izləyib, təəssüf hissi keçirir:** "Bayraq bir dövlət üçün çox müqəddəsdir. Bayraq, eyni zamanda həm dövlətçilik, həm də dini baxımdan çox əhəmiyyətlidir. Dində bayrağa ələm deyərlər. Döyüşdə bayrağın ələ keçirilməsi, həmin döyüşün uduzulması deməkdir. Yəni bayraq dövlətin əsas atributlarından biridir. Bayraq gətirildiyi zaman hər kəs ayağa durar, bayraq qalxarkən hamı ona baxar. Demək ki, bayraq elə dövlətin özüdür. Əgər hər hansı bir formada bayraq alçaldılırsa, təhqir olunursa, buna cəmiyyət tərəfindən sərt reaksiya verilməlidir. Bayraq heç komediya filminin hədəfi də ola bilməz. Diplomatik görüşlərdə də bayrağa protokola uyğun olaraq, ciddi nəzarət edilir. Onun harada və necə qoyuluşuna çox diqqət yetirilir. Cəmiyyətdə getdikcə milli təəssübkeşlik ona görə azalır ki, cəmiyyətlə işləmə mexanizmini düzgün formada qura bilmirlər. Əgər teleradio, televiziya məkanında bununla bağlı verilişlər hazırlanmırsa, təbii ki, bu cür vəziyyət yaranar. Əgər efir teleməkanı bayağı müğənnilərdən, səviyyəsi aşağı olan jurnalistlərdən ibarətdirsə, cəmiyyətin də bu günə düşməsində qeyri-adi heç nə yoxdur. Problemin öhdəsindən gəlmək üçün xüsusi təbliğat kampaniyası aparılmalıdır. Almanlarda bayraq gəldiyi zaman insanlar küçədə də ayaq saxlayırlar. Qardaş Türkiyənin özündə də bayrağa münasibət qürurvericidir. Deyərdim ki, xalq, xəmir kimi bir şeydir və onu necə istəsən yoğura bilərsən. 1990-cı illərdə biz başqa cür yoğrulduq. Qarşıdan 20 Yanvar hadisələrinin ildönümü gəlir. Tarixə diqqət edin ki, həmin zaman bütün xalq bir mövqedə idi. Rayonlu, şəhərli məsələsi yox idi. Hər kəs bir millət kimi meydanda idi. Ancaq təəssüf ki, bundan istifadə edə bilmədirlər".

**Tarixçi bildirib ki, bayrağa münasibət də bu cür olmalı idi:** "1990-cı illərdə kağızın üzərinə bayraq çəkib, onu öpüb gözlərinin üstünə qoyurdular. Bəs nə üçün cəmiyyət bu vəziyyətə gəldi? Bax burada da yuxarıda qeyd etdiyimiz xəmir məsələsi yada düşür. Millət yenə də həmin millətdir. Bu il də diqqət edəcəksiz ki, 20 Yanvar günü minlərlə insan şəhidlərimizin məzarını ziyarət edəcək. Demək ki, 1990-cı illərdə bu xalqın xəmiri möhkəm yoğrulub və yaddaşlardan həmin anlar silinmir. Bayrağa, gerbə də münasibəti bu cür etmək olar. Bunun üçün isə hər kəs öz yerində olmalıdır. Sosial şəbəkələrə baxıram ki, bayağı, mənasız şeyləri nə qədər adam bəyənir. Ancaq bayraq, millətlə bağlı nə isə yazanda, ona 5-6 adam reaksiya verir. Bax bu, səviyyədir. Bu səviyyənin qaldırılması isə cəmiyyəti idarə edən qüvvələrdən, ziyalılardan asılıdır. Hanı ziyalılar? 90 faiz yaltaqlığı, təlxəkliyi seçən ziyalı bayrağı necə sevdirə bilər? Bütün qeyd olunan problemlərin səbəbi də elə budur".

❑ **Əlì RAÌS**

# Lavrov iki ölkənin arasına nifaq saldı

**Rusiyanın xarici işlər naziri, erməni kökənli Sergey Lavrovun Qarabağ mövzusunda son açıqlamaları şok effekti yaratsa da, əslində təəccüblü deyil. Unutmaq olmaz ki, Ermənistan Azərbaycandan fərqli olaraq, bölgədə Rusiyanın yeganə hərbi-siyasi müttəfiqi, forpostudur. Yəni Moskva özünü Azərbaycana münasibətdə nə qədər strateji tərəfdaş kimi qələmə verməyə çalışsa da, zaman-zaman "əsl buynuzunu" göstərmək, işğalçı ölkənin sahibinin kim olduğunu xatırlatmaq zorundadır.**




## Kremllə Bakının arası açılır

### Moskva yenə valı dəyişib; Rusiyanın erməni kökənli baş diplomatının fitnəkar açıqlamalarındakı aparıcı məram; işğalçı Ermənistana hərbi və iqtisadi dəstəyini də artıran Kreml öz forpostunu Azərbaycandan daha güclü hifz eləmək kursu götürüb...

Azərbaycanın israrla Putinin Avrasiya layihələrinə qoşulmaqdan imtina eləməsi də söz yox ki, rəsmi Kremli qıcıqlandıran və onun Lavrov-Kələntərov timsalında Azərbaycan əleyhinə açıqlamalar verməsinə stimul yaradan faktordur. Diqqət edin, bir yandan Rusiya ölkəmizin ərazi bütövlüyünü tanıdığını, "DQR" adında qurumu tanımadığını bəyan edir, digər yandan da XİN rəhbərinin dilindən "Qarabağda hərbi əməliyyatlar Azərbaycanın daxili məsələsi deyil" deyir. Paradoks?

Əlbəttə ki. Çünki Azərbaycanın ərazi bütövlüyünü tanıyırsınızsa, o zaman nədən Azərbaycan öz sərhədləri daxilində antiterror əməliyyatı aparmaq üçün Rusiyadan izn almalıdır? Bu, şübhəsiz ki, suveren Azərbaycana qarşı rəsmi Moskvanın təhdididir - həm də işğalçı Ermənistanı sakitləşdirməyə yönəlik təhdiddir.

***

Kremlin İrəvana reveransları bununla bitmir. Moskva ona hərbi dəstəyini də artırmaqdadır. Bu da növbəti fakt: Lavrovun açıqlaması ilə eyni gündə bəlli olub ki, Rusiya özünün Gümrüdəki 102 saylı hərbi bazada "Nebo-M" ən müasir radio-lokasiya sistemi (RLS) yerləşdirib. Bu haqda Rusiya Müdafiə Nazirliyinin "Hərbi icmal" jurnalında nəşr olunan məqalədə deyilir. Müəllifin iddiasına görə, yeni RLS "Azərbaycanın İsraildən "Green Pine" RLS-i almasına layiqli cavab olacaq, həmçinin Türkiyə, İraq, Suriya və Gürcüstanın böyük bir ərazisini nəzarətdə saxlamağa imkan verəcək".

Məqalədə bildirildiyinə görə, Rusiyanın sərəncamında 10 komplektdən çox "Nebo-M" RLS-i var. Onlar şərq və qərb hərbi dairələri ilə yanaşı, Ermənistanda yerləşdirilib. Müəllifə görə, "Nebo-M" radiotexniki kəşfiyyatın yeganə mobil vasitəsidir ki, aşağı və orta uçuşlu raket hücumu haqda xəbərdarlıq funksiyasına və bu zaman uçuş haqda vaxtında məlumatlandırmaq imkanına malikdir. Bundan əlavə, bildirilir ki, "Nebo-M" 200-250 km məsafədə, sektor rejimində və 160 km ətrafında, reaktiv yaylım atəşi sistemlərinin korrektə olunan mərmilərini aşkarlamaq xüsusiyyətinə malikdir.

***

Bu arada həmçinin bəlli olub ki, Rusiya Ermənistan iqtisadiyyatına minimum 300 milyon dollar investisiya yatırmaq niyyətindədir. Axar.az xəbər verib ki, bu barədə informasiyanı "Aykakan Jamanak" qəzeti özünün etibarlı mənbələrinə istinadən yayıb. Lakin qəzet investisiyaların məhz iqtisadiyyatın hansı sahələrinə yönəldiləcəyini açıqlamayıb. **"Bizim mənbələrin məlumatına görə, bu barədə siyasi qərar Rusiya rəhbərliyi tərəfindən qəbul edilib. Onlar bununla Karen Karapetyan hökumətinə dəstək vermək istəyirlər. Bu dəstək K.Karapetyanın Ermənistanın hakim dairələrində mövqelərinin gücləndirilməsinə və ictimaiyyət qarşısında nüfuzunun artırılmasına yönəlib. Qeyd edək ki, 300 milyon dollar bizim iqtisadiyyat üçün elə də böyük məbləğ deyil. Lakin əgər 2016-cı ildə ölkəyə xarici investisiyaların ümumi axınının bu rəqəmin heç yarısı qədər olmadığını nəzərə alsaq, o zaman Moskvanın dəstəyinin öz hədəfinə çatacağını təsdiq edə bilərik"**, - deyə məqalədə vurğulanır.

***

Beləcə, Rusiya Güney Qafqazdakı yeganə hərbi forpostu və satellitinə həm mənəvi ruh verir, onu Azərbaycanın hücumlarından sığortalamağa çalışır, arxayın edir, həm təhlükəsizliyini gücləndirmək üçün işğalçı ölkəyə vaxtaşırı müasir hərbi sistemlər ötürür, həm də imkan daxilində iqtisadiyyatının tam çökməməsi üçün maliyyə dəstəyi ayırır - özünün iqtisadi durumu çətin olsa da.

Kəsəsi, bahalı məşğuliyyət olsa da, öz maraqları naminə təcavüzkarı hər vəchlə bəsləyir, çünki özü də təcavüzkar ölkədir, həm Azərbaycan torpaqlarının ortaq işğalçısıdır, həm də Gürcüstan, Ukrayna, Moldova ərazilərinin bir hissəsini zorla qəsb etmiş imperiya dövlətidir.

Göründüyü kimi, Ermənistana üç istiqamətli dəstək bilavasitə Azərbaycanın köklü maraqları əleyhinə yönəlib. Ən önəmlisi, Kremlin öz marionetini hərbi, iqtisadi və mənəvi cəhətcə ayaqda saxlamaq, onun Azərbaycan qarşısında kritik səviyyədə zəifləməsini önləmək siyasəti müstəsna olaraq Qarabağın işğalını uzatmağa yönəlib. Moskva bununla, söz yox ki, ilk öncə konfliktin hər hansı formada həllini - istər dinc yol olsun, istərsə də hərb - öz inhisarında saxlamaq niyyəti güdür.

***

Yaranmış vəziyyətdə Azərbaycan üçün yeganə düzgün çıxış yolu - Azərbaycanın heç nəyə baxmadan iqtisadi və hərbi cəhətdən durmadan güclənməsi, bölgənin ən nümunəvi, azad və demokratik dövlətə çevrilməsidir. Təbii ki, qardaş Türkiyə ilə birgə sinxron siyasət yürüdülməsi, ölkəmizin hərbi parkının Rusiyadan asılılığının tədricən azaldılması da Qarabağ strategiyamızın əsas ünsürlərindən olmalıdır.

Həmçinin qardaş ölkə ilə hərbi əməkdaşlığı Rusiyanın Ermənistanla analoji əlaqələri səviyyəsinə qaldırmaq Azərbaycanın prioritetlərindən olmalıdır. Yeri gəlmişkən, bir sıra analitiklərə görə, Türkiyə öz problemlərini həll etdikdən sonra Azərbaycanın həm Rusiyaya, həm də Ermənistana daha effektiv təsir imkanları yaranacaq.

Lavrovun son fitnəkar açıqlamaları isə bizi bir daha əmin eləməlidir ki, Rusiya heç vaxt Azərbaycana Türkiyə qədər yaxın, tərəfdaş olmayıb və olmayacaq. İllüziyalardan, "Rusiya ilə tərəfdaşlıq" nağıllarından qurtulmaq zamanı çatıb. Moskva ilə aranın "açılması" hesabına da olsa, Bakı daha prinsipial mövqe sərgiləməyi bacarmalıdır. Yoxsa Rusiya rəsmiləri daha abırsızcasına üstümüzə gələcəklər.

Hər necə olmasa üçüncü onillikdir Kremlin Qarabağ siyasətinin mahiyyətində nə durduğu aydındır. Əfsus ki, xarici işlər naziri Elmar Məmmədyarovun Rusiya baş diplomatının məlum açıqlamalarına reaksiyası dişsiz oldu. Amma əksi lazım idi. Ən azı ona görə ki, artıq Rusiya Azərbaycana ən böyük pisliyini edib. Bundan artığını edə bilməz. O gücdə deyil. İslanmışın yağışdan nə qorxusu ola bilər ki? Yaxud belə qorxu varsa da, bu, yüz faiz Azərbaycanla bağlı deyil.

❑ **Siyasət şöbəsi**



## "Nazirin əsgərlərlə bir yerdə yemək yeməsi çox müsbət haldır"

### Zakir Həsənovun bu iş prinsipini "populizm" adlandıranlara hərbi ekspertdən etiraz

**2013-cü ildən Azərbaycanın müdafiə naziri olan general-polkovnik Zakir Həsənov sələfindən bir çox davranışlarına, iş taktikasına görə fərqlənir. Elə həftə olmur ki, nazir hansısa hərbi hissədə əsgərlərlə və zabitlərlə görüşməsin. Müdafiə naziri cəbhə xəttində, birbaşa düşmənlə təmas xəttində olan əsgər və zabitlərlə tez-tez görüşür, əsgər kazarmalarına gedir, əsgərlərlə birlikdə yemək yeyir. Zakir Həsənovun bu iş prinsipi cəmiyyətdə əvvəldən rəğbətlə qarşılanır. Ancaq istisnalar da yox deyil. Belə ki, bəzi sosial şəbəkə iştirakçıları və jurnalistlər müdafiə nazirinin əsgərlərlə birlikdə yemək yeməsini və bunun tez-tez təkrarlanmasını, hər dəfədə efirə verilməsini populizm kimi qiymətləndirirlər. Son günlər bu cür fikirlərə rast gəlməkdəyik.**

Hərbi ekspertlər isə müdafiə nazirinin əsgərlərlə tez-tez şəxsən görüşməsini, bir yerdə yemək yeməsini populistlik adlandıranların yanlış fikirdə olduğunu bildirirlər.

**Hərbi ekspert Üzeyir Cəfərov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, müharibə aparan bir ölkənin müdafiə naziri kabinetdən daha çox səngər şəraitində, əsgərlərin yanında olmalıdır. Hətta Müdafiə Nazirliyinin özü cəbhə bölgəsinə müəyyən qədər yaxın ərazidə olsa daha yaxşıdır: "İndiki müdafiə naziri və baş qərargah rəisi vaxtaşırı, hər həftə bir neçə hərbi hissəyə baş çəkirlər, səngərdə əsgərlərlə görüşürlər. Nazirin əsgərlərlə bir yerdə yemək yeməsi də çox müsbət haldır. Nazirin bu addımını tənqid etmək doğru yanaşma deyil. Əsgərlər üçün müdafiə nazirinin onlarla birlikdə olması, onlarla bir masada əyləşib yemək yeməsi sadə məsələ deyil. Bu, əsgərlərdə ruh yüksəkliyi yaradır. Nazirin əsgərlərin nə ilə qidalanması ilə, hansı şəraitdə yatması, səngərdəki durumu ilə şəxsən yerində tanış olması çox yaxşı haldır.

Lakin bəzi ciddi məsələlər var ki, mən bunları da Azərbaycanın, ordumuzun maraqları naminə deməliyəm. Ermənistan kimi məkrli düşmənlə üz-üzə olan, ətrafında onu istəməyən başqa dövlətlərin də olduğu Azərbaycanın müdafiə nazirinin, baş qərargah rəisinin, briqada komandirinin, birləşmə komandirinin eyni vaxtda eyni səngərdə, cəbhə xəttində eyni vaxtda eyni nöqtədə olması müharibə şəraitində hərbin qanunlarına uyğun deyil. Mən bunu bir neçə dəfə vurğulamışam ki, məkrli düşmən bundan hər an istifadə edə bilər və Allah uzaq eləsin, ölkəmiz çox ciddi zərbə almış olar. Azərbaycanın qanına susamış bir düşmənlə üz-üzəyik. Düşmən fürsətdən istifadə edə bilər. Mən cəmi bir-iki cümlə ilə fikrimi bildirdim, geniş izahatlı danışmağa lüzum görmürəm. Müdafiə Nazirliyinin rəhbərliyi də şübhəsiz ki, mənim nəyi vurğuladığımı bilir. Son dərəcə ehtiyatlı və diqqətli olmaq lazımdır. Mən bu narahatlığımı Prezident Administrasiyasının yüksək rütbəli şəxsləri ilə görüşümdə də bildirmişəm".

**Ü.Cəfərov dedi ki, informasiya siyasətində operativlik məsələsinə də daha çox diqqət ayrılması vacibdir. Müharibə şəraitində olan ölkənin bütün xidmətləri 24 saat gözlərini qırpmadan hazır vəziyyətdə olmalıdır:** "Düşmənin istənilən an təxribatı olur. Bəzən biz heç də xoşagəlməyən məlumatla üzləşirik. Düşmənə sərf eləyən və düşmənin yaydığı o məlumat bütün dünyanı dolaşandan sonra növbəti gün Müdafiə Nazirliyinin və yaxud da digər müvafiq strukturların reaksiya verməsi artıq bizim hadisələrin ardınca sürünməyimiz mənzərəsini yaradır. Ümumilikdə götürəndə təbliğat işi pis qurulmayıb, qeyd etdiyimiz bəzi nüanslar da düzəlsə daha yaxşı olar. İndiki dövrdə müharibə təkcə silahla deyil, həm də informasiya ilə aparılır. Media ilə sıx işləmək işin zərərinə yox, xeyrinədir. Bizim tənqidlərimizi də dostyana, Azərbaycanın, ordumuzun maraqları xatirinə deyilmiş fikirlər olaraq qəbul etmək lazımdır".

❑ **Etibar SEYİDAĞA**



# Hozu Rəcəb, aşağılanma faktı və başıqapazlılıq sindromu

Xalid KAZIMLI

**Uzun illərdir ki, dünyanın ən qüdrətli adamı ABŞ prezidentidir (kimliyindn asılı olmayaraq), əlinin üstündə əl yoxdur, hər saat da sözünün qabağında söz deyən olmur.**

Ancaq bu qüdrətli adam jurnalistlərin, diplomatların, siyasilərin yanında "bir ingilis, bir yəhudi, bir rus olur" deyə lətifə danışa bilməz, buna cəhd eləsə qalmaqalla üzləşər. (Nadir hallarda belə edənlər olsa da sonradan peşman olublar).

Çünki o lətifənin sonunda ya ingilis ağıllı və pulgir, ya yəhudi hiyləgər və xəsis, ya da rus kütbeyin və aqressor çıxacaq. Mütləq hansısa millət aşağılanmış olacaq və bu, təbii olaraq kəskin reaksiya doğuracaq.

İrqi, milli məsələ dünyanın hər yerində həssas məsələdir, bu xüsusda zarafatlar, rişxəndlər xoş qarşılanmır.

Bu üzdəndir ki, son illərdə ABŞ-da qaradərili vətəndaşlara "zənci" ("neqr") demirlər. Ona görə ki, qaradərili vətəndaşlar bunu aşağılama aktı kimi qəbul edərək etiraz edirlər, ortalıq qarışır.

5-6 il öncə İtaliyanın baş naziri Silvio Berluskoninin ABŞ prezidenti Obama haqqında "Barak bir az günəşdə çox qalıb, qaralıb" deməsi də skandala səbəb olmuşdu. Halbuki bu, adi zarafat idi.

İndi yavaş-yavaş gələk mətləb üstünə.

Sovet vaxtı, ötən əsrin 60-cı illərində vətənpərvər şairimiz Bəxtiyar Vahabzadənin yazdığı "Gülüstan" poemasında bir misra vardı:

"Biri "baran" dedi, bir "xər" dedi"...

İçində bu misranın olduğu, sonradan sovet senzurası tərəfindən qadağan edilən bu əsər Azərbaycanın iki yerə parçalanmasından bəhs edirdi və bölücülərin millətimizə qarşı həqarətli yanaşmasını göstərirdi.

Bəli, bu faktı gözardı etmək olmaz, ölkəmizi iki yerə parçalayan dövlətlərin dominant əhalisi millətimizə qarşı bu cür yarlıqlar yapışdırırdı və o rüsvayçı xasiyyət onları hələ də tərk etməyib.

Bütün bunlar faşizmdir. Bəzən fərqinə varmadan biz də özümüzdən şərqdə, şimalda, cənubda yaşayan millətlərə həqarətli epitetlər ("monqol", "əkəbala", "qıyıqgöz", "sarıqulaq", "vəhşi bədəvi", "ibnələr" və s.) yapışdırırıq.

Təbii ki, aşağıladığımız, yaxud da aşağılamağa çalışdığımız millətlərin nümayəndələri bu davranışımıza loyal yanaşmırlar, o faktla qarşılaşanda mütləq kəskin reaksiya verirlər.

Biz də eləyik. Hansısa başqa bir millətin oğlu-qızı bizi aşağılamağa, ələ salmağa cəhd edirsə, layiqli cavabını alır.

Türkiyədə istehsal olunan "Rəcəb İvedik-5" filmindəki epizoda azərbaycanlıların kəskin reaksiya verməsinin başlıca motivi budur. Filmdə doğrudan da millətimizi aşağılama cəhdi var.

Zatən, filmin ssenari müəllifi, rejissoru və baş rol oyunçusu Şahan Gökbakarın başqa filmlərində də digər millətləri, fərqli insanları aşağılayan eizodlar həddən çoxdur. O, bunun insanlarda gülüş doğurduğunu zənn edir və çox da yanılmır. Tamaşaçılar belə şeylərə gülürlər.

Ancaq bu, aşağılanan kateqoriyadan olan insanlar qrupuna aid olmayanda baş verir, özünün aşağılanan qrupdan olduğunu görən tamaşaçı nəinki gülmür, hətta hiddətli reaksiya verir.

Əyninə milli simvolumuzun - bayrağımızın rənglərini daşıyan forma geymiş idmançımızın əvvəlcə kütbeyin yerinə qoyulması, sonradan danışığına lağ edilərək, bir yumruqla milçək kimi havada uçurulması özündə həqarət elmentləri daşıyır. Bu səhnəyə özünü hozuluğa qoymuş "Rəcəb"in tərəfdarları gülə bilər, amma dürüstcə döyüşməyə gəlmiş "azərbaycanlı boksçu"nun tərəfdarları, əlbəttə, gülməyəcək.

Söhbəti ha yana çəksək də, fırlatsaq da, məsələ budur. Aşağılama, həqarətli yanaşma göz önündədir.

Azərbaycan tamaşaçısı bunu çoxlarından gözləyə bilər, bizə "baran", "xər" deyənlərdən, ancaq "qaaardaaaş" deyərək yumruq tutuzduran qardaşın bu hərəkətini qəbul edə bilməz.

Bir də bu sayaq rüsvayçı epizoda etiraz edənlərin öz ölkəmizdə pislənilməsi, "vətənşüvən", "ura-patriot" adlandırılması, aşağılanması faktı var.

Etiraz edənlərin günahı nədir? Onlar millətimizə hörmət qoyulmasını istəyirlər. Ancaq bəziləri sanki yüksək estetik zövq sahibi, liberal düşüncə daşıyıcılarıymış kimi onları təhqir edirlər.

Söz yox, bayraqla, himnlə, gerblə və sair bu kimi atributlarla bağlı dəqiqəbaşı patriotizm fəvvarələri püskürtmək ikrahdoğurucudur, amma yeri gələndə, zərurət yarananda millətin, onun nümayəndəsinin aşağılanmasına dözmək olmaz - istər bunu düşmən eləsin, istər dost-qardaş.

"Rəcəb İvedik" o hərəkəti yəhudi, erməni, yunan idmançısına qarşı etsəydi, qalmaqal doğurmazdımı? Doğurardı. Çünki onlar belə həqarət elementlərini peysərə verməzdilər, anındaca cavab verərdilər.

Tarixi təcrübə göstərir ki, belə məsələlərdə həssas olan millətlər öz ümdə maraqlarını daha yaxşı, daha layiqincə qoruyur, özlərinə dünyada hörmət qoydura bilirlər, belə "zarafat"lara gülüb keçənlər isə hər yerdə başıqapazlıdırlar, lağlağı predmetidirlər.

***P.S.*** *Bir ara Türkiyədə xaricdən gələn fahişələrə bir qayda olaraq "Nataşa" deyirdilər, axırda Rusiya hökuməti işə qarışdı, etiraz bildirdi və o epitet yavaş-yavaş yığışdırıldı.*

**Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) yenə qazın qiymətinin artırılacağının anonsunu verib. Şirkətin vitse-prezidenti Süleyman Qasımov deyib ki, manatın dollara nisbətdə dəyərsizləşməsi davam edərsə, SOCAR aidiyyəti qurumlara müraciət edəcək.**

350 milyon kubmetrə yaxın illik qaz hasil olunurdu. O, daxili bazara gəlmədi. Bunun nəticəsində ölkənin daxili bazarında defisit yarandı. Ona görə də "Şahdəniz"dən daha çox qaz alınmağa başladı. Bu da hamısı vəsaitdir. Həm də Dövlət Neft Şirkəti günahkar deyil ki, Azərbaycan manatı bu qədər dəyərini itirir".

verir. SOCAR o qazın ancaq daşınmasına və saxlanılmasına çox cüzi bir vəsait xərcləyir. Bu yaxınlarda açıqlanan rəqəmə görə, artıq platforma işlədikdən sonra, son 12-13 ildə təqribən 128 milyard kubmetrə yaxın səmt qazını bp Azərbaycana pulsuz verib. SOCAR rəhbərliyi niyə bunu önə çəkmir? Nəyə görə heç

Əhali həmin tarixdən 1500 deyil, 1700 kubmetr qaz tükədərsə, əvvəlki qədər - 10 qəpik qazpulu ödəyəcək.

Qərar veriləndən bəri mövcud qiymətlərin SOCAR-a sərfəlilik dərəcəsi dartışılmağa başlandı. Nəticədə bəlli oldu ki, qazın maya dəyəri SOCAR-ın satış qiymətindən xeyli ucuz başa gəlir. Başqa

# Qazın qiymətinin yenidən artacağının anonsu verildi

## Ekspertlər SOCAR rəsmisinin xəbərdarlığını şərh edir; şirkət vəziyyətdən vətəndaşların hesabına çıxmaq istəyir?




**SOCAR rəsmisi qazın qiymətinin artıracağına eyham vuraraq bildirib:** "Manat dollara nisbətdə ucuzlaşdığı üçün SOCAR-ın zərəri yaranır. Biz təbii qaza olan tələbatı 3 mənbə hesabına təmin edirdik. Bildiyiniz kimi, daxili tələbat SOCAR-ın hasilatı ilə yanaşı, Hasilatın Pay Bölgüsü sazişlərinin tərəfdaşlarından təbii qazın alınması və idxal hesabına təmin edilir. Manatın dollara nisbətən məzənnəsi azalmaqda davam edərsə, SOCAR aidiyyəti qurumlara müraciət edəcək".

**Ekspert İlham Şaban məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirdi ki, SOCAR rəsmisinin dediklərində müəyyən əsaslar var:** "O əsaslar onunla əlaqədardır ki, hazırda ölkə bazarına daxil olan qazın 4 milyard kubmetrə yaxını xarici valyuta ilə alınır. Bu, əvvəllər devalvasiyadan öncə faktiki olaraq 50 manat civarında idi, bunu SOCAR 100 manata satırdı, bu, gəlirli idi. Ancaq indi bu rəqəm yüz manatı aşır, 115 manat səviyyəsində alınır. Ona görə də bu cür fikirlər ölkədəki iqtisadi vəziyyətlə əlaqədardır".

**Ekspertin sözlərinə görə, ikinci bir məsələ odur ki, 2016-cı ildə 2015-ci illə müqayisədə bir obyektiv səbəb də var:** "Əmtəəlik qaz hasilatı bir milyard kubmetr daha az hasil edilir. Burada "Azneft" İstehsalat Birliyində hasilatın azalması var. 2016-cı ildə əmtəəlik qaz "Azəri-Çıraq-Günəşli"dən Dövlət Neft Şirkətinə verilən səmt qazı idi. O qaz neft quyularına vuruldu ki, hasilat stabilləşsin. Bu, belə oldu. Neftin qiyməti qazdan baha olduğundan, nefti bazara çıxarıb satmaq qazdan daha sərfəlidir. Bu, iqtisadi baxımdan yaxşı düşünülmüş addım idi. Ona görə "Azəri-Çıraq-Günəşli"dən 700 milyon kub metr az qaz alındı. Bir tərəfdən də "Azneft"in özünün hasilatı azaldı. Çünki "Günəşli" yatağında qəza olmuşdu. O, çox yaxşı bir platforma idi, oradan təqribən

**Ekspert Natiq Cəfərli isə düşünür ki, hər hansı təbii inhisarçı şirkət ziyanla işləyirsə, demək, özündə problem var:** "Deməli, o şirkətin idarəetməsinin optimallaşdırılması həyata keçirilməlidir, izafi xərclər azaldılmalıdır. Optimal idarəetmə həyata keçirilmədən, ziyanla işləməyin səbəbləri araşdırılmadan hər şeyi vətəndaşların çiyninə qoymaq təbii inhisarçı mövqeyində olan SOCAR üçün normal deyil. Həm qanunla doğru deyil, həm də SOCAR-ın dövlət şirkəti olaraq mənəvi bir məsuliyyəti də var. Gətirilən arqumentlər də ciddi deyil. Çünki SOCAR xaricdən aldığı qazı valyuta ilə aldığını deyir və məzənnənin dəyişməsindən, manatın dəyərdən düşməsindən sonra maya dəyərinin artdığını söyləyir. Amma nədənsə öz hasil etdiyi qazı misal kimi gətirmir. Təqribən ildə 8 milyard kubmetrə qədər qazı SOCAR özü istehsal edir. Xaricdən almır. Bu, yerli resurslar hesabına, yerli hasilata aid bir rəqəmdir. Bir də bp-nin operator olduğu Beynəlxalq Əməliyyat Şirkəti "Azəri-Günəşli" və "Çıraq" yataqlarından neftlə birgə çıxan səmt qazını uzun illərdir ki, Azərbaycan hökumətinə və o cümlədən SOCAR-a pulsuz

olmasa, Azərbaycan əhalisi üçün həmin səmt qazını daha ucuz qiymətə satmaq haqqında düşünmür, amma xaricdən aldığı qazın maya dəyərinin artdığını bəhanə edərək qiymətləri qaldırmaq haqqında düşünür və gələcəkdə bununla bağlı müvafiq dövlət orqanlarına müraciət etməyi istəyir? Bu, doğru yanaşma deyil. SOCAR əgər öz izafi xərclərini azaltmaq yolu ilə, optimal idarəetməni düzəltmək yolu ilə, maya dəyərini azaldaraq, ümumiyyətlə, ziyanla işləməkdən çıxmaq istəyirsə, bu, çox yaxşıdır. Amma bu, vətəndaşın cibinin hesabına olmamalıdır. SOCAR bir şirkət olaraq öz daxilində struktur islahatları həyata keçirərək, maya dəyəri aşağı salaraq, işin keyfiyyətini artıraraq bu işini görə bilər. Bunu etmirsə, deməli, problem elə SOCAR-ın özündədir".

Yada salaq ki, təbii qazın qiyməti son dəfə ötən il noyabrın 28-də qaldırılıb. Tarif Şurasının qərarına görə, yanvarın 1-dən illik 1500 kubmetrdən çox qaz işlədənlər hər artıq kubmetrə görə 20 qəpik ödəyəcəkdi. Göstərilən həddi keçməyənlər hər kubmetrə görə yenə 10 qəpik qazpulu verəcəkdi. Daha sonra Tarif Şurasının qərarı bir qədər dəyişdi.

sözlə, qaz öz maya dəyərindən qat-qat baha satılır. İndi SOCAR rəsmisinin açıqlaması səngimiş müzakirələri yenidən körükləyir. Digər tərəfdənsə, "SOCAR manatın hər dəyərdən düşməsi ilə qazın qiymətini artıracaq" sualı ön plana keçir.

**İqtisadçı ekspert Qubad İbadoğlu SOCAR rəsmisinin açıqlamasını "maraqlı və iqtisadi cəhətdən məntiqli" sayıb. Ekspertin sözlərinə görə, bazarın tələblərini əsas götürən və korporativ maraqları güdən şirkət kimi SOCAR-ı anlamaq olar:** "Amma nəzərə almaq lazımdır ki, SOCAR belə qərarlar verəndə həm də dövlət maraqlarını, əhalinin alıcılıq qabiliyyətini və sosial durumunu da gözdən qaçırmamalıdır" (azadliq.org).

Ekspertin fikrincə, SOCAR qiymət artımı qərarı verəcəksə, yalnız korporativ maraqları əsas götürməməlidir. Onun sözlərinə görə, əhali elə ildə 3 milyard kubmetr civarında qaz işlədir - olsa-olsa, pulsuz qaz həcmindən bir az artıq. Bildirilir ki, SOCAR başqa məqsədlərlə, məsələn, Gürcüstanın artan tələbatını ödəmək üçün xaricdən aldığı qazın dəyərini vətəndaşların cibindən çıxarmağa çalışır.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017

**SOCAR-ın qiymətli kağızların emissiyası üzrə baş məsləhətçisi və "SOCAR Capital" şirkətinin Məsləhət Şurasının üzvü Ali Ağaoğlu SOCAR istiqrazlarının bazara buraxılmasının ilk 3 ayı ərzində qazandığı uğurlar, eləcə də dünyada və ölkədə yaşanan iqtisadi proseslərlə bağlı "Yeni Müsavat" qəzetinə müsahibə verib.**



# "Azərbaycanın iqtisadi böyüklüyünə görə yetərincə rezervləri var"

## Ali Ağaoğlu: "Neftin qiymətinin ilin sonuna qədər yüksələ biləcəyi ən üst rəqəm 60-65 dollardır"

*Əvvəlcə müsahib haqqında qısa arayış: Ali Ağaoğlu 1963-cü ildə Ankarada doğulub. 1980-ci ildə Boğaziçi Universitetində menecment fakültəsinə daxil olub. 1986-cı ildən bank sektorunda fəaliyyətə başlayıb. 2001-ci ilə qədər Standard Chartered və Stochelandes kimi xarici banklarda, o cümlədən Ege banklarında çalışıb.*

*2001-ci ildə Tassaruf Mevduati Sığorta Fonduna (TMSF) daxil olub və bir ilə yaxın Kamal Derviş zamanında TMSF-nin tərkibində olan 9 bankın xəzinələrinin koordinasiyasını həyata keçirib Dünyada ilk dəfə olan depozit satışı və çox böyük iqtisadi layihələri həyata keçirib.*

*2004-cü ildən Türkiyənin "Vatan" qəzetində yazır, 2008-2012-c illərdə "Fortune" jurnalında yayım müdiri olub.*

*2015-ci ildən SOCAR Türkiyədə Finansal Risk Yönətimi və Xəzinə Kordinatoru kimi çalışır. 2016-cı ildən SOCAR-ın Kapital bazarları üzrə baş məsləhətçisi işləyir.*

***(əvvəli ötən sayımızda...)***

***- Rusiya , Türkiyə və Azərbaycan. Hər üç ölkənin milli valyutası ötən il ciddi devalvasiya yaşadı. Lakin bu üç ölkədən ən tez milli valyutasının sabitliyini təmin edən Rusiya oldu. Siz də bu məsələdə Rusiya hökumətini təqdir edirsinizmi? Yoxsa, səbəblər fərqlidir?***

- Təbii ki, səbəblər fərqlidir. Ancaq onu da qeyd etmək lazımdır ki, bu 3 ölkə arasında ən şanslı olanı Rusiyadır. Mən 1995-1998-cı ildə Rusiya bank sektorunda çalışmışam və bu ölkənin maliyyə bazarını izləyirəm. Rusiyanın şanslı olduğu nöqtə budur ki, dünya bazarında neftin qiyməti 120 dollardan 35 dollara düşərkən onlar da rublun qiymətinin 35-dən 80-ə qədər çıxmasına icazə verdilər, devalvasiya etdilər. Öz valyutalarını qorumaq üçün rezervlərində olan 650 milyard dolların təxminən 300 milyard dollarını itirdilər. Bunu sırf rublu qorumaq üçün etdilər. Qoruya bilmədiklərini anlayan kimi həm devalvasiyaya getdilər, həm də rublun faizini 19-a qədər yüksəltdilər. Rusiyanın şanslı olduğu nöqtə odur ki, neftin qiyməti artır və ölkə iqtisadiyyatını bir qədər dirçəldir. Azərbaycanın da iqtisadi böyüklüyünə görə yetərincə ehtiyatları var. Bu mövzuda narahatlığa ehtiyac yoxdur. 40 milyard dollarlıq bir iqtisadiyyatınız var və 38 milyard dollar rezerviniz var. Türkiyə olaraq biz aranızdakı ən şanssız ölkəyik. Bizim 800 milyard dollarlıq iqtisadiyyatımıza qarşılıq olaraq 35 milyard dollarlıq xalis rezervimiz var. Ümumi rezervlərimiz daha çoxdur, lakin ümumi rezervlərlə xalis rezervlər arasındakı fərq tamamilə Mərkəzi Bankın deyil. Bunlar Mərkəzi Bankla, bankların saxladıqları əmanətlərdir.

***- Türkiyənin valyuta ehtiyatlarının bu qədər az olmasının səbəbi nədir?***

- Səbəb odur ki, biz məzənnənin aşağı olduğu dönəmlərdə rezervlərin artırılmasına önəm vermədik. Mən, ümumiyyətlə, bu rezervlərin işə yarayacağına inanmıram. Rusiya tərəfinin şansı isə ondadır ki, rezervlərinin həcmi həddindən artıq yüksəkdir, faiz məsələsində həddindən artıq çevikdirlər, sərt qaydaları yoxdur. Azərbaycanda faiz məsələsində müəyyən konkret qaydalar var. Onların bir qədər elastikləşdirilməsinə ehtiyac duyulur. Bundan əlavə, neft faktoru var. Neftin qiymətinin 35 dollar olması ədalətli deyildi və bahalaşacağı gözlənilirdi. Neft nisbətən bahalaşdı və 50-55 dollar arasında qərar tutdu. Bu Rusiya iqtisadiyyatının dövriyyəsi üçün yetərlidir. Düzdür, neftin bu qiymətində Rusiya 100 dollar olduğu dövrdəki kimi rahat hərəkət edə bilməyəcək. Amma yenə də 35-40 dollara nisbətən dövlət büdcəsinə önəmli gəlir gətirəcək. Ardıcıllığı Rusiya, Azərbaycan, Türkiyə şəklində qura bilərik.

**"Rusiya tərəfinin şansı isə ondadır ki, rezervlərinin həcmi həddindən artıq yüksəkdir, faiz məsələsində həddindən artıq çevikdirlər, sərt qaydaları yoxdur"**

***- Azərbaycan hökuməti bazarı inzibati qaydada idarə etməklə problemlərin həllinə çalışır, bazara ciddi şəkildə nəzarət edir. Bir mütəxəssis olaraq bunu necə qiymətləndirirsiniz? Bazarın sərbəst buraxılmasının tərəfdarısınız, yoxsa hökumətin nəzarəti olmalıdır?***

- Mən bu suala izahlı şəkildə cavab vermək istəyirəm. Hesab edək ki, bazar 360 dərəcəli bir yerdir. Hökumət olaraq, Mərkəzi Bank və ya Maliyyə Bazarlarına Nəzarət Palatası qismində bazara müəyyən nəzarət edilə bilər, lakin bunun həcminin dəqiq müəyyənləşdirilməsinə ehtiyac var. Əgər bazarı çox sıxışdırsanız, divarlar hörsəniz, bazar bu divarlara sığmaz. Bu divarları ya deşəcəklər, ya altından tunel qazacaqlar, ya da yıxacaqlar. Bazarı bir qədər sərbəst buraxmaq lazımdır. Ancaq sərbəstlik o həddə olmalıdır ki, sərhədin bir tərəfinə baxarkən digər tərəfi də gözdən qoymayasınız. Bazardakı inzibati nəzarətin və sərbəstliyin sərhədlərini elə bir yerdə qoymalısınız ki, bazar çox sıxışdırılmasın, bazarın hərəkəti üçün sərbəst bir zəmin olsun. Lakin bazarı çox sərbəst də buraxmaq olmaz, çünki dövlətin və cəmiyyətin çıxarlarını da qorumaq lazımdır. O səbəbdən bazar üçün fəaliyyət sahəsi təmin edərək, bu işi aparmaq lazımdır. Bu sahəni çox daraltdığınız və ya çox genişlətdiyiniz zaman bazar fəaliyyət göstərə bilmir. Bəlli bir fəaliyyət sahəsi olmalıdır ki, bazarda həm balans yaransın, həm də yaradıcı olaraq rahat fəaliyyət göstərilsin. Əgər inzibati üsulla çox sıxışdırsanız, nəzarəti itirmiş olacaqsınız. Çünki müasir dünyada texnologiyanın bu qədər irəlilədiyi bir şəraitdə bazarı nəzarətdə saxlamaq olduqca çətindir. Ölkənizdə balansı doğru yerdə müəyyən etmək lazımdır. Bu bir qədər təcrübə və zaman alan bir işdir. Doğru addımlar atılır, bir az zamana ehtiyacımız var.



**"Müasir dünyada, texnologiyanın bu qədər irəlilədiyi bir şəraitdə bazarı nəzarətdə saxlamaq olduqca çətindir"**

***- Neftin qiyməti ilə bağlı proqnozunuz nədir? Sizcə, neftin ədalətli qiyməti neçədir?***

- Neftin real qiyməti ilə bağlı mübahisələr var. Mən bildiyim qədər dünyada qlobal bazarda satılan neftin istehsal və daşınma dəyəri 35-36 dollar civarındadır. Bunun üzərində 50-55 dollara qədər bahalaşması həm yeni yatırımların, həm də mövcud olanların inkişafı və təşviq edilməsi baxımından çox önəmlidir. Artıq neft bu qiymətə qədər gəldi. İlin sonuna qədər yüksələ biləcəyi ən üst rəqəm 60-65 dollardır. Qiymətlərin bundan da çox artması bir qədər çətin görünür. Mən son bir ildə Azərbaycana tez-tez gəlib-gedirəm. Mənim gördüyüm bir məqam var ki, sadəcə, neftə dayanan sənayeyə güvəndiyiniz zaman, qarşıdakı 15-20 illik müddətdə başqa problemlər də yaşana bilər. Ona görə də hesab edirəm ki, Azərbaycanda başda kənd təsərrüfatı və turizm olmaq şərti ilə, başqa sektorların da inkişaf etdirilməsinə ehtiyac var. Bu mənada Azərbaycan prezidenti yol xəritəsi də hazırlayıb. Orada çox önəmli məqamlar var. Onların önə çıxarılması və sürətləndirilməsi lazımdır. Təkcə neftin qiymətinin yüksəlməsinin Azərbaycan üçün yeganə həll variantı olacağına inanmıram.

***- Ötən müddət ərzində SOCAR-la bağlı qara xəbərlər də aldıq. 10 nəfərin ölümü ilə nəticələnən bir qəza oldu. Bir müddət sonra qaz kəmərlərində partlayışlar meydana gəldi. Siz SOCAR-ın təhlükəsizlik məsələləri ilə bağlı strategiyasını necə qiymətləndirirsiniz və tövsiyələriniz nədir?***

- Mən bu mövzuda mütəxəssis deyiləm. Ancaq qəza xəbəri bizi də çox üzdü. Qardaş ölkəyik və siz bizdəki qara xəbərlərə üzüldüyünüz kimi, biz də bu hadisələrə üzüldük. Ümid edirəm ki, bu cür hadisələr təkrarlanmaz. Mən SOCAR-ın bu məsələdəki təcrübəsinə güvənirəm. Bu hadisədən mütləq şəkildə dərs çıxartdıq və o dərslərlə qarşıdakı müddətdə bu tip qəzaların olmaması üçün yeni yöntəmlər axtaracağıq. Mən təxminən 2 ildir ki, "SOCAR-Türkiyə"də çalışıram və mən də orada sağlamlıq və təhlükəsizlik məsələləri ilə bağlı təlimlərə getmək məcburiyyətindəyəm. Mən bəyaz yaxalıqlı (əl əməyinə əsaslanmayan, administrativ və ya biznesin inkişaf etdirilməsi üzrə vəzifə daşıyan- N.L.) bir şəxsəm, mavi yaxalıqlı (əsasən, əl əməyinə əsaslanan sahədə çalışan- N.L.) deyiləm. Ancaq mən də onlar kimi təlimlərdə iştirak edirəm. Şirkət bu məsələdə bizim üzərimizə məsuliyyət qoyub. SOCAR-ın bu məsələlərdə beynəlxalq standartlarda uğurları var. Şirkətin sağlamlıq, ekologiya, təhlükəsizlik məsələsi ilə bağlı həssaslığı çox yüksəkdir. Mən SOCAR Qrupunda çalışan şəxs olaraq bunları müşahidə etmişəm.

**"SOCAR-ın sağlamlıq, ekologiya, təhlükəsizlik məsələsi ilə bağlı həssaslığı çox yüksəkdir"**

***- Ali bəy, sonda SOCAR istiqrazları ilə bağlı vətəndaşlara çatdırmaq istədiyiniz hansısa sözünüz varmı?***

- Mən bu mövzunun mətbuatda daha çox müzakirə edilməsini, daha çox maraq cəlb etməsini arzu edirəm. Çünki hazırda aparılan bu iş həm Azərbaycan vətəndaşları, həm ölkənin maliyyə bazarları, həm də SOCAR üçün çox önəmlidir. Bu məsələ Strateji Yol Xəritəsində də var, daha öncədən dövlət başçısının bu mövzuda sərəncamı var. Biz SOCAR olaraq bu məsələdə üzərimizə düşəni etdik. Digərlərinin də bizimlə birlikdə hərəkət etməsini arzu edirəm. 100 milyon dollarlıq bir istiqraz buraxılışının 40 faizi üç ay içində əl dəyişdirib. Bu da istiqrazlarımızın nə qədər likvid olduğunun ən yaxşı göstəricisidir. Satanlar aldıqları 1000 dollardan (nominal qiymət) daha baha satıblar. SOCAR-ın minimum nominaldan alma zəmanəti investorlar üçün çox böyük bir üstünlükdür. Belə bir məhsulu investorlar qaçırmamalıdırlar. Bu, çox faydalı bir işdir və istiqrazların yeni fiziki şəxslər tərəfindən əldə edilməsi çox önəmlidir. Qarşıdakı dövrdə daha pozitiv rəqəmlər əldə edəcəyimizə ümid edirəm.

***- Ötən dəfə SOCAR rəsmiləri mətbuat konfransında bundan sonra da manatla və hər iki valyuta ilə istiqrazların buraxılacağını bildirmişdilər. Bu istiqrazlar üçün dəqiq bir tarix müəyyən edilibmi? Nə zaman üçün gözlənilir?***

- Bu işə başlarkən bizim iki illik bir yol xəritəmiz var idi. Bu iki ilin ilk 6 ayını həm istiqrazların təkrar bazarının inkişafı üçün sərf etmək istədik, həm də infrastruktur baxımından təkcə SOCAR-ın deyil, Azərbaycan maliyyə bazarının da inkişafı üçün belə bir zamana ehtiyac var idi. Səhvlər edirik, onları düzəldirik, daha yaxşısını etmək üçün cəhd edirik. Mərkəzi Bank, Milli Depozit Mərkəzi və Maliyyə Bazarlarına Nəzarət Palatası da bu məsələdə bizə çox böyük dəstək göstərir. Bunların hamısını bir araya gətirib işlək vəziyyətə salmaq zaman tələb edir. Ona görə də düşünürəm ki, təxminən 6 aya daha ehtiyacımız var. Sonra isə Maliyyə Nazirliyi, Mərkəzi Bank, SOCAR və birjaların bir araya gəldiyi bir qurultay təşkil edib, bunu müzakirə etməklə, sadəcə, öz seçimlərimizlə deyil, bazarın seçiminə uyğun olaraq bir addım ata bilərik. Bu istiqrazlarda əsas məqsəd SOCAR-ın xaricilərə verdiyi faiz ödənişlərini öz vətəndaşlarına verərək, valyutanı ölkədə, yəni iqtisadiyyatımızda tutmaqdır.

**Nərgiz LİFTİYEVA**

**Foto Məğrur MƏRDindir**



# Çjou Yuquanın xatirəsinə

**Zamin HACI**
zaminhaci@mail.ru

**Rusiyanın xarici işlər naziri Dağlıq Qarabağın Azərbaycanın daxili işi olmadığını deyib. Ondan başqa mövqe də gözləmirik. Əslən ermənidir, üstəlik tarixi düşmənimiz Rusiyanı təmsil edir. Mənə Elmar Məmmədyarovun buna münasibəti tragikomik gəldi. Müxbir 4 dəfə içində "Rusiya, Lavrov, ərazi bütövlüyümüz" sözləri olan suallar verir, ancaq Məmmədyarov qorxusundan 1 dəfə də Rusiyanın və Lavrovun adını çəkmir. Misal üçün, jurnalist deyir, Lavrov ərazi bütövlüyümüzü tanımadı, Elmar müəllim deyir, prezidentimizin çıxışına diqqətlə qulaq asdıq.**

Kimsə ona deyib diplomat dolayısı ilə cavabdan yayınmalıdır, yanlış anlayıb. Dağdan sual verilir, dərədən danışır. Deyirlər, niyə gözünüz çəpdir, cavab verir ki, Amerikada kovboylar yaşayır. Sözgəlişi, belə temada hansısa amerikalı danışsa, indi Elmar müəllim bir tərəfdən, Novruz müəllim o biri tərəfdən - Sem dayını qabaqlarına qoyub qamçılamışdılar. Çünki bilirlər, Amerika uzaqdadır, ancaq Rusiya vuran şapalağın yeri tez qızarır.

Bizdə bu qorxaqlığa balans siyasəti adı veriblər, uğurlu xarici siyasətimizi isə hətta müxalifət də hərdən dəstəkləyir. Ancaq bilinmir bu uğur xarici siyasətin harasındadır, əgər 23 ildə ərazi bütövlüyümüz təmin edilməyibsə, məcburi köçkünlər isə yeni qəsəbələrdə artıq kök atıblarsa, bizim qazancımız nədədir? Hacıqabulda ördək ovlamağa gələn iki cüt bir tək ərəb şeyxi xarici uğurumuzdur - yəqin bunu deyirlər. Bir də Çovdarovun Gürcüstandakı kəndçiləri bizi tanıyır.

Doğrusu, bu durumdan xüsusi narazılığım yoxdur. Hamı necə, mən də elə. Su girdi qaba, oldu içməli. Su demişkən, Bülbülədə bəzi adamların borcu varmış, "Azərsu" isə götürüb bütün kəndin suyunu kəsib. İndi borcu olmayanlara suyu... idarənin maşını ilə daşıyırlar! Analoqu olmayan addımdır. O ata sözümüzdə deyilən kimi: "Obşini bağla, bakı aç". *("İki uzunqulağın arpasını bölə bilməyənlər bizə ağıl öyrədir" məsəli dövlət səviyyəsində atalar sözü statusu qazanandan bəri folklorumuzun statusunda bir çox yeniliklər olacaqdır. Yeni ata sözləri, nağıllar, dastanlar, bayatılar, ağılar, qımqımılar, mızmızılar, dızdızılar sərəncamla təsdiq edilir. Axırıncı Metro Tağıdan yadigardır).* Həyatımız elmi şəkildə davam edir.

Yanvarın 14-də Çində bir alim öldü. Çjou Yuquan adlı bu kişinin nə az, nə çox, düz 111 yaşı vardı. Bu alim Çin heroqliflərinin latın əlifbasında çağdaş transkripsiyasını yaratmaqla məşhur idi. Loru dildə desək, həmin ilan-qurbağa şəkillərinin deyilişini dünyaya çatdırıb. Bunun sayəsində indi milyonlarla adam Çin əlifbası kimi çox çətin əlifbanı öyrənir. *(Hər söz bir hərf olan əlifbanı öyrənmək də bir ayrı zülmdür).*

Ancaq məqsədim sizə çin dilini öyrətmək deyil. Sadəcə, bu 111 yaşlı alim haqda öyrəndiyim bir faktı sizlərə çatdırmağı özümə borc bildim. Xüsusən AMEA-da paket çay dəmləyib gərnəşən yaltaq aspirant, doktor və akademiklər oxusunlar. Demək, bu kişi həmişə rejimin əleyhinə çıxıb, son 20 ildə - yəni 90 yaşından sonra isə Çin Kommunist Partiyasını - hakimiyyəti tənqid edən və rəsmi şəkildə qadağan olunan bir neçə kitab yazıbmış. 2011-ci ildə - 105 yaşı olarkən (! - Z.H.) Çjou Yuquan belə açıqlama veribmiş: "Çinlilər Çin Kommunist Partiyasına inanmırlar. Xalqın ağıllı hissəsi ölkənin demokratikləşməsini istəyir. Mən Tyananmen meydanında nümayişlərin zorla yatırdılmasına görə rəsmi Pekinin üzr istəyəcəyi günə qədər yaşamağı arzulayıram". *(1989-cu ildə Pekinin Tyananmen meydanında xalq etirazları olub. Hökumət bu mitinqləri dağıtmaq üçün ordudan, tanklardan yararlanıb. Rəsmi hesabata görə 242 adam öldürülüb. Qərb mənbələri 7000 qətldən danışırlar).*

Çinli alim hökumətinin üzrxahlığını eşitmədən öldü. Ancaq xatirəsi qəlbimizdə yaşayır. Fikirləşirəm, bizim nə qədər canlı ölü alimciklərimiz vardır, həyatlarını hökumətə yaltaqlanmaqla sürürlər. Hərdən başınızı qaldırıb dünyaya baxın, ey həşəratlar...

# "Anamın arzularını öz arzularımdan önə çəkdim" - millət vəkili Qənirə Paşayeva ilə müsahibə

## Milli Məclisin deputatı "Yeni Müsavat" qəzetinə geniş müsahibə verdi: "Zəngin ailədə böyüməsəm də, iki yaxşı müəllimin övladı olaraq dünyaya gəlmişəm"

**"Bizim qonaq" rubrikasının növbəti müsahibi millət vəkili Qənirə Paşayeva oldu. Görüşdə qəzetimizin baş redaktoru Rauf Arifoğlu, baş redaktorun birinci müavini Azər Ayxan, baş direktor Ələsgər Süleymanov, musavat.com saytının redaktoru Xalid Kazımlı və bu sətirlərin müəllifi iştirak edirdi. Qənirə xanımla bu günə qədərki həyat yolu, ölkədəki iqtisadi-siyasi proseslər, Dağlıq Qarabağ məsələsi və digər önəmli mövzular ətrafında söhbət etdik.**

*Millət vəkili ilə baş tutan səmimi söhbətə ilk olaraq Rauf Arifoğlu başladı.*

***- Qənirə xanım, bugünlərdə siz parlament jurnalistlərinin bir ödülünə layiq görülmüsünüz. Bizim üçün maraqlıdır ki, jurnalist kökənli bir deputat olaraq sizin üçün o ödülün anlamı nə idi?***

- O ödülün anlamı böyükdür. Çünki parlament jurnalistlərinin içərisindəki mənzərə də genişdir. Orada iqtidar meylli jurnalistlər də var, müstəqil və orta mövqedə olanlar da var, müxalif mövqedə olanlar da. O baxımdan, fərqli düşüncəyə malik olan insanların birlikdə verdiyi qərarlardan danışırıq. Onları birləşdirən sadəcə parlamentdəki fəaliyyətləridir. Ona görə də onların mükafatı daha önəmlidir, həm də mənim üçün maraqlıdır. Mən özüm də parlament jurnalisti olmuşam. Adətən parlament jurnalistləri deputatlara çox tənqidi yanaşırlar. Bəlkə də hər gün o fəaliyyəti yaxından gördükləri, daha çox məlumatlı olduqları üçün tərifləməyə meylli olmurlar. Mən özüm də elə idim. Bu baxımdan, onlardan hansısa pozitiv söz eşitmək, daha da ötəsi, mükafat almaq yaxşı stimuldur.

***- Bəzən jurnalistlər, bir sıra hallarda oxucular deyirlər ki, Qənirə xanım xəbərdən sürətlidir. Onun fəaliyyətinin hansısa fraqmentinə dair yeni xəbəri yaymadan, oxumadan bir də görürük ki, Qənirə Paşayeva artıq başqa bir yerdə, başqa bir məkandadır, görüşür, çıxış edir...***

***Azər Ayxan:***

***- Bəzən hətta başqa ölkədə...***

***- ... Qənirə xanım buna necə nail olur? Bütün bu çeviklik jurnalistikadan gəldiyiniz üçündürmü, yoxsa kökləri başqa səbəblərə dayanır...***

- Kökləri mənim uşaqlığıma dayanır. Mən bunun üçün hər ikisi müəllim olan valideynlərimə borcluyam. Çünki çox kiçik yaşlarından biz zamanı dəyərli hesab etmək, zamandan daha çox istifadə etmək, onu doğru bölmək vərdişini almışıq. Onlar bizə boş zaman buraxmazdılar. Bilirdik ki, məktəbə gedib gəldikdən sonra həftənin bir neçə günü musiqi məktəbinə getməliyik, şahmat dərsinə getməliyik. Azərbaycan dili bölməsində oxuduğumuz üçün əlavə rus dili dərsinə gedirdik, dram dərsinə, xor dərsinə gedirdik... O qədər əlavə məşğuliyyətimiz var idi ki, boş zamanımız olmurdu. Bəzən mənə deyirlər ki, siz ailədə, qohumlarda olan orta məktəb şagirdlərinə qarşı çox qəddarsınız. Uşaqlara yanaşma anlayışında çox tələbkaram, hər zaman deyirəm ki, bunu etmək olmaz, onu etmək olmaz. Deyirəm ki, bəlkə biz belə yetişdirildiyimiz üçün hesab edirik ki, belə də olmalıdır.

***R.Arifoğlu:***

***- Sizin uşaqlığınız sovet dövrünə düşüb, eləmi? O dövrdə, həm də bir kənddə bu cür yetişdirilmə necə ola bilər?***

- Bu daha çox mənim valideynlərimin hər ikisinin müəllim olması səbəbindən idi.

***- Deməli, sizi bugünkü Qənirə Paşayeva edən həmin o ailə sisteminə bağlılıq olub.***

- Allahın mənə verdiyi ən böyük şansım o olub ki, mən zəngin ailədə böyüməsəm də, iki yaxşı müəllimin övladı olaraq dünyaya gəlmişəm. Onların həyata baxışları, həyat fəlsəfələri mənim həyatımda, bu günə qədər gəldiyim yolda başlanğıc olub və bu çox önəmlidir.

***- Qənirə xanım, əminiz də çox tanınmış bir şəxs olub. O kənddən Paşayev soyadlı başqa bir məşhur da çıxıb, Qəzənfər Paşayev...***

- Bizim kəndimizdən çox məşhur insanlar çıxıb. Tovuzun kəndlərinin əksəriyyəti belədir. Hansına toxunsanız, bir neçə elmlər doktoru, professor, elmlər namizədi var.

***- Əminizin də sizin yetişmənizdə, hədəf seçmənizdə rolu varmı?***

- Əmimin əsas rolu mənim öyrənməyimdə olub. Qəzənfər müəllimin rolu ondan ibarət idi ki, biz çox kiçik yaşlarımızda ziyalı mühitini tez-tez görürdük. Qəzənfər müəllimin belə bir xüsusiyyəti var idi ki, yay aylarında Azərbaycanın ən böyük ziyalıları ilə gəlib rayonda bizim evdə toplanardılar. Biz yuxumuz gələnə qədər onların söhbətlərinə qulaq asardıq. Səhər anamdan soruşardıq, o da deyərdi ki, gecə saat 5-də yatmağa getdilər. Azərbaycanın çox böyük ziyalılarını kiçik yaşlarımda görmüşdüm, onlarla ünsiyyətdə olmuşam, dinləmişəm. Bunlar Qəzənfər müəllimin sayəsində idi. Onun həyata baxışı, dünyagörüşü, Azərbaycandan kənardakı milli düşüncə anlayışı ki, harada kimimiz var və sair söhbətləri bizi tərbiyə edirdi. Mənə bəzən deyirlər ki, sizin içinizdəki o Kərkük sevdası haradandır? Bu, yəqin ki, şüuraltına hopub.

***R.Arifoğlu:***

***- Onun "6 il Dəclə və Fərat sahillərində" kitabını mən gəncliyimdə oxumuşam və mənim düşüncələrimə də çox böyük təsir etmişdi.***

- Bir çox şeylər uşaqlığımla çox bağlıdır. Bəzən soruşurlar ki, siz niyə Təbrizə bu qədər bağlısınız. Təbriz mənim üçün Tovuzdan, Bakıdan heç bir fərqi olmayan bir yerdir. Yəqin ona görə ki, ömür boyu evimizə gələndə, əsas qapını açanda məni Şəhriyarın şəkli qarşılayardı. Babamızın şəkli deyil, Şəhriyarın şəkli... Hər zaman uşaqlıqda görmüşük ki, atamız "Heydər Babaya salam"ı deyib ağlayıb. Biz o poemanı əzbər bilirdik. O poemanın bəzi bəndlərinin verdiyi mesaj yükü də var idi. Sadəcə, bir təsvir deyildi. Sizin dediyiniz zaman anlayışı da buna bağlıdır. Siz də, biz də kənddə böyümüşük. Biz səhər tezdən dərsə getməklə bərabər evin yükünün də bir hissəsini çəkmişik. O da zamanın bir hissəsi idi. Bizim evimiz kənddə məktəbə ən uzaq evlərdən biri idi. Mənim atam çox idealist bir müəllim idi, məktəb direktoru idi. Yaxşı fəaliyyətinə görə ona maşın və sürücü vermişdilər. Amma atam həyatda bir dəfə də icazə vermədi ki, nə anam, nə də biz o maşından istifadə edək. Deyirdi ki, dövlət onu mənim işimə və xidmətlərimə görə verib. Xalqın uşaqları məktəbə necə gedirsə, siz də o cür getməlisiniz. Sizin onlardan hər hansı artıq imtiyazınız yoxdur. Səhər uşaqlar məktəb yoluna 20 dəqiqə tez çıxanda biz 40 dəqiqə tez çıxırdıq. Çünki evimiz məktəbə çox uzaq idi. Valideynlərimiz ata yurdundan bir qədər uzaqda yeni ev tikmişdilər. Biz ev işlərini də görürdük. Çünki nənəmiz, babamız yanımızda olmayıb. Bizim "məhlə" dediyimiz böyük təsərrüfatımızı 5-i sinifdə oxuyan qardaşımla 4-cü sinifdə oxuyan mən bir yerdə yarı bölərək, etmişik. Çünki atamızın da, anamızın da zamanı yox idi. İndi mən gedirəm kəndə, hansısa bağ görəndə deyirəm ki, bu necə budamadır, ağacı belə budamazlar... Bunu doğru kəsməyibsiniz, ağacı məhv edibsiniz. Bizim böyük üzüm bağımız var idi, onu özümüz budayırdıq. Çalışırdıq ki, zədələnməsin. Onun bütün dərmanlarını özümüz vururduq. İndi mən özüm Masazırda yaşayıram. Yayda deyirəm ki, ağaclara şirə düşüb, ona filan dərmanı vurmaq lazımdır. O zaman deyirlər ki, bunu kimdən eşitmisiniz. Deyirəm ki, uşaq vaxtı biz bunu ağaclara özümüz vururduq- göy daş, kükürd, necə, nə vaxt vurulmalıdır, çox kiçik yaşlardan hamısını bilirdik. Bu işlər də zaman tələb edirdi, biz zamanımızı ciddi şəkildə bölürdük. Çünki məktəbdə də əlaçı idik. Mənim atamın belə bir düşüncəsi var idi ki, müəllimin uşağı məktəbdə ən yaxşı oxumasa, onun dərs deməyə haqqı yoxdur. Məktəb direktorunun uşağı isə məktəbin ən yaxşı şagirdi olmasa, onun direktor olmağa haqqı yoxdur. Hesab edirdi ki, müəllim birinci öz uşağını oxuda bilmirsə, xalqın uşağını necə oxudacaq. Ona görə də belə bir məsuliyyətimiz var idi. Mənim şəklim hər zaman şərəf lövhəsində olardı. Bu şərəf lövhələri çox önəmli idi. İndi mən həmin lövhələrin qayıtmasını istəyirəm.

***- Gözləriniz parlayır uşaqlıqdan danışanda... Belə başa düşdüm ki, xoşbəxt bir uşaqlığınız olub.***

- Bəli, xoşbəxt bir uşaqlığım olub. Hətta mən bəzi şeylərin məğzini tapa bilmirdim. Xor dərsinə gedirdim, ancaq səsim yox idi. Səsim olmadığına görə müəllim məni heç vaxt soloda oxutmurdu, hər zaman xorda oxuyurdum. Uşaq düşüncəsi ilə bu məni narahat edirdi ki, mən niyə heç soloda oxumuram. Soloda oxuyacaq səs də yox... Bir gün atama dedim ki, mən bu dərsə getməyim. Çünki müəllim məni heç soloda oxutmur, həmişə arxada xorda oxuyuram. Atam dedi ki, qızım, dərsə get, ən azı gələcəkdə musiqinin nə demək olduğunu öyrənəcəksiniz və mənə rəhmət oxuyacaqsınız. İndi düşünürəm ki, yaxşı ki o vaxtlar zamanı bölməyi öyrənmişik. Vaxtımızı bölürdük ki, saat neçədə dərsdən gələcəyik, sonra musiqi məktəbinə gedəcəyik, sonra şahmat dərnəyinə getməliyik, çünki olimpiadaya gedəcəyik. İndi də mən hər gün gecədən oturub səhər nə işlər görəcəyimi yazıram. Bütün günüm dolu olur. Günün sonunda da üstündən xətt çəkirəm ki, nəyi etdim, nəyi edə bilmədim. Zamanı maksimal şəkildə istifadə etmə vərdişi məndə uşaqlıqdan yaranıb.

R.Arifoğlu:

***- Uşaqlıqda yazı-pozu da vardımı? Şeir, hekayə və sair... Bu bizim üçün maraqlıdır. Ona görə ki, günün birində Azərbaycan oxucuları ayıldı ki, Qənirə Paşayeva çox yaxşı şeirlər yazır. Bu haradan gəlir?***

- Yaxşı şeirlər deməzdim, arabir bir şeylər yazıram...

***- Yox, razılaşmıram. Yaxşı olmasa ortaya çıxartmazdınız. Ən azından o dəyəri müəyyən etmək imkanınız var. Sizin şeir yazmanız Allah tərəfindən bütün tovuzlulara verilən vergidəndir, yoxsa...?***

- Mənim atam ədəbiyyat müəllimi idi, həm də çox yaradıcı insan idi. Atam dram dərnəyi düzəltmişdi, Yuğ Teatrındakı Afət xanım və digərləri atamın məktəbindən keçmişdilər. Afət xanım atamın ən sevimli tələbələrindən idi. O dram dərnəyindən əsərlər tamaşaya qoyardı. O zaman məktəbin belə bir qaydası da var idi ki, ən yaxşı oxuyanlar sinif nümayəndəsi olurdu, komsomol katibi olurdu. Məktəbdə şərəf lövhəsindəki birinci şəkil həmişə mənim şəklim olurdu. Buna rəğmən məktəbdə heç bir vəzifəni tutmadım, çünki sevmirdim. Yeganə vəzifəni tutdum, o da divar qəzetinin baş redaktoru. Onu da ürəklə yazırdım. Altında da böyük hərflərlə qeyd edirdim ki, baş redaktor Qənirə Paşayeva. Maraqlı idi ki, bizə o dövrün imkanları ilə xeyli geniş yer verirdilər. Cənubi Azərbaycanla bağlı hansısa yazılar yaza bilirdik. Mən Qəzənfər müəllimin İraq türkmənləri ilə bağlı yazılarından istifadə edərək yazılar yazmışdım.

***X.Kazımlı:***

***- Qəzetin adı nə idi?***

- Biz o zaman qəzetə adlar seçmirdik. Çünki məktəbin bir divar qəzeti var idi. Biz məktəbi bitirdikdən sonra da uzun illər o divar qəzetlərinin bəzi nümunələrini məktəbdən sökməmişdilər.

***- O zaman indiki kimi mobil telefonlar olsaydı, həmin divar qəzetlərinin nə qədər şəkilləri qalardı...***

- Həmin divar qəzetlərinin şəkilləri var. Mən aparıcılıq da edirdim, məktəbin tədbirlərinin aparıcılığını edirdim. Hamı mənim jurnalist olacağımı düşünürdü.

***- Ancaq siz həkimlik oxumağı seçdiniz... Bu da maraqlıdır.***

***X.Kazımlı:***

***- Həkimlik oxudu, ancaq jurnalist oldu.***

- Bəli. Mən məktəbi çox tez bitirmişdim. İnstituta qəbul olanda 16 yaşım vardı, 17 yaşıma təzə keçmişdim. Tibb Universitetini seçməklə bir növ anamın arzularını öz arzularımdan öncəyə çəkə bildim. Mənim nənəm həmişə anamın həkim olmağını istəmişdi, lakin anam olmamışdı. Sonra anam mənim həkim olmağımı istəyirdi. Anam həm də məni şirnikləndirirdi. Deyirdi ki, həkim olmaqla yanaşı, jurnalist də ola bilərsən. Get həkim ol, sonra yazılar yazarsan, həkimlik sənə mane olmaz. Mən jurnalistlik imkanlarım olacaq düşüncəsi ilə Tibb Universitetinə gəldim. Ancaq valideynlərimə Tibb Universitetinə sənəd verəcəyimə söz versəm də, gəlib işimi jurnalistika fakültəsinə verəcəkdim. Çünki müəllimlərimizlə belə danışmışdıq. Mən tarix və ədəbiyyat müəllimlərimin sevimlisi idim, onlar heç zaman qəbul etmirdilər ki, mən Tibb Universitetinə gedə bilərəm. Hətta tarix müəllimim bununla bağlı anama çox ciddi iradlar bildirmişdi, ədəbiyyat müəllimim isə deyirdi ki, tibblə yanaşı sənədlərini jurnalistika fakültəsinə də verərsən. O zaman iki yerə imtahan verməyə, özünü yoxlama icazə vermişdilər. Lakin mən 10-cu sinfə çatanda atam çox ağır xəstələndi. Hər kəs də atama deyirdi ki, qızını Tibb Universitetinə getməyə qoyma, pulsuz oranı qazanmaq mümkünsüzdür. Qızın yaxşı oxuyur, gedib kəsilər, konkursa düşər, travma alar. Atam məni çağırıb dedi ki, əgər qəbul ola bilməyəcəksənsə, mənim dilimi qısa edəcəksənsə, bəlkə bu yoldan qayıdasan. Mən dedim ki, ata, mənim universitetə girməyimi istəyirsən? Dedi, əlbəttə istəyirəm. Dedim, mən sənə söz verirəm ki, birinci il mən Tibb Universitetinə daxil olacağam. Ondan sonra qarşıma məqsəd qoydum ki, mütləq Tibb Universitetini qazanacağam. Düşünürdüm ki, bəlkə də bu atamla mənim son söhbətimdi, bu onun son arzusudur. *(Sonra çox şükür ki, atam sağaldı.)* Birinci il mən gəlib Tibb Universitetinə qəbul oldum. Lakin orada da uşaqlara deyirdim ki, mən onsuz da jurnalistikaya gedəcəyəm. 4-cü kursda artıq jurnalistikaya gəldim. Həm oxuyurdum, həm də işləyirdim. Beləcə, Tibb Universitetini bitirdim, diplomu aparıb anama verdim. Çünki onunla şərtimiz bu idi ki, universiteti atmaq yoxdur. Ancaq indi düşünürəm ki, yaxşı ki, o zaman Tibb Universitetini atmadım. Çünki orada öyrəndiyim biliklər mənə çox kömək edir. Həm ailədə həkimə ehtiyac olarsa, hər bir işi özüm görə bilirəm, həm iynə vururam, həm sistem qoşuram. Nəyin doğru, nəyin yanlış olduğunu bilirəm.

***- O biliklər yadda qalırmı? Çünki heç vaxt bu sahədə çalışmamısınız.***

- O vərdişlər qalır, çünki mən praktik olaraq işləyirdim. Ağır dövr idi, yaşamaq üçün pul lazım idi. Biz işləyirdik. Sonra jurnalistikaya gəldim, tibb sahəsindəki biliklərim mənə burada da kömək etdi. İndi də parlamentdə tibbi biliklərim mənə çox kömək edir.

***R.Arifoğlu:***

***- Maraqlıdır, o biliklər parlamentdə nəyə kömək edir?***

- Qanunvericilikdə səhiyyə və tibblə bağlı bütün məsələlərin qaldırılması, problemin kökünün tapılması, o problemin həllinə yanaşmanın necə olması və sair daha yaxşı bilirəm. Əvvəl düşünürdüm ki, tibb sahəsində təhsil almağım bəlkə də zaman itkisi idi. Ancaq sonra elə düşünmədim. Çünki bu bir tale və qədər idi. Əgər yazılmışdısa, deməli, onun da bir anlamı var idi.

***- Sonra da indi oturduğunuz parlamentə müxbir kimi gəldiniz... Jurnalistikadan böyük siyasətə keçid necə bir prosesdir?***

....

*(davamı növbəti sayımızda)*

**Söhbəti qələmə aldı: Nərgiz LİFTİYEVA**
**Fotolar Məhəmməd TÜRKMƏNindir**


© Məhəmməd Türkmən
www.musavat.com


© Məhəmməd Türkmən
www.musavat.com

## "Atam bir dəfə də icazə vermədi ki, nə anam, nə də biz dövlətin ona ayırdığı maşından istifadə edək"


© Məhəmməd Türkmən

## "Ömür boyu evimizə gəlib qapını açanda bizi Şəhriyarın şəkli qarşılayardı"


© Məhəmməd Türkmən



# Əsl siyasət vədəsi yetişdi, vədlər yada düşdü...

Hüseynbala SƏLİMOV

**Bəlkə də Barak Obamanın özünün və administrasiyasının artıq hansısa ölkələrə səfər etməsinin, gurultulu bəyanatlar verməsinin heç bir önəmi yoxdur - böyük ehtimalla bunlar hamısı vida xarakterli işlərdir...**

Amma Obama özü də, onun administrasiyasının üzvləri də belə hesab etmirlər - səfərlər də, bəyanatlar da davam edir.

Ola bilsin, bunun başqa səbəbləri də var. Demokratlar indi hakimiyyətdən gedirlər, siyasət isə davam edir. Onların bir qismi bundan sonra da fəal siyasətçi kimi, digərləri isə məsləhətçi və lobbiçi kimi işlərini davam etdirəcəklər.

Görünür, ölkələr, onların siyasətçiləri də məsələyə bu aspektdən yanaşırlar - ABŞ-ın ictimai və siyasi həyatında hər bir ölkənin öz adamının olması heç kimə və heç nəyə mane olmur...

Bütün bunlar C.Baydenin Ukraynaya səfər edəcəyi haqqında xəbəri oxuyanda ağlıma gəldi. Düşündüm ki, hakimiyyətdə olan vitse-prezident cənablarının başıbəlalı ölkəyə səfərinin mənası varmı?..

Xeyli çək-çevirdən sonra ağlıma gəldi ki, hamı amerikalı dostlarının sayını artırmağa çalışır. Bir daha deyirəm ki, dostlar hakimiyyətdə də ola bilər, ictimai - siyasi həyatda da...

Amma hamını hər şeydən çox digər məsələ düşündürür: görən, D.Trampın timsalında onun ölkəsi dost qazanacaqdır, yoxsa düşmən?..

Bu yazı işıq üzü görəndən az sonra artıq D.Trampın andiçmə mərasimi olacaq. Yox, bu vaxta qədər ürəyimizi boşaltmaq, fikirlərimizi oxucularla bölüşmək imkanlarımız olub. Yeni bir söz yoxdur. Yalnız bircə nüansdan savayı...

Görən, yeni ABŞ administrasiyasının Dağlıq Qarabağ probleminə münasibəti necə olacaq? Qardaş Türkiyəyə münasibətdə hansı siyasət yürüdüləcək?

İndi bunları yalnız təxmin etmək qalır. Dəqiq bir söz demək mümkün deyil. Kiçik C.Buş deyirdi ki, Azərbaycan sözünü düzgün tələffüz etmək üçün ona xeyli vaxt lazım olmuşdu.

D.Tramp üçün isə Azərbaycan bir o qədər də uzaq və yaxud da ki, ekzotik ölkə deyil. Hətta onun Azərbaycanla işgüzar əlaqələrinin olduğu da bildirilir...

Fəqət, hətta belə detal da konkret söz deməyə imkan vermir. Ən azı seçki debatlarını xatırlasaq, keçmiş sovet məkanındakı münaqişələr D.Trampın seçki ərəfəsi çıxışlarında, bəyanatlarında elə bir yer almadı. Təbii ki, bir istisna vardı - o, da Ukrayna idi...

Amma bu xüsusda da ürəkaçan və ümidverici söz eşitmədik. Hətta Tramp bir neçə dəfə demişdi ki, Krımı Rusiyanın ərazisi kimi tanımaq və Rusiya ilə sıx münasibətlər qurmaq lazımdır.

Düzdür, bütün bunlar seçki ərəfəsində deyilmişdi. Seçki vaxtı deyilənlər isə çox vaxt real siyasətdə özünün ifadəsini tapmır.

Üstəlik, yeni dövlət katibi "patron"undan fərqli olaraq Rusiyaya elə də isti münasibət bəsləmir. Senatdakı çıxışında dedi ki, ABŞ bir halda Krımı Rusiyanın ərazisi kimi qəbul edər - o halda ki, Ukrayna özü bunu etmiş olsun. Ümumiyyətlə, D.Trampın vəzifəyə təyin etdiyi və ya namizəd kimi irəli sürdüyü adamlar heç də rusofil deyillər, əksinə onların bəzisi artıq indidən rəsmi Kremli narahat etməyə başlayıb. Nə isə, çox irəli qaçmaq lazım deyil - indiyədək gözləmişiksə, bir azacıq da gözlərik...

Qarabağ probleminə gəldikdə isə təəssüf, məsələ ABŞ siyasəti üçün öndə olmağı vəd etmir. Bundan başqa da xeyli məsələlər vardır. Tramp İranla bağlı Obamanın siyasətinə ciddi düzəlişlər etmək istəyir. Bundan savayı Suriya məsələsi, Fələstin-İsrail problemi, hətta Avropada çözülməsi məqamlar var...

Amma bir detal var. Əgər D.Tramp İrana qarşı sərt siyasət yürüdərsə, o halda onun siyasətində Azərbaycanın rolu arta bilər, ABŞ-la Azərbaycan arasında hərbi əməkdaşlıq dərinləşər...

Amma Azərbaycan bunlara nə qədər hazırdır? Rəsmi Bakı buna nə deyər? Güman etmirik kimsə bu suallara qətiyyətlə "hə" cavabı vermiş olsun...

Məsələ bundadır ki, Ermənistanı çıxmaqla Bakı özünü bölgədəki hər hansı ölkəyə qarşı qoymaq istəmir. Bir tərəfdən bu, yaxşı siyasətdir və başadüşüləndir.

Fəqət, böyük siyasət deyilən şey də vardır ki, əksər hallarda çox mürəkkəb vəziyyətlər yaradır və buna adekvat davranış tələb edir. Elə o üzdən də bəzən "böyük oyun"lara da qatılmaq zərurəti yaranır. Bir daha deyirik ki, rəsmi Bakı əvvəlki dövrlərdə bu cür siyasətə tamamilə biganə olduğunu göstərib. Gəl, siyasət statik bir şey deyil və hətta o, da fəsillər kimi dəyişkəndir...

---

**ABŞ-Türkiyə müttəfiqliyi vaxtilə rəsmi Ankaranın qürurlandığı reallıq idi. Çünki bu müttəfiqlik onilliklərə dayanan tarixə malikdir. Və zamanında şübhəsiz ki, müəyyən faydalı nəticələri də olub.**

# Ağ Evin "qara torba" siyasəti ABŞ və Türkiyəni düşmənə çevirib

## ABŞ-ın Türkiyəyə yönəlik "fikri ilə zikri" ziddiyyətlidir; Barak Obamanın siyasəti ABŞ və Türkiyəni fərqli səngərlərə yerləşdirib; Trampın "İŞİD Obama hakimiyyəti tərəfindən yaradılıb" açıqlaması Amerikanı diligödək duruma sala bilər



Əslində ABŞ-Türkiyə müttəfiqliyi indi də rəsmi olaraq mövcudluğunu qoruyur. Ancaq müttəfiqliyin müasir keyfiyyətinə diqqət etdikdə tərəflərin, xüsusilə də ABŞ-ın səmimiyyəti şübhə doğurur. Hər halda, hazırda ABŞ və Türkiyə arasında müttəfiqlikdən daha çox qarşıdurma və ziddiyyətlər ön plana keçib.

Belə anlaşılır ki, ABŞ-Türkiyə müttəfiqliyi qeyri-rəsmi olaraq artıq bitib. Və müttəfiqliyin sona çatdığının rəsmən elan olunduğu tarix kimi isə vaxtilə bu iki ölkə arasında yaşanmış bir xoşagəlməz, hətta yolverilməz hadisənin baş verdiyi günü göstərmək olar. Belə ki, həmin gün ABŞ hərbçiləri Şimali İraqda dislokasiya olunan türk əsgərlərini tərk-silah edərək, onların başına qara torba keçirmişdilər.

### ABŞ-ın "qara torba"dakı xəbərdarlıq mesajı...

Düzdür, sonradan bu hadisəyə görə Ağ Evdən üzrxahlıq açıqlaması verildi və olay, sadəcə, ABŞ-Türkiyə münasibətlərinə xələl gətirməyəcək səviyyədəki anlaşılmazlıq kimi dəyərləndirildi. Halbuki əsgərinin başına torba keçirilməsi bir ölkə və onun ordusu üçün düşünülə biləcək ən böyük təhqirdir. Və bunu sinəyə çəkmək o qədər də asan məsələ deyildi.

Təbii ki, Türkiyənin rəsmi dairələrində bu açıqlamanın səmimiyyətinə o qədər də inanmadılar. Ancaq diplomatiya xatirinə susdular və özlərini Ağ Evin üzrxahlığına qane olmuş kimi göstərməyə üstünlük verdilər.

Halbuki bu olay rəsmi Ankaraya "gözdağı" keyfiyyətində bir xəbərdarlıq mesajı idi. Ağ Ev Türkiyədən Şimali İraqdakı məhdud saylı hərbi kontingentin çıxarılmasını tələb edirdi. Rəsmi Ankara isə buna müqavimət göstərərək, tələbi yerinə yetirmirdi. Və bunun cəzası türk əsgərinin başına keçirilmiş qara torba oldu.

İndi baş verənlər Türk əsgərinin başına keçirilən o qara torbanın qətiyyən bir anlaşılmazlıq olmadığını göstərir. Çünki hazırda Türkiyə ən ciddi zərbələri məhz elə özünün ən yaxın müttəfiqi olan ABŞ istiqamətindən alır. Baş verənlər o qədər təhlükəli nəticələr vəd edir ki, bu iki dövlətin artıq qatı düşmənə çevrildiyini iddia etmək də qətiyyən yersiz görünmür.

Hətta belə düşünmək olar ki, hazırda Ağ Ev bütövlükdə Türkiyənin başına qara torba keçirtməyə çalışır. Belə ki, Türkiyə hazırda olduqca ağır dövrdən keçir. Bu qardaş dövlətin gələcək perspektivlərinə kifayət qədər ciddi təhlükələr mövcuddur. Ölkə bütövlükdə daxili xaosa sürüklənir.

Maraqlıdır ki, rəsmi Ankara Türkiyənin üzləşdiyi təhlükəli duruma görə öz müttəfiqi ABŞ-ı məsul görür. Və rəsmi Ankaranın Ağ Evə yönəlik ittihamları artıq uzun müddətdir ki, davam edir. Sadəcə, bu ittihamlar zaman irəlilədikcə daha konkret məzmun almaqdadır.

Məsələ ondadır ki, təxminən bir il bundan əvvəl rəsmi Ankara Türkiyəyə qarşı təhlükəli oyunların sifarişçisi qismində xarici dövlətləri ümumi şəkildə suçlayırdı. Təxminən 5-6 ay əvvəldən başlayaraq, həmin suçlamaların məzmunu "Bizə müttəfiq olan bəzi dövlətlər Türkiyəyə qarşı xain planlarda iştirak edirlər" kimi dəyişdirildi. Son aylardasa, rəsmi Ankara öz ittihamlarını "müttəfiqimiz ABŞ bizə savaş açmış terror təşkilatlarını himayə edir və silahlandırır" məzmununa qədər konkretləşdirdi.

Təbii ki, Ağ Ev bu ittihamları israrla təkzib edir. Və rəsmi Ankaranın iddialarının əsassız olduğunu vurğulayır. Məsələnin ən müəmmalı tərəfi də məhz budur.

Belə ki, Türkiyənin rəsmi dairələrində hesab edirlər ki, "zahidin fikri ilə zikri eyni olmalıdır". Və rəsmi Ankaranın ABŞ-dan "dürüst zahidlik" örnəyi umması da əslində, məqsədli sadəlövhlük xarakteri daşıyır. Çünki ABŞ daha çox "bir barmağı kəsiləndə dönüb, həqdən qaçan zahid" kimi davranmağa vərdişlidir.

Məsələ ondadır ki, Türkiyənin xüsusi xidmət servisləri ABŞ-ın son bir neçə ay ərzində PKK-nın Suriya və İraq qolları olan PJK/PYD-yə müasir silahlar verməsini təsdiqləyən faktları ələ keçirib. Və həmin faktlarla bağlı sənədlərin, fotoların bir qismini artıq ictimailəşdirib. PJK/PYD-nin isə ABŞ-dan peşkəş olunan müasir silahların önəmli bir qismini PKK-ya verdiyi də artıq sübuta yetirilib.

Təbii ki, ABŞ-ın silahı Türkiyəni vurduğundan indi ittihamların məzmunu da daha sərtdir. Belə ki, rəsmi Ankara ABŞ-ı artıq müttəfiqlik prinsiplərini kobud şəkildə pozmaqda suçlayır. Əsas arqument isə NATO üzvlüyü ilə bağlıdır. Çünki NATO üzvlərindən hər hansı birinə qarşı real təhlükə yaranarsa, digər üzvlərin dəstək müdaxiləsi mütləqdir.

Yəni bu prinsip üzrə ABŞ-ın Türkiyəyə terror təhlükəsiylə mübarizədə dəstək verməsi lazımdır. Eyni zamanda bütövlükdə NATO-nun Türkiyənin məruz qaldığı bu hibrid savaşa qatılması bir hərbi alyans olaraq, mövcudluq öhdəliyidir.

Halbuki bütün bunların heç birisi hələlik baş vermir. Bunun əksinə olaraq, ABŞ və Türkiyə artıq həm beynəlxalq siyasət məkanında, həm də Suriya və İraqda terrorizmə qarşı mübarizədə fərqli səngərlərdə yer almaqdadır. Və həmin səngərlərdən açılan atəşlər çarpaz xarakter daşıyır. Yəni hətta "müttəfiqlər"in birbaşa özləri də olmasa, onların dəstəklədikləri qruplaşmalar bir-birinə atəş açır.

Bu isə o deməkdir ki, ABŞ və Türkiyə artıq çoxdan müttəfiq deyil. Və bu reallıq Barak Obamanın prezidentliyi dönəmində ABŞ-Türkiyə münasibətlərinə qazandırılan yekun "nəticə"dir.

Ona görə də indi gözlər ABŞ-ın yeni prezidenti Donald Trampa dikilib. Çünki ABŞ-Türkiyə münasibətlərinin düşmənçilik keyfiyyəti üzrə inkişaf edəcəyi, yoxsa geriyə müttəfiqliyə dönüləcəyi böyük ölçüdə Tramp hakimiyyətinin siyasətindən asılı olacaq.

Ən əsasısa, bu istiqamətdə müəyyən ümidverici əlamətlər də olmamış deyil. Belə ki, prezident D.Trampın təyin etdiyi yeni dövlət katibi öz açıqlamasında "Türkiyənin davamlı müttəfiqi Rusiya deyil, ABŞ-dır" deyə vurğulayıb. Belə anlaşılır ki, Ağ Evin yeni sahibləri Türkiyənin ABŞ üçün əhəmiyyətini anlamamış deyillər.

Halbuki Obama hakimiyyətini də Türkiyənin ABŞ üçün əhəmiyyətini anlamamaqda suçlamaq doğru olmazdı. Obama hakimiyyəti Türkiyənin önəmini anlasa da, bu qardaş dövlətdən özünün for-postu kimi yararlanmaq imkanları qazanmağa can atırdı. Və nəticədə regional güc statusunu dünya supergücü statusu ilə əvəzləmək istiqamətində irəliləyən Türkiyə ilə münasibətlərin qopma nöqtəsinə daşınmasından başqa heç nəyə nail ola bilmədi.

Bəs prezident D.Tramp özündən əvvəlki Ağ Ev sahibinin Türkiyə ilə bağlı kobud səhvlərini düzəldə biləcəkmi? Bu sual onun hakimiyyətinin elə ilk aylarındaca öz cavabını tapmağa başlayacaq. Hələliksə, prezident D.Tramp "İŞİD Obama hakimiyyəti tərəfindən yaradılıb" açıqlamasıyla, bizim də dəfələrlə yazdığımız bu reallığı rəsmən etiraf edib və bütün dünya qarşısında ilk xidmətini göstərib.

Çünki bu açıqlama prezident D.Tramp tərəfindən onu Rusiya ilə gizli əlaqələrdə suçlayanları küncə sıxışdırmaq məqsədilə dilə gətirilsə də, həm də ABŞ xüsusi xidmət servislərinin terror qruplaşmalarına dəstək verməklə bağlı manevr imkanlarını məhdudlaşdırır. Prezident D.Tramp 4 il ərzində rəhbərlik edəcəyi ölkəni dünya terrorizminin himayədarı və on minlərlə günahsız insanın ölümünün baiskarı kimi təqdim etməklə, ABŞ-ı beynəlxalq siyasət arenasında diligödək etdi.

Əgər prezident D.Tramp hər şeyi öz adıyla adlandırmaq və həqiqətləri etiraf etmək qabiliyyətindən Türkiyəyə münasibətdə də istifadə edərsə, Ağ Evin rəsmi Ankara ilə münasibətlərində bir çox şey köklü şəkildə dəyişə bilər. Və bu, hər iki dövlət üçün faydalı olar.

❑ Elçin XALİDBƏYLİ

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

**Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Qarabağla bağlı son açıqlamaları Kremlin münaqişənin həllində pozitiv rol oynayacağına olan ümidləri heçə endirdi. ATƏT-in Minsk Qrupunun həmsədri olan ölkənin təcavüzə məruz qalanla təcavüzkar arasında bərabərlik işarəsi qoyması yenilik deyildi. Ancaq S.Lavrovun hətta çox uzağa gedərək "Dağlıq Qarabağ məsələsi Azərbaycanın daxili işi deyil" söyləməsi Moskvanın Qarabağa da Abxaziya, Cənubi Osetiya və ya Krımın taleyini yaşatmaq niyyətindən xəbər verir.**



# Kreml Bakını "tələyə" sala bilmədiyi üçün qəzəblidir

## Rusiyanın baş diplomatı Sergey Lavrovun açıq şəkildə ermənipərəst mövqedən çıxış etməsinə Azərbaycandan kəskin reaksiyalar; "Lavrovun cavabı Azərbaycan-Rusiya münasibətlərini yenidən gərginləşdirməyə xidmət edir"

Deməki, Rusiyanın işğal olunmuş ərazilərə "sülhməramlı" adı altında ordu yeritmək niyyəti tam ciddidir və şimaldan gələn təzyiqlərin arxasında həm də bu niyyət dayanır. Elə bir neçə gün əvvəl Rusiya XİN-in təmsilçisi Mariya Zaxarova Azərbaycan hərbçisinin meyitinin geri qaytarılmaması ilə bağlı sualın cavabında ermənilərin mövqeyindən çıxış edərək bu məsələni münaqişə tərəflərinin "daxili işi" adlandırmışdı. Rusiyanın baş diplomatı isə azərbaycanlı jurnalistin "Azərbaycan işğal olunan ərazilərdə antiterror əməliyyatına, Qarabağı işğalçı qüvvələrdən və digər kriminal elementlərdən təmizləməyə başlasa, Rusiyanın buna münasibəti necə olacaq, Azərbaycanın daxili işinə müdaxilə edəcəkmi" sualına elə bir cavab verib ki, erməniləri tam məmnun edib. S.Lavrovun cavabından bəlli olur ki, savaş başlasa, Rusiya nəinki Ermənistanı müdafiə edəcək, hətta Azərbaycanın öz ərazisində separatçı quruma qarşı əməliyyatlarına qarşı da çıxacaq.

Beləcə, Azərbaycan ərazilərinin dərhal, qeyd-şərtsiz azad olunmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icrasını erməni tərəfindən tələb etmək əvəzinə, vasitəçi ölkənin naziri faktiki olaraq işğala bəraət qazandırıb. Artıq rəsmi Bakı S.Lavrovun mövqeyinə reaksiya verib. Xarici işlər naziri Elmar Məmmədyarov həmkarına xatırladıb ki, Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bütün beynəlxalq ictimaiyyət tanıyır və dəstəkləyir. "Tam şəkildə əminəm ki, əgər Rusiya bütün ciddiliyi ilə məşğul olarsa, status-kvo dəyişəcək, regionda sabitlik təmin olunacaq və Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması təmin olunacaq"-deməklə nazir əslində diplomatik yolla Kremli münaqişənin həllinə əngəl olmaqda günahlandırıb.

**Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiyaya qarşı mübarizə komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, Lavrovun cavabı Azərbaycanla Rusiya arasındakı münasibətləri yenidən gərginləşdirməyə xidmət edir:** "Onun bəyanatı 90-cı illər Yeltsin dövrünün Qafqaz canişini Kazimirovun davranışlarını və Qarabağla bağlı aparılan avantüranı özündə dolğun əks etdirir. Görünür, Suriya ətrafında 5 ildən artıq Amerika xarici siyasət idarəsinin rəhbəri ilə apardığı danışıqlar zamanı ərəb coğrafiyasında yeni dövlətlər meydana çıxarmaq istəyən Qərbi suçlayarkən rusiyalı nazir irəli sürdüyü hüquqi və siyasi arqumentləri unudur. Axı xarici müdaxilədən əziyyət çəkən və terror təhlükəsi ilə üz-üzə qalan Yaxın Şərq dövlətlərinə Moskva yardım əlini uzadarkən bunu mütləq qurban seçilən dövlətin konstitusion hakimiyyətinin dəvəti ilə həyat keçirdiklərini qeyd edirlər. Əslində tamamilə doğru yanaşmadır. Elə isə Azərbaycana çatanda nədən münaqişənin həlli beynəlxalq iradədən və hər hansı siyasi paytaxtdan asılı qoyulmalıdır. Doğrudur, Lavrovla Bakının münasibətləri yaxın tarixə qədər xeyli pis olub. Hətta 2010-cu illərdə bir müddət diplomatik kontaktlar onun başı üzərindən qurulmaqda davam edirdi. Hər halda, prezident İlham Əliyev Rusiyada hansı nazirliklərə ermənilərin xüsusi himayədarlıq etdiyini yaxşı bilir".

**Z.Oruc bir məqama diqqət çəkdi:** "4 günlük aprel müharibəsi zamanı ermənistanlı nazir Vardan Oskanyan Parisdən birbaşa Moskvaya gəlmişdi və onu agent adlandıran soydaşlarının İrəvanda etiraz aksiyalarına baxmayaraq, düz iki gün Lavrovla birgə Azərbaycanı cəzalandırmağın yolunu axtarmışdılar. Onda bir daha təmas xəttinə çoxminlik monitorinq missiyasını göndərmək və bütövlükdə sərhəddə kameralar quraşdırmaqla ordumuzun əl-qolunu bağlamağa yönələn planlar Lavrovla Nalbəndyanın vahid mövqedə necə birləşdiklərini sübuta yetirmişdi. Lakin təbiətcə çox ehtiyatlı olan bu adam Putinin və Rusiya hərbi-sənaye kompleksinin qarşısında cəsarətlə rəsmi Bakıya silah satışının durdurulması tələbini qoya bilməmişdi".

**Deputat qeyd etdi ki, Azərbaycanda belə bəyanatların şok doğurması başadüşüləndir:** "Çünki söhbət təkcə status məsələsinin torpaqların işğaldan azad edilməsi faktından önə keçirilməsindən getmir. Əgər bir ölkə ərazi problemini beynəlmiləl məsələ sayırsa, xarici müdaxilə faktını qəbul edirsə, avtomatik olaraq, situasiya daha da qaranlıqlaşır, səngərin yeri itir. Reallıq odur ki, Abxaziya, Osetiya, Donbas və Qarabağ problemi milli dövlətlərin iradəsindən kənara çıxıb. İndi hərbi vasitə ilə bütün siyasi mərkəzlərin qərarını öz xeyrinə dəyişə bilməzsən. Lavrovdan soruşsan, deyəcək ki, hətta Qarabağı Azərbaycanın tərkib hissəsi sayan Türkiyənin özünün də münaqişədə tərəf kimi marağı var - ermənilərlə əsrlik problemin çözülməsi, neft-qaz, yaxud geosiyasi mövqe davası. Belə olan təqdirdə, Putinin daha diplomatik dillə məsələyə son illər verdiyi qiymət onun nazirləri üçün də dəqiq çərçivə olmalıdır. Avropa Şurasında ədalətə səs verən və Sərsəng su anbarı ilə ermənilərin işğalını pisləyən rusiyalı deputatları Putinin məşhər ayağına çəkdirmək istəyən də Lavrov olmuşdu. Lakin rus prezident daha mötədil bir davranış sərgiləmişdi. Ona görə Lavrov Ermənistanda anti-Rusiya aksiyalarını yaxşı görür. Biz onun etnik mənşəyinə deyil, təmsil etdiyi dövlətin maraqlarına görə Azərbaycanın ərazi bütövlüyünün təminatının daha böyük regional təhlükəsizliyə səbəb olacağını düşünürük. Bunu zamanla hamı qəbul edəcək".



Zahid Oruc



Elxan Şahinoğlu

Qeyd edək ki, ötən ilin ikinci yarısında Rusiyanın bir neçə rayonu işğaldan azad edəcəyi, hətta qaçqın-köçkünlərin geri qaytarılacağı ilə bağlı rus politoloqlar davamlı proqnozlar verirdilər. Lakin ilin ikinci yarısında Rusiyanın Ermənistana açıq dəstəyi nikbin açıqlamaları alt-üst etdi. Belə aydın olur ki, Kreml əslində Azərbaycana şərtlərini qəbul etdirmək üçün şirnikləndirici təklifləri dövriyyəyə buraxıbmış.

Rusiya XİN başçısı S.Lavrov ötən ilin aprel ayında, "4 günlük müharibə"dən sonra Bakıda olarkən ölkəsinin niyyətini açıqlamışdı. "Azərbaycan nə Avrasiya İqtisadi Birliyinə, nə də ki Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına üzvdür. Lakin mən bu vəziyyətin dəyişə biləcəyinə ümid edirəm",- deyə, Rusiya xarici işlər naziri bildirmişdi. Belə aydın olur ki, Lavrov Bakının tezliklə "Yeni SSRİ"yə üzvlüklə bağlı qərar verəcəyini gözləyirmiş. Sonrakı dönəmlərdə Lavrovun sərt üzünü müşahidə etdik. Belə ki, o, ermənilərin xoruna qoşularaq Türkiyəni Dağlıq Qarabağ münaqişəsinin həllinə maneçilikdə və təxribatda suçlamışdı. Hətta İrəvanda kəskin bəyanatlar verən Lavrovun Bakıya dönəcəyi gözlənilsə də, bu, baş verməmişdi. Çox güman ki, XİN rəhbəri "Lavrov planı"nın iflasa uğramasının acığını Bakıdan çıxmağa çalışır.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu da hesab edir ki, Lavrovun yanvarın 17-də Moskvada keçirdiyi ilin yekunlarına dair mətbuat konfransında Qarabağla bağlı dediyi bütün fikirlər Azərbaycanın maraqlarına ziddir. Ancaq ekspert bu fikirlərin yalnız XİN başçısına aid olduğunu düşünmür:** "Lavrovun açıqlamaları Bakı ilə Moskva arasında söz duelinə yol açıb. Rusiyada xarici siyasət prioritetlərini prezident müəyyənləşdirir. Lavrov nə qədər ermənipərəst olsa da, Qarabağ məsələsində prezident Vladimir Putindən fərqli siyasət həyata keçirə bilməzdi. Deməki, Lavrovun Dağlıq Qarabağ münaqişəsinin həllinə baxışını Putin də bölüşür ki, Rusiyanın xarici işlər naziri Ermənistanı müdafiə edir".

**Kremlin Bakıdan istəklərinə gəldikdə, E.Şahinoğlu qeyd etdi ki, rəsmi Bakı Rusiyanın bütün istəklərini reallaşdırar, hətta Avrasiya İqtisadi Birliyinə üzv belə olar, təki Moskva İrəvana təsir edib Dağlıq Qarabağ münaqişəsinin həllini sürətləndirsin:** "Ancaq Lavrovun sözlərindən anlaşılır ki, Azərbaycanın Avrasiya İqtisadi Birliyinə üzvlüyün qarşılığında Moskva Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllini sürətləndirən deyil. Belə isə biz niyə Avrasiya İqtisadi Birliyinə üzv olmalıyıq ki?"

**Qarabağ Azadlıq Təşkilatı (QAT) da Rusiya XİN başçısının son açıqlaması ilə bağlı bəyanat verib.** "Bu açıqlama Rusiyanın işğalçı və imperialist niyyətlərini, işğalçı Ermənistanı birmənalı şəkildə dəstəklədiyini bir daha nümayiş etdirir. Ona görə də Rusiya prezidenti bu məsələyə aydınlıq gətirməlidir, öz məmurunun fikrini təsdiq və ya təkzib etməlidir. Əgər təsdiq edərsə, onda Rusiyanın Minsk Qrupunda vasitəçiliyinə dərhal xitam verilməlidir. Azərbaycan hakimiyyəti Rusiya ilə münasibətlərinə yenidən baxmalıdır. Əks halda, biz Rusiyanın Azərbaycandakı səfirliyi qarşısında etiraz aksiyalarına başlayacağıq",- deyə bəyanatda bildirilir.

Bu yerdə Rusiya prezidentinin ötənilki "elə etmək lazımdır ki, tərəflərin hər ikisi özünü qalib kimi hiss etsin" bəyanatını da xatırlamaq lazımdır. Putinin də sözlərindən belə aydın olur ki, Kreml, faktiki, Dağlıq Qarabağda ikinci erməni dövlətinin yaradılması, Ermənistanla Xankəndi arasında dəhliz yolun qalması şərtilə ətraf bir neçə rayonun qaytarılmasını istəyir. Bu isə ilk gündən Azərbaycana qarşı tələ kimi qiymətləndirilib. Lavrov da Putinin sözünü deyib, bir az da açıq formada.

Kəsəsi, Rusiya Azərbaycana onu "tələ"yə sala bilmədiyinə görə qəzəblidir. Azərbaycanın dövlət başçısı Bakıya "Dağlıq Qarabağı müstəqil dövlət kimi tanıyın" deyə, təzyiqlərin olduğunu açıqlamışdı. Bunun ardınca prezident Qarabağdakı ermənilərə uzağı Azərbaycan daxilində muxtar respublika statusunun veriləbiləcəyini bəyan etdi. Görünür, şimal qonşumuzu bu formul razı salmayıb.

Hələ ki rəsmi Moskva Azərbaycandakı narahatlığa hər hansı reaksiya verməyib. Hər halda, KTMT-nin sabiq baş katibi Bordyujanın ardınca Lavrovun da açıq şəkildə Bakı ilə təhdid dilində danışması təsadüfə oxşamır.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017

# Tramp manatı xilas edə bilərmi...

## ABŞ-ın yeni prezidentinin dolları ucuzlaşdırmaq siyasəti effekt verəcəkmi?

**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Tramp dolları ucuzlaşdırmağa çalışır. Belə ki, Tramp çıxışında bildirib ki, hazırda dolların məzənnəsi şişirdilib. Prezidentin bu açıqlamasından sonra dollar əksər valyutalara nisbətən ucuzlaşıb.**

ABŞ prezidenti qeyd edib ki, hazırda dolların məzənnəsi şişirdilib, bunun əsas səbəblərindən biri də Çinin öz milli valyutasının məzənnəsinin aşağı səviyyədə saxlanılmasına yönəlmiş addımlarıdır.

Bu açıqlamadan sonra avronun məzənnəsi 1,0697 dollar səviyyəsinədək yüksəlib.

Halbuki ötən ticarət sessiyasında avronun məzənnəsi 1,0601 dollar idi.

Bununla yanaşı, ötən həftə 114,2 yen səviyyəsində olan dollar hazırda 113,48 yenə çatıb.

İngilis funtu isə dünən sürətlə bahalaşıb. Böyük Britaniyanın baş naziri Tereza Meyin açıqlamalarından sonra funt dollara nisbətən 2,4%, avroya nisbətən isə 1,5% möhkəmlənib.

Bəs görəsən, Tramp həqiqətən dolların məzənnəsinin yumşalmasına nail ola biləcəkmi?

**İqtisadçı ekspert Natiq Cəfərli "Yeni Müsavat"a açıqlamasında bunun mümkün olmadığını qeyd etdi:** "Amerika iqtisadiyyatına dərindən nəzər salsaq görərik ki, Tramp prezident olsa da onun ölkənin makroiqtisadi göstəricilərinə, o cümlədən Federal Rezerv Sisteminin işinə qarışa bilməz. Prezident istəsə belə bu addımı ata bilməz. Bundan əlavə, Trampın özünün seçkilərdən öncə verdiyi bəyanatlar da ziddiyyət təşkil edir. Çünki Tramp Federal Rezerv Sistemini tez-tez tənqid edirdi ki, faiz artımını gecikdirir, gələcəkdə daha sürətlə faiz artımına getməlidir. Federal Rezerv Sistemi bu il ən azı 3 dəfə faizləri artırmalıdır. Bu isə avtomatik olaraq dolların daha da bahalaşmasına səbəb olacaq. Sözlü müdaxilələr ola bilər ki, bazara müəyyən təsir göstərsin. Birjalar buna müəyyən cavab verdi. Lakin bu gündən dollar digər valyutalara nisbətən yenidən möhkəmlənməyə başlayıb".

**N.Cəfərlinin sözlərinə görə, ABŞ-da prezidentin iqtisadi məsələlərə kəskin şəkildə müdaxilə etmək səlahiyyəti yoxdur:** "ABŞ iqtisadi sistemi bir qədər fərqlidir. Orada prezidentin kim olmasından asılı olmayaraq, makroiqtisadi göstəricilərlə bağlı , fiksal siyasətlə bağlı, bank siyasəti ilə bağlı qərar verən qurumlar fərqlidir. Onlar birbaşa prezidentə tabe deyillər.

Amma Trampın ümumi yanaşması bundan ibarətdir ki, istehsalı Amerikaya geri qaytarmaq ABŞ bazarını xarici şirkətlərdən bacardıqca qorumaq lazımdır. Bu baxımdan, ABŞ hökumətinin ata biləcəyi müəyyən addımlar ola bilər. Məsələn, gömrük siyasətində dəyişikliklər edilə bilər və bəzi ölkələrdən idxal olunan mallara yüksək gömrük rüsumu tətbiq edilə bilər ki, daxili istehsalçılara dəstək olsun. Bu istiqamətdə addımlar atıla bilər".



**N.Cəfərli hesab etmir ki, Trampın hansısa addımları dolların kəskin ucuzlaşmasına və ya kəskin bahalaşmasına səbəb ola bilər:** "Çünki bu, Amerikanın özünün göstərdiyi iqtisadi nəticələrdən asılı olacaq, bir də Federal Rezerv Sisteminin apardığı siyasətdən. Hesab edirəm ki, bu il dolların daha da möhkəmlənməsi prosesi baş tutacaq. Əgər Federal Rezerv Sistemi bu il 3 dəfə faizləri artırsa, dollarla avro arasında paritet yarana bilər, yəni 1 dollar 1 avroya bərabər ola bilər. Ona görə də Trampın verdiyi bəyanatlar birjalara bir neçə saatlıq təsir etsə də, fundamental təsiri yoxdur. Bazar siyasətçilərin çıxışlarından daha çox iqtisadi göstəricilərə reaksiya verir".

**Trampın əksinə olaraq, iqtisadçı ekspert dolların hazırkı məzənnəsini şişirdilmiş hesab etmir:** "Dolların hazırkı məzənnəsi dünyada gedən iqtisadi proseslərə adekvatdır. FED dekabr ayında faizləri artırdı, bundan sonra dolların möhkəmlənməsi baş verdi. Bu da normaldır. Çünki dolların möhkəmlənməsi Amerikanı daha cazibəli investisiya sahəsinə çevirir. Bu mənada bu il də ABŞ-da investisiya qoyuluşu həcminin artması gözlənilir. Bu addım gələcəkdə də təkrar olunsa, biz 2017-ci ildə dolların daha çox möhkəmlənməsinin şahidi olacağıq.

Trampın gətirdiyi bir arqument var ki, bahalı dollar ixracatı zəiflədir. Lakin Amerikanın özünəməxsus ixracat istiqaməti var və buna dolların məzənnəsi çox az təsir edir. Məsələn, Amerikanın ən çox ixrac etdiyi məhsullar texnoloji məhsullardır. Məsələn, "Micrasoft"un proqramları, "Apple" şirkətinin məhsulları və sair. Dolların məzənnəsinin neçə olmasından asılı olmayaraq, həmin şirkətlər məhsullarını sata bilirlər. Məsələn, "Boing" şirkəti bu gün artıq 2021-ci ilə qədər bütün müqavilələri bağlayıb. Bu şirkət tam gücü ilə işləməlidir ki, həmin müqavilələri yerinə yetirsin. ABŞ dövləti və iqtisadiyyatı dünyanın digər ölkələrindən fərqli olduğu üçün dolların bahalaşması ölkənin ixracat potensialına başqa ölkələrdəki kimi təsir göstərmir. Müəyyən təsirləri olsa da çox ciddi təsir göstərmir. Bu mənada mən düşünmürəm ki, Trampın atacağı hər hansı addım dolların ucuzlaşmasına səbəb olsun. Yeganə olaraq o baş verə bilər ki, Tramp öncədən dediyi kimi bütün ticarət anlaşmalarından çıxsa, bu böyük problem olacaq. Lakin ABŞ prezidentinin təkbaşına qərar qəbul etmək ixtiyarı yoxdur. Qərarları Konqres qəbul etməlidir və bu halda Konqres qərarı qəbul etməyə bilər. Konqresdə Trampın əleyhinə olan kifayət qədər respublikaçılar və demokratlar var. Bu mənada hər hansı fövqəladə hadisə baş verməsə, dollar kəskin ucuzlaşmayacaq".

❑ **Nərgiz LİFTİYEVA**

# Fırıldaqçı Lapşinin müdafiəçisi ABŞ, yoxsa Rusiyadır?

## "Azərbaycana ələ düşən hər imkandan istifadə edərək təzyiq göstərmək istəyən tərəf göz qabağındadır"

**ABŞ Dövlət Departamentinin nümayəndəsi Con Kirbi bildirib ki, blogger, Dağlıq Qarabağa qanunsuz səfərlər edən və Azərbaycana qarşı həqarətlər edən Aleksandr Lapşinin ekstradisiyasına dair məsələləri bu prosesə cəlb olunmuş ölkələr şərh etməlidir. Kirbi deyib ki, bununla belə, ABŞ söz azadlığının qorunmasının vacib olduğunu xatırladır.**

"Yaxşı olardı ki, bu barədə konkret aidiyyəti ölkələr danışsın. Söz azadlığı bizim üçün önəmlidir", - deyə Con Kirbi ABŞ-ın blogger Aleksandr Lapşinin Belarusdan Azərbaycana ekstradisiyası məsələsinə münasibəti ilə bağlı suala cavabında bildirib.

Dövlət Departamenti rəsmisinin bu açıqlaması onu deməyə əsas verirmi Lapşin məsələsində Vaşinqton Azərbaycana təzyiq edə bilər?



**Politoloq Elçin Mirzəbəyli**

"Yeni Müsavat"a açıqlamasında bildirdi ki, ABŞ Dövlət Departamentinin nümayəndəsinin açıqlamasını təbii qarşılamaq lazımdır. Bu, növbədə səlahiyyətinin başa çatmasına saatlar qalan Obama administrasiyasının ənənəvi yanaşmasının ifadə edir: "Kirbi bu məsələdə məqsədyönlü şəkildə "söz azadlığı" məsələsini önə çəkir. Amma bəllidir ki, Aleksandr Lapşinlə bağlı məsələdə söhbət söz azadlığından yox, dövlət sərhədlərinin pozulmasından, saxtakarlıqdan gedir. Zənnimcə, Lapşinlə bağlı məsələdə ABŞ Dövlət Departamenti təmsilçisinin açıqlamasından daha çox, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Lapşin məsələsi ilə bağlı iddialarına diqqət yetirmək lazımdır. Çünki Con Kirbinin münasibətində yalnız söz azadlığı ilə bağlı ənənəvi xatırlatma edilir. Lavrov isə diplomatik ritorikaya uyğun olmayan ifadələrlə Rusiya vətəndaşının hüquqlarının qorunmasından danışır. Bildiyiniz kimi, Aleksandr Lapşin eyni zamanda İsrail vətəndaşıdır. Rusiya Konstitusiyasının 62-ci maddəsi ikili vətəndaşlığa imkan verir. Lakin 2014-cü ildə "Rusiya vətəndaşlığı haqqında" qanuna edilmiş dəyişikliyə əsasən ikili vətəndaşlıq ikitərəfli və çoxtərəfli müqavilələrlə tənzimlənir. Rusiya ilə İsrail arasında isə belə bir müqavilə yoxdur. Deməli, Lapşinin vətəndaşlığı mübahisəlidir. Digər tərəfdən, Aleksandr Lapşin Azərbaycan sərhədini pozmaqla həm də Rusiya qanunvericiliyini pozub, konkret halda cinayət törədib. Rusiya qanunvericiliyinə əsasən, ikili vətəndaşlığı olan şəxs yalnız Rusiya ərazisində Rusiya vətəndaşı hesab olunur. Lapşin isə hazırda Rusiya ərazisində deyil. Və deməli, Lapşinin vətəndaşlığı ilə bağlı məsələ yalnız onun hazırda yerləşdiyi ölkə və ona qarşı ittihamla çıxış edən dövlət, yəni Azərbaycan tərəfindən dəyərləndirilə bilər. Əgər Lavrov bunları bilmirsə, o zaman ölkəsinin hüquqşünaslarından məsləhət ala bilər. Yox, əgər bilirsə, o zaman onun yanaşması diplomatik təzyiq kimi qiymətləndirilməlidir. Deməli, Lapşin məsələsində Azərbaycana ABŞ-dan yox, Rusiyadan diplomatik təzyiqdən söz edilməlidir".

Politoloq vuğuladı ki, əslində Azərbaycana ələ düşən hər imkandan istifadə edərək təzyiq göstərmək istəyən tərəf göz qabağındadır. ABŞ-ın Lapşinlə bağlı mövqeyini isə bir neçə gündən sonra dəyərləndirmək daha doğru olardı.

Qeyd edək ki, A.Lapşin Azərbaycan tərəfinin sorğusu əsasında ötən ilin dekabrında Minskdə saxlanılıb. Onun adı 2013-cü ildə Azərbaycan Xarici İşlər Nazirliyinin "qara siyahısı"na daxil olunub. Buna səbəb bloggerin digər əcnəbilərlə Dağlıq Qarabağa qanunsuz səfər etməsi, Dağlıq Qarabağı "müstəqil dövlət" adlandırması və təbliğ etməsidir . 2015-ci ildə isə Lapşin Ukrayna pasportu ilə Azərbaycan ərazisinə Gürcüstandan keçib. Pasportda Aleksandr adı Ukrayna dilinə uyğun Oleksandr yazıldığı üçün Lapşin Azərbaycana maneəsiz daxil ola bilib. Azərbaycan tərəfi "Dövlət sərhədinin pozulması haqqında" qanunu pozduğu üçün bloggeri beynəlxalq axtarışa verib. Ötən ilin dekabrında Lapşin Minskdə həbs olunub.

İki gün öncə Rusiya xarici işlər naziri Sergey Lavrov məsələ ilə bağlı qeyd edib ki, Moskva istənilən jurnalist və şəxsin dünyanın istənilən yerində hər hansı yeri ziyarət etməsinin kriminallaşdırılmasının və cinayət məsuliyyətinə cəlb edilməsinin əleyhinədir. O, həmçinin Moskvanın hər hansı ölkədə saxlanılan Rusiya vətəndaşlarının üçüncü ölkəyə ekstradisiyasının əleyhinə olduğunu bildirib.

**Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov isə Sergey Lavrovun Lapşinlə bağlı açıqlamasına cavabında deyib ki, Lapşinin ekstradisiyası sırf hüquqi müstəvidə baxılan məsələdir:** "Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə uyğun olaraq, Azərbaycan sərhədlərini qanunsuz olaraq keçmiş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə hörmətsizlik nümayiş etdirmiş S.Lapşin barəsində cinayət işi açılıb. Onun barəsində "İnterpol" xətti ilə beynəlxalq axtarış elan edilib. MDB çərçivəsində Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında 2002-ci il Kişinyov konvensiyası əsasında Belarusda saxlanılmış Aleksandr Lapşinin ekstradisiyası üçün müvafiq sənədlər təqdim olunub. Rusiyaya qarşı eyni hərəkətləri törətmiş və onun sərhədlərini qanunsuz keçmiş şəxsə münasibətdə də Rusiyanın hüquq-mühafizə orqanları eyni addımları atardılar".

❑ **Etibar SEYİDAĞA**

# Türkiyədə darvinizm nəzəriyyəsi ləğv edildi, bəs bizdə?

**Türkiyə məktəblərində 2017-ci ildən etibarən Darvinin təkamül nəzəriyyəsi təhsil proqramından çıxarılır. Onun əvəzinə ətraf mühit şəraitinin genetik dəyişikliklərə təsiri barədə mövzular tədris ediləcək. Bu barədə Türkiyənin təhsil naziri İsmət Yılmaz mətbuata açıqlamasında bildirib.**

Qeyd edək ki, nəzəriyyə "Darvinin" adlansa da, bu tam belə deyil, onun adı altında təkamülün sintetik nəzəriyyəsi (müasir təkamül sintezi nəzəriyyəsi) başa düşülür. Əvvəllər bu mövzu yuxarı sinif şagirdlərinin biologiya dərsində keçirilirdi. Yeni dəyişiklik barədə təşəbbüsü hakim AKP irəli sürüb. Sözügedən mövzunun dərsliklərdən çıxarılması barədə sualları cavablandıran təhsil naziri bəyan edib ki, müasir təkamül nəzəriyyəsi, sadəcə, nəzəriyyədir.

"Darvinin əməyi, fizikada "Böyük Partlayış" nəzəriyyəsi kimi, sadəcə, nəzəriyyədən ibarətdir, elm bunu deyir. Bu, ayrıca müzakirə mövzusudur", - deyə İsmət Yılmaz bəyan edib.

Maraqlıdır, Darvinin təkamül nəzəriyyəsi Azərbaycan dərsliklərindən də çıxarıla bilərmi?

## Cəsarət Valehov: "Buna xüsusi ehtiyac yoxdur"





**Təhsil Nazirliyinin mətbuat xidmətinin rəhbəri Cəsarət Valehov Darvin nəzəriyyələrinin Azərbaycan dərsliklərindən çıxarılması mövzusunun gündəmdə olmadığını dedi:** "Bunun ləğvi ilə bağlı məsələ nəzərdə tutulmayıb. Bunun dərsliklərdən çıxarılmasını zəruri hesab etmirəm. Buna xüsusi ehtiyac yoxdur, bu nəzəriyyə dərsliklərdən çıxarılmayacaq".

## Etibar Əliyev: "Sosial darvinizm XX əsrin ortalarında faşizmin formalaşmasında çox böyük rol oynadı"

**"XXI əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev Türkiyənin bu addımının təqdirəlayiq olduğunu dedi:** "Darvinin təkamül nəzəriyyəsinin Türkiyə dərsliklərindən çıxarılmasını düzgün addım hesab edirəm. Darvinizm nəzəriyyəsi haqqında fikirlər olduqca ziddiyyətli xarakter daşıyır. Sovetlər vaxtı bütün fakültələrdə elmi ateizm, dialektik materialist dərsi keçirdilər. Bu və eyni zamanda tarix fənlərində darvinizm nəzəriyyəsi geniş tədris olunurdu və şübhəsiz ki, bu ateizm təlimini daha da dərinləşdirirdi. Yəni insanın meymundan əmələ gəlməsində əməyin rolu bütün paraqraflarda təkrar olunurdu. Ancaq mən başqa maraqlı bir məqamı deyim ki, sosial darvinizm daha təhlükəli cərəyana çevrilmişdi. Sosial darvinizm XX əsrin ortalarında faşizmin formalaşmasında çox böyük rol oynadı. Şübhəsiz ki, burada darvinizmin iki əsas ideyası dominantlıq təşkil edirdi: təbii seçmə və yaşamaq uğrunda mübarizə. Nəticədə yevgenika və irqçilik çox geniş vüsət almağa başladı. Yəni insan populyasiyasının siyasi və sosial tədbirlərin məcmusunda irsi xarakteristikasının yaxşılaşdırılması və bir irqin başqa irqlər üzərində hökmranlığı ideyaları tətbiqini tapdı. Bunlar darvinizmin bəşəriyyətə gətirdiyi bəlalardır. Darvinizm maltusyançılıqdan bəhrələnib. İqtisadiyyatda "Maltus nəzəriyyəsi" hökm sürürdü. Yeni müharibələrin labüdlüyü məsələsi. "Maltus nəzəriyyəsi"nə görə, zaman keçdikcə insanların artımı onların yaşayışını təmin edən ərzaq və təbii sərvətlərin həcminə uyğun gəlməyəcək. Bunun üçün böyük insan tələfatına yol açan müharibələrin olması labüd sayılırdı. Yəqin ki, söylədiyim amilləri türk alimləri nəzərə alıb, bu məsələni gündəmə gətiriblər".

## Kənan Rövşənoğlu: "Din bunu birmənalı olaraq rədd edir"

**Dini ekspert Kənan Rövşənoğlu dinin bunu bir mənalı olaraq rədd etdiyini dedi:** "Türkiyədə yeni orta məktəb dərsliklərindən darvinizm nəzəriyyəsinin çıxarılacağı açıqlanıb. Təhsil naziri "Böyük Partlayış" və "Təkamül" nəzəriyyələrinin tədris olunmayacağını bildirib. Söhbət təbii ki, insanın meymundan yaranması ilə bağlı Darvinin məşhur nəzəriyyəsindən gedir. Bu nəzəriyyə mübahisəlidir və bilindiyi kimi, din bunu birmənalı olaraq rədd edir. Eyni zamanda elm aləmində də bu nəzəriyyəyə birmənalı münasibət yoxdur. Yeri gəlmişkən, İslam dini təkamül nəzəriyyəsini qəbul edir, bitkilərdə, heyvanların təkamülü prosesini təsdiqləyir, bununla bağlı İslam filosoflarının geniş fikirləri var. Ancaq mübahisə doğuran məqam insanın məhz meymundan yaranması fikirdir. Bu mənada bu addımı "dinin elmə qələbəsi" və ya elmin məhdudlaşdırılması adlandırmaq qərəzli olardı. Söhbət orta məktəblərdə tədrisdən gedir. Təbii ki, elm adamları arasında bu mübahisə və müzakirələr hələ uzun illər davam edəcək. Ancaq Darvinin nəzəriyyəsini ali həqiqət olaraq məktəblilərə tədris olunması o qədər də zəruri deyil. Çünki birincisi, bu iddia özü birmənalı olaraq sübuta yetirilməyib. Sübutu olmayan, yalnız iddianın dərsliklərdə tədrisi və ya dərslikdən çıxarılması facİə deyil. Bunu normal qarşılamaq lazımdır. Bu mövzu aydındır, insan kimi mükəmməl bir varlıq heyvandan yarana bilməz. Bunu dinlə yanaşı bir çox alimlər də bildirir".

❑ **Günel MANAFLI**

# İmtahan həyəcanı insanı öldürə bilərmi...

## Adil Qeybulla: "Sinir sistemi zəif, problemi olan uşaqlarla işləmək lazımdır"



**İmtahan stressi - olduqca ciddi, psixoloji bir vəziyyətdir. Ümumiyyətlə, hər kəs - istər məktəbli, istər sürücü, istər tələbə həyatında bir dəfə də olsun imtahanla rastlaşıb. Ona görə də imtahan həyəcanı heç kimə yad deyil. Stressin baş verməsi insanın orqanizmindən, psixologiyasından, beyin tipindən irəli gəlir.**

Ancaq elə insanlar var ki, imtahan stressini çox ağır yaşayır. Araşdırmalar göstərir ki, 30 yaşından yuxarı çox az insan bu gərginliyə tab gətirə bilir. Hətta bu stressə görə dünyasını dəyişənlər, psixoloji sarsıntı keçirənlər, aylarla xəstəxanada yatanlar, müalicə alanlar belə olur. Bugünlərdə imtahan stressinə görə Gəncə Dövlət Universitetinin magistri İbrahim Həşimlinin dünyasını dəyişməsi imtahanın insan həyatına nə dərəcədə dərin psixoloji təsir göstərdiyini deməyə əsas verir. İmtahandan sonra özünü pis hiss edərək dünyasını dəyişən İbrahim Həşimli öz facebook profilində imtahanlarla bağlı yanvarın 15-də sonuncu paylaşımını edib. O, "imtahan qurtarsın, şeir paylaşacağam. Birdən kəsərlər imtahandan..." statusunu yazıb. Qeyd edək ki, pedaqoji fakültənin magistratura mərhələsində təhsil alan 1994-cü il təvəllüdlü İbrahim Həşimli yazılı imtahanda iştirak edib və daha sonra fakültənin dəhlizində müvazinətini itirərək yıxılıb. Dərhal təcili yardıma müraciət edilib. O, xəstəxanaya aparılsa da, həyatını xilas etmək mümkün olmayıb. Universitetdən bildirilib ki, İ. Həşimli epilepsiya tutması keçirib.

Ümumiyyətlə, imtahan diqqət mərkəzləşməsi, eyni zamanda tez və doğru cavab tələb edən çətin situasiyadır. Məhz belə bir anda orqanizmdə "stress verən" mexanizm fəaliyyətə başlayır. Təbii olaraq bu da imtahanqabağı stressə gətirib çıxarır. Bu "böhran" vəziyyətinin əlamətləri isə yüksək həssaslıq, yorğunluq, mübarizə əzminin itməsi, iştahanın itməsi, yaxud əksinə, gecə yuxusuzluğu və gündüz yatmaq həvəsinin olması və s. əlamətlərdir. Bir çox həkimlər də təsdiqləyir ki, imtahanlarda yaşanan stress və həddindən artıq həyəcan ürəkdə ritm pozuqluğuna və ani ölümlərə səbəb ola bilir. Belə ki, stress bədəndə bəzi hormonların ifraz olunmasına səbəb olur. İfraz olunan hormonlar isə nəbzin və təzyiqin yüksəlməsinə gətirib çıxarır. Nəbz, yəni ürək döyüntüsü yüksəlincə isə insanda halsızlıq, baş gicəllənməsi, yerindən qalxa bilməmək kimi çətinliklər ortaya çıxır.

**Tibb elmləri doktoru, professor Adil Qeybulla sinir sistemi zəif, problemi olan uşaqlarla işləmək lazım olduğunu dedi:** "Emosional, sinir sistemində problem olan adamlarla işləmək lazımdır. Valideynlər özləri gərək bununla maraqlanıb, narahat olsunlar. Bu hadisələr dünyanın hər yerində baş verə bilər. Biz Amerikada, Avropa ölkələrində nələr baş verir, onlardan xəbərsizik. Sadəcə olaraq, sinir sistemi zəif, problemi olan uşaqlarla işləmək gərəkir. Uşaq vaxtından həmin insanı müşahidə edən pediatr, valideynlər var. Onlar bunu əvvəlcədən görürlər ki, imtahan müddətində bu uşaqlarda problem ola bilər. Onun həyəcanından hiss etmək olur. Yaxşı olar ki, psixoloq və ya müvafiq həkim bu cür uşaqlara baxsın, müəyyən məsləhətlər versin".

Bir çox təhsil ekspertləri zaman-zaman imtahanların, xüsusən də test imtahanlarının gərəksiz olduğunu və uşaqların beynində bir mexanizmləşmə yaratdıqlarını bildiriblər. Ancaq buna baxmayaraq, indi hətta 1-ci sinfə qəbul olan 6 yaşlı uşaqlar belə imtahan verirlər.

**"XX Əsr" Təhsil Mərkəzinin rəhbəri, təhsil eksperti Etibar Əliyev fənnini yaxşı bilən uşaqların heç bir həyəcan keçirmədiyini dedi:** "Dövlət İmtahan Mərkəzinin imtahanları həyəcan tələb etmir. Fənnini yaxşı qavrayan uşaqlar heç bir həyəcan keçirmir. Həyəcanı o uşaqlar keçirir ki, fənni orta səviyyədən aşağı bilirlər və nəticədə həyəcan keçirirlər. Hətta televiziyada təqdim olunan dərman preparatlarını qəbul edir, məscidlərə gedirlər. Düzdür, imtahan müəyyən psixoloji gərginlik yaradır. Amma intihara, yaxud da başqa sarsıntılara səbəb olmamalıdır. Bilik qazanmaq insana məmnunluq gətirir. Çox zaman imtahana görə sarsıntı keçirənlər fənni yaxşı bilməyənlərdir. Burada elə bir problem yoxdur; uşaq tədris olunan materialları yaxşı dərk etmirsə və ya qrupu üzrə fənləri dərindən bilmirsə, təhsilin başqa pillələrinə gedə bilər. Məsələn, kolleclər, peşə məktəbləri və s. var. İndi tətbiq olunan imtahan üslubu mənə elə gəlir ki, çox gərginlik yaratmayan qaydadır. Ancaq bir məsələ də var ki, uşaqların çoxu ali məktəblərə testlər üzrə hazırlaşırlar. Yaxşı olar ki, dərsliklər üzrə hazırlaşsınlar. Materialı mənimsədikdən sonra əlbəttə ki, test tapşırıqlarını həll etmək bir o qədər çətinlik yaratmayacaq".

❑ **Günel MANAFLI**

# Ölkədə içməli su fəlakəti...

**Mütəmadi olaraq Bakı və digər rayonlarda sutəmizləyici qurğulardan, ayrı-ayrı stasionar nöqtələrdən, modul tipli yeni quraşdırılan qurğulardan götürülmüş içməli su nümunələrində xoşagəlməz vəziyyətlər müşahidə olunub.**

Lent.az-ın məlumatına görə, bunu Səhiyyə Nazirliyinin Respublika Gigiyena və Epidemiologiya Mərkəzinin Sanitar şöbəsinin müdiri Ziyəddin Kazımov dünən keçirilmiş mətbuat konfransında deyib.

Z.Kazımov bildirib ki, respublikanın 215 kəndində ETSN tərəfindən quraşdırılan modul tipli qurğulardan verilən içməli su nümunələrinin fiziki-kimyəvi və bakterioloji göstəricilərində aşkar olunan nöqsanlarla əlaqədar Ekologiya və Təbii Sərvətlər Nazirliyinə məktub göndərilib.

Son 5 ildə mərkəz tərəfindən respublika ərazisində bulaq və yeraltı artezian suların müayinələri ilə əlaqədar araşdırma aparıldığını və nümunələr götürüldüyünü qeyd edən şöbə müdirinin sözlərinə görə, bu nümunələrdə də o qədər təqdirəlayiq nəticələr əldə olunmayıb. Bununla bağlı yerli icra orqanları qarşısında məsələ qaldırılıb. Ümumiyyətlə, şəhərin və respublikanın ayrı-ayrı ərazilərinin içməli su təchizatı məsələsində daim nəzarət aparılır.



**Səhiyyə Nazirliyinin Gigiyena və Epidemiologiya Mərkəzinin Qidalanma Gigiyenası bölməsinin müdiri İmran Abdullayev isə bildirib ki, su istehsalı müəssisələrində suyun yenidən minerallaşdırılması məsələsi də indi gündəmdədir:** "Bəzi müəssisələrdə artıq suyun mineralizasiya prosesi keçirilir. Ümumiyyətlə, mineralsız suyu içmək orqanizmdə bəzi mikroelementlərin çatışmazlığına səbəb olur ki, minerallaşdırma prosesini keçirməyən su istehsalı müəssisələri də bunu nəzərə almalıdırlar".


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**




## Qəsəbə sakinləri Bakı-Astara yolunu bağladı

### Səngəçal qəsəbəsi ərazisində 9 yaşlı oğlanı maşın vurub öldürüb

**Yanvarın 18-də Bakının Qaradağ rayonunda sakinlər Bakı-Astara magistral yolunu bağlayaraq uzun tıxac yaranmasına səbəb olublar. Baş Dövlət Yol Polis İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi Kamran Əliyev "Qafqazinfo"ya bildirib ki, sakinlər yerüstü keçidin tikilməsini tələb ediblər:**

"Üç gün öncə Səngəçal qəsəbəsi ərazisində 9 yaşlı oğlanı maşın vurub, piyada aldığı xəsarətlərdən hadisə yerində vəfat edib. Bu gün isə qəsəbə sakinləri həmin hadisə ilə bağlı toplaşıblar. Onlar ərazidə yerüstü piyada keçidinin tikilməsini tələb ediblər. Sakinlərin toplaşması bir müddət yol hərəkətinə mane olub. Hazırda isə avtomobillərin hərəkəti bərpa edilib".

K.Əliyev bildirib ki, sakinlərin tələbi ilə bağlı müvafiq qurumlar müzakirə aparıblar.

## Bakıda azyaşlılar internetdə zorakılıq səhnələrini izləyə bilməyəcək

**Bakı şəhərində internetdən istifadə edən azyaşlılar ciddi psixoloji zərər yetirə biləcək zorakılıq, irqçilik, ekstremizm və aqressivlik təbliğ edən oyun, film və digər kontentlərin əks olunduğu saytlara girə bilməyəcəklər. Artıq valideynlər azyaşlıların girdikləri saytlara filtrləmə xidməti vasitəsilə nəzarət edə biləcəklər.**

Bakl Telefon Rabitəsi İstehsalat Birliyindən (BTRİB) virtualaz.org-a verilən məlumata görə, qurum müxtəlif yaş qruplarına aid istifadəçilər üçün "Təhlükəsiz internet" adlı layihəyə başlayır.

Bu xidmət fəal veb istifadəçiləri olan uşaq və yeniyetmələrin təlim-tədris prosesində, eləcə də gənclərin tədqiqat fəaliyyətində informasiya axınının təhlükə dərəcəsini qiymətləndirməyə, şəbəkənin faydalı tərəfini önə çəkməyə imkan verəcək. Təhlükəsiz internet layihəsinin tətbiqi ilə həm də böyüklərin arzuolunmaz məzmunlu videoreklamlardan, fişinq və viruslu saytlardan qorunması mümkün olacaq.

Layihə barədə yaxın günlərdə ictimaiyyətə daha ətraflı məlumat veriləcək.




## Taksi sürücülərinə xəbərdarlıq edildi




**Bakı Nəqliyyat Agentliyi (BNA) Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi ilə birgə paytaxtın inzibati ərazisində minik avtomobili ilə taksi xidməti göstərən fiziki və hüquqi şəxslər üçün maarifləndirici tədbirləri davam etdirir.**

**Agentliyin sektor müdiri Mais Ağayev** «Trend»ə açıqlamasında bildirib ki, məqsəd taksi fəaliyyəti ilə məşğul olan sürücülərə onların hüquq və vəzifələri barədə məlumatların çatdırılması, həmçinin taksi fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin "Fərqlənmə nişanları"nın alınması istiqamətində müxtəlif maarifləndirici məlumatların verilməsidir: "Bu çərçivədə növbəti tədbir metronun "Qara Qarayev" stansiyasının ətrafında keçirilib. Bakı Nəqliyyat Agentliyinin müffətişləri yol-patrul xidmətinin əməkdaşları ilə birgə bu ərazidə taksi fəaliyyəti ilə məşğul olan sürücülərlə hüquq və vəzifələri, eləcə də ümumi qanunvericiliyin tələbləri ilə bağlı izahat işləri aparıblar. Diqqətə çatdırılıb ki, hazırda paytaxt yollarında taksilərlə bağlı müşahidə edilən ən narahatedici məqam onların dayanma və durma qaydalarının tələbini pozaraq nəzərdə tutulmayan yerlərdə, xüsusən də avtobus dayanacaqlarında avtomobili park etmələridir. Bu hal isə küçə və prospektlərdə digər hərəkət iştirakçılarına mane olmaqla, avtonəqliyyat vasitələrinin sıxlığının yaranmasına səbəb olur".

**M.Ağayev deyib ki, BNA məsələnin həlli istiqamətində kompleks tədbirlər həyata keçirir:** "Bu çərçivədə ilk olaraq, Bakı şəhərində taksi dayanacaqlarının pasportlaşdırılmasına başlanılıb. Agentliyin xüsusi ekspert qrupu paytaxtın bütün küçə və prospektlərində, metro stansiyaları, alış-veriş mərkəzləri və əhalinin sıx toplaşdığı digər ərazilərdə bununla bağlı təhlillər aparır. Bunun nəticəsində, yerləşdiyi ərazidə avtonəqliyyat vasitələrinin və piyadaların hərəkətinə maneə yaratmayan dayanacaqlar pasportlaşdırılır. Artıq 79 belə dayanacaq pasportlaşdırılaraq taksi sürücülərinin ixtiyarına verilib. Yaxın vaxtlarda Qara Qarayev prospektində də yeni taksi dayanacaq yerləri müəyyən ediləcək".

Maarifləndirici xarakter daşıdığından, tədbir zamanı dayanma və durma qaydalarının tələbini pozan sürücülərə qarşı cərimə protokolu tərtib edilməyib. Lakin bildirilib ki, gələcəkdə qanunvericiliyin bu tələbinə əməl etməyən sürücülərə qarşı inzibati cəza tədbirləri görüləcək.

Qeyd edək ki, Bakı Nəqliyyat Agentliyi Bakı Şəhər Baş Polis İdarəsinin Dövlət Yol Polisi İdarəsi ilə birgə bu cür tədbirlərin mütəmadi olaraq keçirilməsi ilə bağlı razılığa gəlib.

YENİ MÜSAVAT
N 12 (6626) 19 yanvar 2017

**İŞİD-ə qoşulanlar, onların keçdiyi yol hər zaman müzakirə mövzusu olub. Elə gün olmur ki, dünya mediası terror təşkilatına qoşulanların ilginc hekayəsi barədə yazmasın. Onların arasında Azərbaycandan gedənlər də az deyil. Terror təşkilatında bir müddət olub, sonra öz ölkəsinə geri qayıdanlar da statistikanın əhəmiyyətli qismini təşkil edir. Amma hətta bir gün belə bu təşkilatda olmaq insanların həyat tərzinə, psixologiya və gələcəyinə ciddi zərbələr vurur.**

# İŞİD-ə qoşulanların həyat yolu: onlar niyə və necə terrorçu olurlar?

## Terror təşkilatına qoşulanlarla bağlı Qərb alimlərinin psixoloji rəyləri...



### Azərbaycandan İŞİD-ə qoşulanların özü ölüb, xanımı sağ qalıb

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) səviyyəsində İŞİD-ə qoşulanların və Suriyada qalan vətəndaşlarımızın geri qaytarılması məsələsi dəfələrlə gündəmə gətirilib. **Komitə sədri Mübariz Qurbanlı** mediaya açıqlamasında deyib ki, Suriyada İŞİD-ə qoşulanlar və onların ailələrinin - Azərbaycan vətəndaşlarının - ölkəyə gətirilməsi üçün xüsusi xidmət orqanları bir sıra tədbirlər həyata keçirəcək: “Azərbaycandan İŞİD-ə qoşulanların əksəriyyətinin ölməsinə baxmayaraq, onların həyat yoldaşları orada qalıb. Azərbaycanın xüsusi xidmət orqanları onların xanımlarını Suriyadan çıxarmağa çalışır. Təbii ki, həmin ölkəyə gedənləri sonradan tapmaq çox çətindir. Çünki orda nəinki qadınları, kişiləri də satırlar. İŞİD-ə qoşulan, Suriyaya döyüşmək üçün gedən insanların müxtəlif məqsədləri olub. Onlardan bəziləri pula, bəziləri üç qadın verildiyinə və bəziləri cihad məqsədilə Suriyaya getdiyini deyir. Ümumiyyətlə, İŞİD-in 60 min silahlısının 40 faizi Avropadan gəlib. Müsəlman ölkələri arasında ən az Azərbaycandan qoşulanlar olub”.

### Təşkilata necə adamı seçirlər?

Bu təşkilata qoşulanların çoxunun əsas funksiyası həm də canlı bomba olmaqdan ibarətdir. Təl-Əviv Universitetinin professoru Ariel Merari 50-dən artıq “canlı bomba” barədə sosial araşdırma aparıb. Araşdırmada nə ortaq bir xarakter, nə də patoloji bir şəxsiyyət özəlliyi üzə çıxarılıb. Amma bütün qatillərdə ən önəmli oxşarlıq onların heç diqqət cəlb etməmələri olub. Ağıla gələn sual isə “onlar da sizin, bizim kimi insanlardırmı”dır. Xarici görünüş etibarilə elədir. Amma onların ortaq psixoloji durumu var: “Narsist” bir ruh halı, “uc nöqtələrdə yaşamağı sevməsi”, intihar öncəsi sindroma düşmələri... Terror təşkilatları qurbanları seçən zaman sentimental, spontan qərarlar verməyi sevən, təsir altına düşən tiplərə üstünlük verirlər. Bundan başqa, onların cəmiyyətdə özlərinə yer tapa bilməyən tiplər olması arzuediləndir. Aksiyaçıların içində özünü fəda etmə, bir qəhrəman olma duyğusu ön plana çıxa bilir. Bundan başqa, ciddi şəkildə sosial təzyiqi də yaddan çıxarmaq olmaz. Təzyiqin ana xətti aşağıdakı kimidir: “Bunu həyata keçirmədiyin zaman qrupun içində hörmət görən bir insan kimi yaşama şansın yoxdur”.

### Onları inandırırlar - “o biri dünyada” ən böyük mükafat sənindir...

Maraqlıdır, milyonlarla gənc insan eyni depressiv atmosferdə yaşadığı halda, niyə onlardan bəziləri intihar komandosu olmağa qərar verir? “Canlı bomba” halına gələnə qədər nələrdən təsirlənir və hansı psixoloji təzyiqi hiss edirlər?

İntihar terrorizminin altında “şəhid olma” inancı dayanır. Adət-ənənələrlə yetişən dindar insanlar “o biri dünya” ilə bağlı vədlərə daha asan inanırlar. İnancları bu: **“Ən böyük mükafat onların olacaq, həm cənnətdə, həm də öldükdən sonra Yer üzündə, qəhrəman mərtəbəsinə yüksələcək, ölümsüz olacaqlar”...**

### “Sən terrorçu olmasan, burda insan kimi hörmət görməyəcəksən” - onları belə hazırlayırlar

Terror aksiyasından öncə “canlı bomba”ların motivasiya olmaları üçün narsist yaralarını deşirlər, varlıqlarının təhlükə altında olduğu təkrar-təkrar vurğulanır. Bununla da daxillərində şiddətli bir hücumçu potensialı yaradılır. Sözügedən şəxslərin şüuraltına isə bu fikir yeridilir: **“Sən bu aksiyanı həyata keçirməsən, burada da insan kimi hörmət görməyəcəksən. Amma bunu həyata keçirsən, özünü qəhrəman kimi tarixə salacaqsan”.**

Beyinyuma texnikasına “düşünməni dayandırma ritualı” da daxildir. Onlar qrup halında bir araya gəlib, toplu andlar içir, yaxşı və ya pis olmasından asılı olmayaraq bəzi sözləri xor halında saatlarla odlu-alovlu şəkildə təkrarlayırlar. Bu tədbirləri tez-tez təkrarlamaqla düşünmə qabiliyyətini də aşağı salırlar. Fərddə ən kiçik bir tərəddüd gördükləri zaman qrup mənəvi təzyiq tətbiq edir, “hamımız birimiz, birimiz hamımız üçün” janrında nitqlər söyləyirlər. Bununla da həmin şəxsin utanması və özünü günahkar hiss etməsi təmin olunur. Sonda da şəxs “qorxaq” damğasını yeməkdənsə ölümü tərcih edir.

### Avropalı qadınları internet vasitəsilə yoldan çıxarırlar

Bu mövzunun ən maraqlı detalı isə heç şübhəsiz ki, avropalı qadınların sözügedən təşkilata qoşulmasıdır. Məsələn, təkcə İngiltərədən son bir neçə ayda 60 nəfərə yaxın gənc xanımın Türkiyədən Suriyaya keçərək İŞİD-ə qatıldığı təxmin edilir. Bu qadınlar Suriyaya çatan kimi ABŞ, Avstriya, Fransa, Hollandiya, Kanada, Norveç və İsveç kimi Avropa ölkələrindən gələn qadınlarla görüşürlər. Bu işdə sosial şəbəkələrin təsirinin böyük olduğu kifayət qədər məlumdur. İslami həyat tərzini və cihada qatılmağı idealizə edən və İŞİD təbliğatı aparan internet saytları gənc xanımlara Suriyaya getmək mövzusunda yardım edir. Əvvəllər Suriyaya müsəlman qadınlar əsasən İŞİD tərəfindən döyüşən həyat yoldaşlarının yanına gedirdilər. Yüzlərlə gənc qız Qərb ölkələrini tərk edərək, Yaxın Şərqə islamçılara qoşulmağa yollanır. Ölkələrini tərk edən qızlar 14-15 yaş arasındadırlar və onlar əsasən Suriyaya islamçılarla evlənib onlara uşaq doğmağa yollanır. Məlumatda qeyd olunur ki, islamçılara (əsasən İŞİD-ə) qoşulan qızların 90 faizini Fransa vətəndaşları təşkil edir. Əldə olunan məlumatlara görə, 63 Fransa vətəndaşı olan qız Yaxın Şərqə yollanıb. Britaniya ekspertləri bildiriblər ki, Birləşmiş Krallıq vətəndaşı olan təxminən 50-yə yaxın qız İŞİD-ə qoşulub.

### Daha çox miqrantlar terrorçu olmaq istəyir

Statistika isə göstərir ki, təkcə Almaniyadan İŞİD-ə qoşulmaq üçün gedən 378 “şəhid xanım”ın böyük əksəriyyətini miqrant ailələrin qızları təşkil edir. Cəmi 54 qız İslamı qəbul etmiş alman olub. Təxminən üçdə biri isə 21-25 yaşlarındadır. İŞİD-ə qoşulan qızların cəmi 12 faizi “radikallaşmadan” öncə iş yerlərinə sahib olublar. Amma bu işli-güclü xanımların da əksəriyyəti qeyri-leqal bizneslə məşğul imişlər. Böyük əksəriyyəti təhsilini ya orta, ya ali məktəb mərhələsində yarımçıq saxlayıb.

Qızların 60 faizi ən azı bir dəfə məhkum olunub. Onlar əsasən zorakılıq, oğurluq və ya narkotik alverinə görə həbs ediliblər. İŞİD-ə qoşulan qadınları əsasən gənc, savadsız və perspektivsiz adlandırmaq olar. **“Bir çox gənc alman Almaniya vətəndaşı olmasına baxmayaraq, bu ölkədə özünü marginal, cəmiyyətdən təcrid olunmuş hiss edir. Onlar öz ölkələrində özlərinə heç bir perspektiv görmür, əksinə, özlərini uğursuz hesab edirlər. Dünya mətbuatı, qəzet və televiziyalar demək olar ki, hər gün İŞİD-in "uğurları" barədə yazır. Ona görə də İŞİD-ə qoşulan qadınlar “cihada qoşulsam, uğur qazanaram, bütün dünya mənim haqqımda danışar” deyə düşünürlər".** Bunu da almaniyalı psixoloqlar bildiriblər.

Ekspertlər isə hesab edirlər ki, cihada yardım etmək adı ilə İŞİD-ə qoşulanlar bir qayda olaraq sonradan qıfıl altında qalır və ancaq ordakı hərbçi kişilərə qulluq edirlər. İŞİD-çilər qadınları, gənc qızları ora cəlb etmək üçün internet, xüsusən də sosial şəbəkələrin gücündən istifadə edirlər. Cəlbedici reklam rolikləri, yüksək keyfiyyətli videolar, kompüter oyunları bu məqsədlə hazırlanır, sosial şəbəkələrə buraxılır. Necə deyərlər, onlar internet çatından, forumdan çıxmadan insanların arzu-istəkləri ilə oynayır, onları öz tərəflərinə çəkirlər.

❑ **Sevinc TELMANQIZI**



# Ruslar növbəti dəfə “Suriyadan çəkilir”

## Moskvanın təyyarədaşıyan gəmiləri və döyüş təyyarələrini Suriyadan çıxarmasının arxasındakı səbəblər

**Rusiya ordusunun hərbi texnikası Suriyadan çıxarılır. Son məlumatlara görə, 6 ədəd "SU-24" tipli döyüş təyyarəsi Rusiyaya geri qaytarılıb. Ancaq eyni zamanda Suriyaya yeni hərbi döyüş təyyarələri "SU-25"lər göndərilib.**

Rusiya Müdafiə Nazirliyi yanvarın əvvəllərində Rusiya ordusunun bir hissəsinin Suriyadan çıxarılacağını bəyan edib. Rusiya ordusu Baş Qərargah rəisi, ordu generalı Valeri Gerasimov bildirib ki, ordunun bir hissəsi ilkin mərhələdə Suriyadan çıxarılacaq. Bunların sırasında “Admiral Kuznetsov” təyyarədaşıyan gəmisi, “Böyük Pyotr” kreyseri və onları müşayiət edən gəmilər var.

Qeyd edək ki, ilk dəfə ötən ilin martında Rusiya hərbi hava qüvvələrinə məxsus 30 döyüş təyyarəsinin Suriyadan çıxarıldığı haqda xəbərlər yayılmışdı. Həm indi, həm də ötən il yayılan xəbərlərdə Suriyadan geri çağırılan döyüş təyyarələri arasında əsasən "SU-25"lərin adı qeyd olunurdu.

Məlum olduğu kimi, "SU-25" təyyarələri SSRİ dönəmində istifadəyə verilmiş, alçaq uçuşlar həyata keçirən, hava və yerdəki hədəflərə qarşı əməliyyat keçirən döyüş təyyarələridir. "SU-25"lərin uçuş və manevr imkanları yüksək qiymətləndirilməsə də, onların əsas üstünlüyü yerdəki hədəflərə raket, bomba və aviasiya topları ilə atəş açmaq imkanına sahib olması, xüsusən də yerdəki hərbi texnika - tank, zirehli maşın, artilleriya qurğuları və canlı qüvvələrə qarşı əvəzsiz silah hesab olunur. Bu qırıcılar Əfqanıstan müharibəsində geniş istifadə olunub və amerikalıların verdiyi “Stinger” raketləri ilə əfqanlar xeyli sayda "SU-25" vurublar.

Hazırda Rusiya ordusunda və dünyanın müxtəlif ordularında, o cümlədən Azərbaycan ordusunun istifadəsində "SU-25" döyüş təyyarələri var. Rusiyada bu təyyarələrin yenilənmiş modelləri də mövcuddur. Suriyada məhz yaşayış məntəqələrində, kiçik hədəflərə qarşı bu təyyarələrdən istifadə olunub. Ancaq görünür ki, rusların artıq Suriyada bu tip təyyarələrə ehtiyacı yoxdur. Rusiya ordusu Suriyada son zamanlar daha çox uzaq məsafəyə uçan bombardmançılardan daha çox istifadə edir. Suriyada daha çox Rusiya "SU-24" bombardmançı təyyarələri və ən yeni nəsil "SU-34" qırıcı-bombardmançıları, eləcə də uzaq məsafəyə uçan "TU-22" təyyarələrindən istifadə edir. Sonuncular Rusiyanın mərkəzindən havaya qalxaraq Suriyadakı İŞİD mövqelərini bombalayaraq geri dönmək qabiliyyətinə malikdir.

Bütün digər savaşlar olduğu kimi, Suriya müharibəsi də Rusiya üçün yeni silahların sınaqdan keçirilməsi oldu. Rusiyanın bir sıra yeni silah və texnikası ilk dəfə Suriya müharibəsində göründü. Rusların təxminən hər 6-9 aydan bir Suriyadan ordunu çıxarmaları bəyanatı və ardınca müəyyən hərbi texnika və silahların çıxarılması ictimai rəyə hesablanmış gedişdir. Moskva dünya ictimai rəyində Suriyada daimi qalmaq fikri olmadığı mənzərəsini yaratmağa çalışır. Eyni zamanda savaşın şərtlərinə uyğun olaraq texnikaları dəyişdirir. İndi Suriyada əməliyyatlar əsasən böyük yaşayış məntəqələrinin geri alınması istiqamətində aparılır. Bu səbəbdən də ruslara Suriyada ağır tonnajlı bombardmançılar daha çox lazımdır, nəinki kiçik qabaritli döyüş təyyarələri. Digər tərəfdən, “tank ovçusu” adlandırılan "SU-25"lərin Suriyada hansısa ciddi effekt verməsi mümkün deyil. İndi ağır bombardmançılar daha faydalıdır. Yəqin ki, Suriyada "SU-25"lər ölkə bütövlükdə təmizləndikdən sonra kiçik terror qruplarına qarşı “ov” əməliyyatları zamanı onları axtarıb tapıb məhv etmək üçün lazım olacaq. Bu səbəbdən də ruslar indi texnikaların yerdəyişməsini edirlər.

Yeri gəlmişkən, gələn həftənin əvvəli Astanada Suriya münaqişəsinin həlli ilə bağlı danışıqlar başlayır. Türkiyə, Rusiya və İranın birgə razılığı ilə keçirilən danışıqlara Suriya hökuməti, 14 müxalif qrup və eləcə də ABŞ hökuməti dəvət olunub. Türkiyənin təklif etdiyi Qətər və Səudiyyə Ərəbistanının iştirak edib-etməyəcəyi məlum deyil.

Danışıqların Suriyada ciddi dönüş olacağı, ən azından terrorçu və siyasi müxaliflərin ayrılması baxımından xüsusi əhəmiyyət kəsb edir. Görünür, silah və texnikanın çəkilməsi həm də danışıqlar və atəşkəs rejimi ilə bağlıdır.

❑ **Kənan RÖVŞƏNOĞLU**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 12 (6626) 19 yanvar 2017*


# Dünyanın ən yaşlı qorillası öldü

Amerikanın Ohayo ştatının Kolumbus şəhərində yaşayan dünyanın ən yaşlı qorillası ölüb. 2016-cı ilin dekabrında heyvandan bədxassəli şişi götürüblər. Zooparkda hesab edirdilər ki, qorilla sağalır, ona görə də onun ölümü gözlənilməz oldu. O, ölümünə saatlar qalana qədər zoopark izləyicilərinin qarşısına çıxıb. Kolo ləqəbli qorilla Kolumbus zooparkında 1956-cı ilin 22 dekabrında dünyaya gəlib. Zoopark baxıcıları onun qayğısına kiçik uşağın qayğısına qalırmış kimi qalırdılar. Belə ki, uşaq geyimləri geyindirir və südlə bəsləyirdilər. Bu meymunun 3 uşağı olub ki, onlar da azad təbiətdə cütləşiblər. Meymunların bu növünün orta yaş həddi 40-ı təşkil edir. Xüsusən zoopark şərtləri daxilində bu qorillalar nadir halda 50 yaşa qədər yaşayırlar. 2008-ci ildə isə Cenni ləqəbli meymun 55 yaşında öldü. Buna səbəb onun mədəsində üzə çıxan şiş idi. Bu şişə görə meymun yemək yeyib, su içə bilmirdi.





## Keçmiş sevgilisinə görə 65 kilo arıqladı

Sidney sakini keçmiş sevgilisinin acığına 65 kilo çəki atıb. 25 yaşlı Heyli Vestobi birinci ali təhsil ili zamanı çəkisini 119 kiloya çatdırıb. Qız fast-fooddan və alkoqoldan hədsiz dərəcədə çox istifadə edib. Bu, sevgilisi ilə dava edən günə qədər davam edib: “Biz hansısa axmaq məsələyə görə mübahisə edirdik. Birdən o qayıdıb mənə dedi ki, sənə arıqlamaq heç də mane olmaz”.

Davadan sonra avstraliyalı qız öz həyat tərzinə yenidən nəzər salıb və qərara gəlib ki, o, mütləq şəkildə arıqlamalıdır. Uestobi düzgün qidalanma üsuluna və idman zalında müntəzəm idman etməsinə görə arıqlaya bilib: “Ürəyimin dərinliyində bilirdim ki, o, mənə qarşı kobudluq etmək istəmədi. Sadəcə, mənim kökəlməyimlə bağlı həyəcanını səsləndirdi”.

Bu ilin yanvarında ABŞ sakini Katrina Rayford da 434 kilodan 177 kiloya qədər arıqlayandan sonra internetdəki tanışlıq saytlarında qeydiyyatdan keçərək özünə sevgili axtarmağa başlayıb.

# Şişman uşaqlar allergiyanı ağır keçirir

**Türkiyəli alimlər gigiyena dəlisi olan valideynləri düşündürəcək yeni bir araşdırma hazırlayıb. Məlum olub ki, gigiyenik atmosferdə böyüyən uşaqlarda allergiya riski çoxdur.**

Ayaqyolulardakı gigiyena problemindən asılı olaraq bakterial infeksiya riski də böyüyür. Təmizkar ailədə böyüyən uşağın allergiyaya da meylliliyi varsa məktəbdə daha tez xəstəliyə tutula bilər.

Bundan başqa, şişman uşaqların da allergiyanı çox ağır keçirdiyi üzə çıxıb. Uşaqları allergiyaya meylli olan valideynlərin evdə siqaret çəkməməsi tövsiyə olunur. Alimlər bildirir ki, allergiyaya genetik bağlılığı olan və xüsusilə həssas böyüdülən uşaqların Günəş görən sinifdə oxuması məsləhətdir. Bundan başqa, həmin məktəbdə siqaret çəkilməməli və siniflərin havası tez-tez dəyişməlidir.





## Elektron siqaret ağzında partladı, 7 dişini itirdi

**Amerikanın Aydaxo ştatının sakini elektron siqaretdən xəsarət alıb...**

Belə ki, siqaret onun ağzında partlayıb. Endrü Hall adlı şəxs işə hazırlaşdığı dəqiqələrdə evdə siqaret çəkirmiş. Bir anda ağzında partlayan siqaret onun 7 dişini itirməsinə, üzündə yanıq izlərinin yaranmasına və dodaqlarının yanmasına səbəb olub. Onu dərhal stomatoloq yanına aparıblar. Hazırda zərərçəkən çətinliklə yemək yeyir.

Holl sosial şəbəkədə elektron siqaretin partlaması ilə üzündə yaranan yanıqları nümayiş etdirən fotosunu paylaşıb. Amerikalı kişi bildirib ki, o, alətin sıradan çıxması üçün heç nə etməyib. Bu fotonu izləyənlərin sayı isə 50 mini ötüb.

2016-cı ilin dekabr ayında isə Britaniyanın Lids şəhərində bir vətəndaşın cibində elektron siqaret öz-özünə partlayıb. Həmin vaxt kişi uşaq arabasının yanında olub. Xoşbəxtlikdən uşağa hər hansı xətər dəyməyib.




**QOÇ** - İxtiyarınızda olan bu günü çox rahat şəkildə başa vuracaqsınız. Maddi müstəvidə qazanmaq imkanlarınız da var. Ən başlıcası, ulduzlar aldığınız bütün təkliflərə razılıq verməyinizi təvəqqe edir.

**BUĞA** - Çalışın ki, fəaliyyət və qarşılıqlı münasibətlərdə yanlışlığa yol verməyəsiniz. Əks təqdirdə, ciddi problemlərlə rastlaşa bilərsiniz. Bu gün mənəvi dəyərlərə və hörmət qazanmağa daha çox üstünlük verin.

**ƏKİZLƏR** - Əsas məqsədi işgüzar sövdələşmələrə yönəldin ki, gələcək perspektivlərinizə yol açılsın. Ulduzlar təvəqqe edir ki, bu gün heç kimə yalan vədlər verməyəsiniz və təşəbbüskarlığı əldə saxlayasınız.

**XƏRÇƏNG** - Bu təqvimdə gücünüz artdığından bütün vacib planlarınızı yavaş-yavaş həyata keçirməlisiniz. Yalnız maliyyə məsələləri ilə bağlı ehtiyatlı olun. Nahardan sonra uzaq səfərə cıxmaq planlarınızı gerçəkləşdirin.

**ŞİR** - Dəyişkən fikirli insanlarla hər hansı bir işbirliyinə getməyin. Özünüzü qiymətli tutun. Saat 10-11 və 17-19 aralığında ağlınız kəsməyən bütün müzakirələrdən vaz keçin. Axşam gəzintisi yaxşı olar.

**QIZ** - Ürəyinizdən Tanrı eşqini çıxarmayın, müqəddəs yerlərə baş çəkin, ətrafınızda olan hər kəsə xeyirxahlıq göstərin. Yalnız bu halda uğurlarınız arta bilər. Bu gün uzaq səfərləri mümkün qədər təxirə salın.

**TƏRƏZİ** - Köhnə mübahisələrə, yarıtmaz tərəfdaşlarla haqq-hesab çürütməyə vaxt itirməyin. Yalnız böyük ideyalarınız barədə düşünün. Bunu bacarsanız, saat 15-dən o tərəfə uğurlar sizi müşayiət edəcək.

**ƏQRƏB** - Astroloji göstəricilər əsəblərinizin xeyli sakitləşdiyindən xəbər verir. Bu isə böyük işlər görməyinizə stimul verəcək. Odur ki, proqnozumuzdan xəbər tutan dəqiqədən hərəkətə keçin. Riskdən qorxmayın.

**OXATAN** - İstənilən situasiyada reallığa uyğun addım atın. Hər hansı qərəz nümayişi yolverilməzdir. Bu gün üzərinizə ağır öhdəliklər də götürməyin ki, dostlar yanında nüfuzdan düşməyəsiniz.

**OĞLAQ** - Bürcünüzün sonuncu tam təqvimini yaşayacaqsınız. Bu səbəbdən də nəzərdə tutduğunuz planların icrasını sürətləndirin. Ələlxüsus da şəxsi büdcənizi artırmağa çalışmalısınız.

**SUTÖKƏN** - Bürcünüzün Zodiakda hökmran olmağa hazırlaşması sizə əlavə stimul verəcək. Amma gərək riskli addımlardan çəkinəsiniz. Saat 14-dən sonra bir neçə sürprizlə rastlaşma ehtimalınız var. Qidanıza fikir verin.

**BALIQLAR** - Qarşınızda neytral bir gün durur. Hər hansı sürpriz və ya uğursuzluq gözlənilmir. Yaxşı olar ki, gün ərzində yalnız adi işlərin həlli ilə məşğul olasınız. Yaxın məsafəyə səfər etmək də olar.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Dünyanın ən zərərli içkisi



**Mütəxəssislər dünyadakı ən qeyri-sağlam içkini kəşf ediblər. Bu, kalorisi və doymuş yağ miqdarı baxımdan ən zərərli içkidir. Mütəxəssislər xüsusən də içərisində şokoladlı dondurma qoyulan “milkshakele”nin qaraciyər düşməni olduğunu açıqlayıb. Tərkibində qoruyucu maddə olsa da, bu içkilər şişmanlığa səbəb olur. Bundan başqa, sözügedən içkinin həvəskarlarına onu evdə hazırlamaq və həftədə cəmi 2-3 stəkan içmək məsləhət görülür. Çünki bayırdan alınan “milkshakele”lərin tərkibində zərərli maddələr üstünlük təşkil edir.**

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.100